Dəyərlərin öyrənilməsi ilə bağlı birinci istiqamətə M.Rokiçin və P. İnqlhartın tədqiqatlarını misal göstərmək mümkündür. Psixologiyada dəyərlərin konseptuallaşdırılması və ölçülməsi ilə bağlı aparılan tədqiqatlar M. Rokiçin adı ilə bağlıdır. M.Rokiç ilk dəfə olaraq dəyərləri yönəlişlərdən aslı olmayan müstəqil anlayış kimi öyrənməyin vacibliyini önə çəkdi. M. Rokiçin fikrincə, dəyərlər insanın davranışda və qarşıya qoyulan son məqsədə özünü biruzə verən sabit inaclarının göstəricisidir. Dəyərlər və yönəlişlər insanların sosial davranışını tənzimləyən psixoloji determinantlardır. Lakin bu iki anlayışı bir-birinə qarışdırmaq olmaz. Onun fikrincə yönəliş-konkret obyektə və ya situasiyaya istiqamətlənən intensional vəziyyət tipidir. Yönəlişlərdən fərqli olaraq dəyərlər daha mücərrəd xarakter daşıyır, lakin ayrı-ayrı insanların həyatında daha vacib yer tutur. Onlar xüsusi məzmuna (xüsusiyyətlərə), intensivliyə, münasibətlərin normativliyini və sosail arzulunanlığını bildirməklə yanaşı, eyni zamanda özünüqiymətləndirmə və identiklik hissi ilə sıx qarşılıqlı əlaqədədir. M. Rokiçin öz yanaşmasında dəyərlərin iki tipini fərqləndirir: terminal və instrumental.

Dəyərlər problemini tədqiq edən P.İnqlart öz yanaşmasında daha çox onların transformasiyası məsələlərini təhlil etməyə çalışır. M.Rokiçdən fərqli olaraq R.İnqlart öz tədqiqatlarında yetkinlik yaşında şəxsiyyətin dəyərlər sistemində baş verən dəyişikliklərin baş verməsinin mexanizmini yox, daha çox cəmiyyətin iqtisadi və texnoloji dəyişiklərin bu prosesə

göstərdiyi təsiri aydınlaşdırmağa çalışırdı. Eyni zamanda modernləşmə və demokratiya prosesi mədəniyyətdə iki açar bipolyar yaşama və onun əksi olan özünüifadə etmə, ənənəvi və onun əksi olan sekulyar – rasional avtoritetlərin dəyişmənin əsasında meydana gəlir. Birinci dəyişmənin əsas komponenti kimi maddi dəyərlərə zidd olan postmaddi dəyərlər çıxış edir. Belə ki, maddi dəyərlərə üstünlük verən cəmiyyətlər ilk növbədə yaşamağa, fiziki mövcudluğa, təhlkəsizliyə və maddir rifaha üstünlük verirlər. Postmaddi cəmiyyətlərdə isə muxtariyyətə cəhd, özünüifadə, qrupa mənsubluq, şəxsiyyətlərarası ünsiyyətdə inam və toleriantlıq, həyat keyfiyyətinin yaxşılaşdirilması üstünlük kəsb edir.

Şəxsiyyətin dəyərlər sisteminin tədqiqi ilə bağlı ikinci istiqamətə H. Hofstede, H. Trinadis, Ş.Svars, F. Trompenaaps, Ç.Xemden-Terner kimi tədqiqatçıları aid edə bilərik. Qeyd etdiyimiz tədqiqatçılar diqqəti ayrı-ayrı mədəniyyətləri bu xüsusiyyətlərin intensivliyinə görə müqayisə etməyə imkan verən universal dəyişikliklərin öyrənilməsinə yönəldib. Bu mədəni relyativz nöqteyi nəzərini istisna etmir. Bu istiqamətdə aparılan ilk tədqiqatlar H. Hofstedenin adı ilə bağlıdır. H. Hofstedenin bu istiqamətdə apardığı tədqiqatlar milli mədəniyyətlərin beş ölçülü modeli adlanır. XX əsrin 70-ci illərində hollandiyalı alimin geniş miqyasda apardığı kross-mədəni tədqiqatlar yer üzünün beş qitəsini əhatə etməklə 50 ölkədə aparılmışdır. Tədqiqatda 100000 min nəfər insan iştirak etmişdir.

H. Hofstede mədəniyyəti kollektiv ağıl proqramına və ya ağlın proqram təminatına görə müxtəlif qruplara mənsub olan insanların bir-birindən fərqlənməsi kimi təsnif edir. Mədəniyyət fərdin yox cəmiyyətin (kollektiv identiklik) fərqləndirici əlamətidir. Bu baxımdan mədəniyyətin nüvəsi hesab olunan dəyərlərin öyrənilməsi xüsusi maraq doğurur. Onun fikrincə , dəyərlər fərdə 10 yaşına qədər formalaşır və onları dəyişmək olduqca çətindir. O, bunun səbəbi kimi dəyərlərin bir çoxunun şərtsiz reflekslər kimi şüuraltıda fəaliyyət

göstərməsini göstərir. Bütün dəyərlər bir-biri ilə qarşılıqlı əlaqədədi, müəyən intensivliyə malikdirlər və bir yerdə şəxsiyyətin dəyərlər sistemini və ya irerxiyasını yaradırlar. H.Hotsfede öz yanaşmasında dəyərləri üç tipə bölür.

- Başqa insanlara münasibətlə bağlı olan dəyərlər;
- Obyektlərə və hadisələrə münasibətlə bağlı olan dəyərlər;
- Allaha və daxili "Mən"ə münasibətlə bağlı olan dəyərlər.

Simvollar, qəhramanlar və rituallar mədəniyyətin periferik səviyyəsini yaradır və praktika kimi özünü göstərir. Sosial təkamül zamanı onlar çox asanlıqla dəyişə bilirlər. Xofstede dəyərlərin faktor analizinin və mədəniyyətləarası müqayisəsinin nəticəsində milli mədəniyyətlərdə beş əsas fasiləsiz dəyişikliyi qeyd edir.Sonda qeyd edək ki, Hofstede mədəni dəyərlərin məzmun baxımından analizini verir.

Dəyərlər problemini öyrənməyə çalışan H.Trinadis apardığı tədqiqatlar nəticəsində "mədəniyyət sindromları" anlayışını irəli sürdü. Mədəniyyət sindromu eyni tarixi dövrdə və coğrafi regionda yaşayan və eyni dildə danışan insanların ümumi yönəlişləri, inacları, sosial rolları kimi müəyyənləşdirilir.

H.Trinadis bütün mədəniyyətlərə məxsus olan 4 universal mədəniyyət sindromunu müəyənləşdirir: mədəni mürəkkəblik, mədəni təzyiq, fərdilik və kollektivizm.

Problemin öyrənilməsinə üçüncü yanaşma Hollandiya psixoloqu F.Trompenaars və onun ingilis həmkarı Ç.Hempden-Ternerin adı ilə bağlıdır. Onun fikrincə mədəniyyət insanlar qrupunun müəyyən bir problemi və ya dillemanı həll etmək vasitəsidır. Onlar belə hesab edir ki, insanlığın qarşısında 3 universal problem dayanır: 1)Digər insanlarla qarşılıqlı münasibət; 2) Zamana münasibət; 3) Təbətə münasibət

Şəxsiyyətin dəyərlər sistemini tədqiqi ilə bağlı dördüncü yanaşmaya Ş.Şvarsın dəyərlərlə bağlı təsnifatını aid etmək olar.

Onun fikrincə hər bir dəyər bir çox motivasiyon tendensiya və məqsədə malikdir. Onların fərdi şəkildə meydana gəlməsi insanın gündəlik fəaliyyətində müxtəlif məqsədlərin üst-üstə düşməsindən və ya konfiliktin yaranmasından aslıdır. Ş.Şvarsın dəyərlərin strukturu və məzmunu ilə bağlı apardığı tədqiqatlar dəyərlərlərin kross-mədəni tədqiqi ilə bağlı aparılmış tədqiqatlar zamanı öz təsdiqini tapmışdır.

Dəyərlərə digər bir yanaşma isə K.Bayçinskinin adı ilə bağlıdır. K.Bayçinski dəyərlərə həyat fəaliyyətinin özünün, eləcədə onun subyektinin keyfiyyət layihəsi kimi baxırdı [6]. Onun fikrincə, dəyərlər sisteminin strukturu əhəmiyyətinə görə fərqlənən bir sıra vertikal səviyyələri özündə ehtiva edir. Eyni zamanda hər bir səviyyə müəyən intensivliyə malik olan bir sıra dəyərlərdən təşkil olunub. K.Bayçinskinin fikrincə, dəyərlər sisteminin strukturu nibətən sabit xarakter daşıyır, lakin ekstremal situasiyalarda müxtəlif dəyişikliklərə məruz qala bilər. Onları aşağıdakı kimi qruplaşdıra bilərik.

1.Dəyərlər sisteminin irearxiyasında dəyərin yerinin dəyişməsi (bir sıra dəyərlərin əhəmiyyəti artır, bir sıra dəyərlərin əhəmiyyəti azalır);

2.Reqressiv və proqressiv dəyişikliklər-dəyərlər sisteminin strukturunun koqnitiv baxımdan mürəkkəbləşməsi və ya sadələşməsi;

3.Vacib dəyərlərin intenivliyinin yüksəlməsi və ya aşağı düşməsi;

4.Hələ fəaliyyət göstərən dəyərlərə əks olan dəyərlərin yaranması [6].

Qeyd edilən bu yanaşmalar dəyərlər sisteminin müxtəlif struktura malik olduğunu göstərir. Onların hər biri psixoloji tədqiqatlarda özünəməxsus yerə malikdir. Qeyd edək ki, dəyərlər anlayışı və onun məzmuna ilə bağlı müəlliflər arasında müxtəlif baxışlar olsada, əksər tədqiqatçılar belə hesab edirlər ki, dəyərlər şəxsiyyətin strukturunda və onun davranışının determinasiyasında mühüm rol oynayır.

**Ədəbiyyat**

1.Ядов, В. А.). Саморегуляция и прогнозирование социального поведения личности. Ленинград, Из-дательство «Наука». 1979

2.Triandis, H. C., McCusker, C., & Hui, C. H. (1990). Multimethod probes of individualism and collectivism. Journal of Personality and Social Psychology, 59, p.1006–1020.

3.Morris, C. W. Varieties of human value. Chicago, IL: University of Chicago Press. 1956

4.Хофстеде, Х. (2001). Култури и организации: софтуер на ума. С., Издателство «Класика и Стил».

5.Триандис Г. Культура и социальное поведение. М.: Форум, 2007. С.176.

## ƏQLİN TƏNQİDİLİYİ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

***Nəsirova Nigar Ruslan qızı***
***BDU-nun Psixologiya kafedrasının müəllimi,***
***Psixologiya üzrə fəlsəfə doktoru***

Rəqəmsal cəmiyyət öz aqressiv həyat standartlarını insanlara məcburən təlqin edir.Ətrafımızda olan informasiyanın miqdarı gün-gündən artmaqdadır. Hətta bəzən yetişkin insanlara lazımı lazımsızdan, doğrunu yalandan ayırmaq çətin olur. Daimi olaraq internetə aludə olmuş insanlar təfəkkür və fəaliyyətlərinin məqsədəuyğunluğunu itirir, özlərini tənzim etməyi bacarmır, öz mənəvi güclərini anlıq, lazımsız şeylərə tükədirlər. İnformasion fəzada itməmək üçün özünü həmişə tikan üstündə tutmaq və hər bir gələn informasiyaya tənqidi yanaşmaq lazımdır.

Belə şərait uşaqlar üçün daha çətindir. Hələ tam inkişaf etməmiş iradə və təkəkkür onları bütün parlaq, dinamik və

cəlbedici şeylərə maraq göstərməyə məcbur edir. Beləliklə də, tam formalaşmayan və müəyyənləşməyən şəxsiyyət informasiya dalğalarında bilinməyən istiqamətdə hərəkət edir. Bu da təhlükəli cəmiyyətlərə qoşulma, mənəvi və mədəni çöküşə, rəqəmsal ağıldankəmliyə, oyun və internet asılılığına səbəb olur [2, səh 10].

Bəs belə vəziyyətlə uşaqlar necə baş etsinlər? – Təhsil sistemi uşaqlara bu vəziyyətlə baş etmək üçün "situasiyani dəyişə bilmirsənsə - ona olan münasibətini dəyiş" prinsipini öyrədərək onlarda tənqidi təfəkkürü formalaşdırmağı təklif edir. Bunu məsələnin asan həlli kimi göstərmək olar, belə ki, məhz əqlin tənqiliyi hesabına biz doğrunu yanlışdan ayıra, özümüzü kontrol altında saxlaya bilirik.

Lakin əqlin tənqidiliyi təkcə internet aləmində özünü qorumaq üçün lazım deyil. O uşaqlara həm də yaşıdları ilə münasibətlərində lazım olur. Belə təfəkkür yaşıdların zərərli təsirlərindən qorunmağa, çətinlikləri dəff etməyə, öz səhvlərini və uğursuzluqlarını adekvat surətdə qəbul etmək üçün lazım olur. Onsuz düşünülmüş seçim, özünüinkişaf və ciddi məqsədlərə çatmaq mümkün deyildir. əqlin tənqiliyi insanlara bütün dövrlərdə lazım olub və onlarda bu inkişaf etməyə davam edib. Lakin indiki dövrdə, uşaqlarda əqlin tənqiliyini müxtəlif texnikalar istifadə etməklə hələ məktəbəqədər dövrdən inkişaf etdirməyə  başlayırlar. Bunun bir neçə səbəbi vardır. Onlardan birini biz artıq yuxarıda qeyd etmişik. Dövrümüzün internet əsri olduğunu nəzərə alsaq uşaqlar bu fəzada qarşılarına çıxan hər bir informasiyanı ağlın filtirindən keçirməyi bacarmalı, əhəmiyyətli informasiyanı lazımsızdan ayırmağı bacarmalıdır [1, səh. 471].

İkinci səbəb, hazırda olan təhsil standartlarıdır. Bu standartlar məktəbdə uşaqlardan bilik, bacarıq və vərdişlər qazanmağı tələb etmir, onun yerinə "öyrənməyi öyrənmək" məqsədi qoyur, yəni uşaqlar özləri qarşılarına məqsədlər qoymağı, onlara çatmağa və nəticələri qiymətləndirməyi tələb edir. Qə-

bul etmək lazımdır bunu bəzən yetişkinlər etməyi bacarmırlar, ona görə də bu standartların qarşısında təhsil sistemi qarşısında uşaqlarda kütləvi surətdə hələ məktəbəqədər dövrdə tənqidi yanaşmanı formalaşdırmaq məqsədi durur [2, səh 13].

Təfəkkürün tənqidiliyinin əsas xüsusiyyətlərini müəllimin uşaqların tapşırıqlarını yoxlaması prosesində qısaca olaraq nəzərdən keçirək: Müəllim tapşırığı yoxlayarkən fikrən özünə bəzi suallar verir: bütün tapşırıqlar həll edilib? Onlar düzgün həll edilinmi? Əgər göz önündə hazır cavablar yoxdursa siz onları fikrən yenidən nəzərdən keçirməli olacaqsız. Bu əqlin tənqidiliyinin vacib komponentlərindən biridir. Daha sonra müəllim həll yolunun düzgün tərtib edilməyinə, qoyulan bütün tələblərə əməl edilib edilmədiyinə nəzər salır. Şagirdə hansı qiyməti verməyi, qiymətin şagirdin sonrakı təhsilinə, onun motivasiyasına necə təsir edəcəyini düşünür. Nəticədə müəllim kimisə düzgün yazdığına görə 5, kiminsə səliqəli yazmağını qiymətləndirmək üçün 3, digərinə səhvlərini başa salmağa salmağa dərsdən sonra saxlamağı, o birinin gündəliyində digər qiymətləri yoxlamağı planlaşdırır [3, səh 24].

Yuxarıda göstərdiyimiz misalda əqlin tənqidiliyinin xüsusiyyətləri özlərini aydın şəkildə göstərir. Onları daha konkret formada sadalayaq:

Siz informasiyanın kor koranə deyil, onu yoxlayarq qəbul edirsiz. Bizim çəkdiyimiz misalda müəllim təkcə informasiyanı deyil, onun əmələ gəlməsində olan fikri fəaliyyəti də yoxlayır.

Inkişaf etmiş tənqidi təfəkkür təkcə daxil olan infirmasiyada fokslanmır, onu daha geniş nəzərdən keçirir. Göstərdiyimiz misalda müəllim şagirdin niyə bu səhvi etdiyini, ona bu mövzunu başqa hansı üsulla izah edə biləcəyini fikirləşir. Başqa sözlə desək, insan bir elementi izolyasiya deyilmiş deyil, sistemli şəkildə görür, yəni əqlin tənqidiliyi təfəkkürün sistemliliyi ilə ayrılmaz vəhdət təşkil edir.

Əqlin tənqidiliyi təkcə informasiyanın qiymətləndirilməsi deyil (doğru-yanlış), həm də fikrin aktiv inkişafını şərtləndirir. Yəni, inkişaf etmiş əqlin tənqidiliyi yaradıcı xarakter daşıyır. Əgər bu səhvdirsə, bəs düzgün olan nədir?, Əgər bu seçim və ya davranış pisdirsə, bu situasiyada doğru olan nədir? Əgər səhv buraxılıbsa bəs onu necə düzəltmək olar? Nuradan belə nəticəyə gəlmək olar ki, Əqlin tənqiliyi- qeyri-standart məsələlərin həlli üçün vacib şərtlərdən biridir.

Əqlin tənqidiliyi müəyyən fikri səylər tələb edir. Bu dərk olunmuş və məqsədyönlü əməkdir. Əqlin tənqidliyi inkişaf etməmiş iradəsiz mümkün deyildir. Əqlin tənqidiliyi digər formalardan məhz burada iradənin maksimal dərəcədə iştirakının olması ilə fərqlənir.

Əqlin tənqidiliyi minimum 2 səviyyədə düşünməni təxmin edir: Verilən məlumatı və danışanın motivasiyasını anlamaq, sübutların gedişini izləmək və mühakimələrin doğruluğunu və qüsursuzluğunu qiymətləndirmək, şəhr edilən problemin məğzinə varmaq və onun ətrafında baş verən panikanın adekvatlığını qiymətləndirmək, küskünlüyü yaşarkən konfliktə obyektiv yanaşmaq. Deməli,əqlin tənqidiliyinin inkişafı refleksiyanın – özünü kənardan görə bilmək qabiliyyətinin inkişafından ayrılmazdır.

Əqlin tənqidiyi yalnız insan şəxsiyyətin kifayət qədər daxili tamlığı və yetişlikliyi olduda mümkün olur. Bu da ona təmiz vicdanla, göstəriş və dəyərlər üçün olmayan hansıısa qerarlar verməyə imkan verir.

**Ədəbiyyat**

1.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Dərslik Bakı:2002

2.Урлапова. В.П. О критическом мышлении и его развитии у детей//Русская классика

3.Ускова С.А. Сотрудничество педагога и родителей в воспитании и обучении детей школьного возраста: научно-методическое пособие. СПб: СПб АППО, 2008. 61 с.

## ŞƏXSİYYƏTİN DƏYƏRLƏR SİSTEMİNİN FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN ETNİK PSİXOLOJİ AMİLLƏRİN TƏHLİLİ

***Şahnaz Rəcəb qızı Aslanova***
***Bakı Dövlət Universiteti, Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi, psixologiya üzrə fəlsəfə doktoru***

Bütün dövrlərdə olduğu kimi müasir dövrümüzdə də sərvət yönümlərinin, mənəvi dəyərlərin, əxlaq normalarının araşdırılması xüsusi aktuallıq kəsb edən problemlərdən biridir. Qeyd etmək lazımdır ki, dəyərlərin, sərvət yönümlərinin, əxlaq normalarının hər bir şəxsin təfəkküründə düzgün formalaşması üçün ailə tərbiyəsi, ailədəki düşüncə tərzi çox vacib rol oynayır. Çünki bu proses üçün ailə ilkin pillədir. Məlumdur ki, hər bir insan ailənin düzgün hesab etdiyi, əhəmiyyətli saydığı dəyərləri, normaları mənimsəyir və onları özü üçün rəhbər sayır. Sonrakı pillələrdə isə məktəbəqədərki təhsil, orta və ali təhsil əhəmiyyətli yer tutur.

Müasir cəmiyyətdə gənclər mürəkkəb sosial, iqtisadi, psixoloji və siyasi şəraitdə yaşayır. Cəmiyyətdə mövcud olan çətin sosial-iqtisadi vəziyyət, dünyada baş verən siyasi proseslər, mədəniyyətlərin bir-birinə inteqrasiyası, adət-ənənələrin bu və ya digər dəyişikliyə məruz qalması insanların düşüncə tərzi və dəyərlər sisteminə özünəməxsus şəkildə təsir edərək onlarda tərəddüdlərin yaranmasına səbəb olur.

Şəxsiyyətin dəyərlər sistemi onun sosial aktivliyinin məzmun və istiqamətini xarakterizə edən münasibətlər sisteminin tərkib hissəsindən ibarət olan mürəkkəb psixoloji

fenomendir. Başqa sözlə, şəxsiyyətin yönəlişliyini təşkil edən obyektiv gerçəkliyə, kollektivə və özünə münasibəti ifadə edən və fəaliyyətin aktivliyində təzahür edən tələbatların, motivlərin, maraq və məqsədlərin, dünyagörüşünün, əqidələrin mürəkkəb strukturu şəxsiyyətin dəyərlər sisteminin psixoloji əsasını təşkil edir. Şəxsiyyətin dəyərlər sisteminin formalaşmasında bir çox amillərlə yanaşı, etnik mühit, etnik özünüdərkmə xüsusi rol oynayır. Bu baxımdan şəxsiyyətin bu yə digər dəyərlərə olan münasibətinin formalaşmasında etnik-psixoloji amillərin rolunun müəyyənləşdirilməsi xüsusi aktuallıq kəsb edir.

Şəxsiyyətin dəyərlər mövqeyindən araşdırılması, onun həyatının mənası və məqsədinin açıqlanmasında, sosial və etnik təbiətinin üzə çıxarılmasında müstəsna dərəcədə böyük rol oynayır. Bu onunla şərtlənir ki, şəxsiyyət müəyyən dəyərlər sisteminə malik olan, öz fəaliyyəti və cəmiyyətdə baş verən hadisə və prosesləri sadəcə inkişaf etdirməklə məhdudlaşmır, həm də onları dərk edir və qiymətləndirir. Başqa sözlə desək, şəxsiyyət dünyanı onun üçün əhəmiyyət kəsb edən və əhəmiyyət kəsb etməyən qütblər prizmasından anlayır və dəyişdirir, deməli ətraf aləmin obyektləri və hadisələri onun üçün həm də dəyərlər dünyası kimi çıxış edir.

Etnik psixologiya üzrə mütəxəssis V.Vundt qeyd edir ki, şəxsiyyət müəyyən mədəniyyətə xas olan tipik tərbiyə üsulları vasitəsilə formalaşır. Həmin tipik tərbiyə üsulları etnik ümumiliyi, etnik stereotip və yönümləri formalaşdırır. Belə tipik tərbiyəvi təsir sayəsində Azərbaycan etnosunda böyüyə hörmət, ailəyə müsbət stereotiplər gənclərin mənəvi təkmilləşməsinə və inkişafına mühüm təsir göstərir.

İnsanların mənəvi inkişafına təsir göstərən etnik psixoloji xüsusiyyətlər içərisində adət-ənənələrin öz yeri vardır. Onlar xalqın psixi simasının mühüm tərkib hissələri kimi insanların psixologiyasında möhkəmlənərək, nəsildən – nəslə ötürülür. Çünki, bu və ya digər psixoloji xüsusiyyətlər daha bariz şəkildə ilk növbədə məhz adət-ənənələrdə öz əksini tapır.

Hər bir xalqın adət - ənənəsi tarixən təşəkkül edən nəsildən – nəslə verilən fəaliyyət və davranış forması və onlara uyğun olan qayda, təsəvvür və mənəvi sərvətlərdir. Adət-ənənələr insanların həyat fəaliyyətinin tənzimində də mühüm rol oynayır və etnik milli tərbiyənin əsasını təşkil edir. Çünki adət - ənənə tarixən nəsildən – nəsilə verilən rəftar və davranış forması, münasibətlər sistemidir. Milli yaxud etnik adət dedikdə, icrası müəyyən sosial və ya etnik qrup üçün tələbata çevrilən mənimsənilmiş davranış və rəftar qaydaları, iş və hərəkət sistemi nəzərdə tutulur.

İnsanların mənəvi normaları və baxışları ilə bağlı olan müntəzəm adət - ənənə insanlar tərəfindən şüurlu sürətdə mənimsənilmədikdən sonra, onların daxil olduğu etnos və ya xalq qarşısında mənəvi vəzifəsinə çevrilmiş vərdiş hissi olaraq nəsildən – nəslə çatdırılmışdır. Hər bir insan, ilk növbədə, mənəvi cəhətdən təkmilləşmək üçün özünə xas olan milli xarakterini yaxşı öyrənməli, onun müsbət və mənfi cəhətlərini özü üçün ayırd edərək, mənfi cəhətlərdən uzaqlaşmağı, müsbət tərəflərini isə inkişaf etdirməyi bacarmalıdır.

Şəxsiyyətin dəyərlər sistemi onu ətraf gerçəkliklə münasibətinin xarakterini müəyyən edir və müəyyən mənada onun davranışının xüsusiyyətlərini şərtləndirir. Bu dəyərlər sistemi fərdin sosial qrupda və ümumiyyətlə, cəmiyyətdə şəxsiyyətin yerini müəyyənləşdirməsinə və eləcə də şəxsiyyətin ictimai simasını müəyyən edir.

Müasir dövrdə sosial-psixoloji baxımdan tədqiqi mühüm əhəmiyyət kəsb edən problemlərdən biri də gənc nəslin milli-əxlaqi keyfiyyətlərə malik şəxsiyyət kimi formalaşmasını şərtləndirən başlıca amillərin müəyyən edilməsidir. Gənclərin hansı dəyərlərə üstünlük verməsində müxtəlif amillərin, o cümlədən dini əqidə, etnik özünüdərketmə, etnik identikləşmə, siyasi istiqamət, həmçinin cins, yaş, peşə və təhsilin mühüm əhəmiyyət kəsb etdiyini vurğulamaq olar. Bundan başqa şəxsiyyətin dəyərlər sisteminin təşəkkülü onun fərdi-psixoloji

xüsusiyyətlərindən, aldığı tərbiyənin xarakterindən, sosial-psixoloji amillərin təsir səviyyəsindən çox asılıdır.

Hər bir gəncin yüksək qiymətləndirdiyi keyfiyyətlər müvafiq etnik stereotiplərlə bağlı olur ki, bu da onların sərvət yönümlərinin formalaşması prossesinin mühüm tərkib hissəsini təşkil edir. Gənclərdə "milli sərvət", "mənəvi dəyər" təsəvvürlərini genişləndirmək, onların meyillərini məzmunca dolğunlaşdırmaq zəruri məsələlərdən biridir. Gənclərdə düzgün və vaxında aparılan peşə yönümlü iş onlarda ictimai məna daşıyan peşə motivlərinin təşəkkülünə, zəhmətə alışmaq, mənəvi sərvətlərini uca tutmaq və s. xüsusiyyətlərin formlaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

Hər bir insanın mənəvi etnik xüsusiyyətləri, davranışının ilkin cəhətləri, ailədə formalaşır. Düzgün tərbiyə dedikdə, milli –mənəvi dəyərlərin, adət və əvəvlərin, milli etnik xüsusiyyətlərin, etika və estetikanın, mənəviyyatın və insani hisslərin valideynlər və böyüklər tərəfindən yetişən nəslə aşılanmasıdır. Pedaqoji ədəbiyyatda tərbiyə dəyər kimi qiymətləndirilir. Milli tərbiyədən danışarkən milli mənəvi dəyərlər də diqqət yetirmək lazımdır. Ümumiyyətlə, hər bir valideyn çalışmalıdır ki, öz övladlarını xalq müdrikliyi əsasında folklor nümunələrimizin tərbiyəedici imkanları əsasında tərbiyə etsin. Çünki milli dəyərlər əsasında tərbiyə olunan nəsillər öz övladlarını da bu istiqamətdə tərbiyə edəcəklər.

**Ədəbiyyat**

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-Poliqraf, 2003

2. Əliyev B.H. Milli-mənəvi dəyərlər və dövlət quruculuğu /H.Əliyev irsi və milli dövlət quruculuğu. Məqalələr toplusu, 2005, s.700-710

3. Иващенко А.В., Зубова Л.В. Психологические особенности ценностных ориентаций подростков с различной направленностью личности. Оренбург, 2010, 150 с.

4. Мальцев, В. С. Ценности и ценностные ориентации личности. Москва: Лаборатория книги, 2012, 134 с.

## ŞƏXSİYYƏTİN İNKİŞAFINA EMOSİYALARIN TƏSİRİNİN TƏHLİLİ

***Hacıyeva Ayna Şirzad qızı***
***Sumqayıt Dövlət Universiteti***
***Pedaqogika və psixologiya kafedrasının dosenti***

Emosiyaların şəxsiyyətin inkişafına təsiri ilə bağlı danışarkən qeyd edək ki,"İnsanı nə sevindirirsə, maraqlandırırsa, sıxıntıya salırsa, həyacanlandırırsa, ona gülməli gəlirsə onun xarakterini, mahiyyətini, şəxsiyyətini xarakterizə edir".

Emosiyalar, hisslər subyektin yaranan şəraitə, öz fəaliyyətinə, həmin şərait və ya fəaliyyətdə insanın özünü ifadə etməsinə qiymətləndirici munasibətini əks etdirir. Daha konkret deyilsə, emosiyalar fəaliyyətin müvəffəqiyyətlə icra edilməsinə ya kömək edən, ya da mane olan hər hansi bir şəraitə insanin qiymətləndirici münasibətidir.

Emosiya və emosionallıq davranışla bağlılığına görə fərqlənir. Emosionallıq - insanın hiss və emosiyalarının məzmununu, dinamik xarakterini bildirən xassəsidir. Bu xassə daha çox temperamentlə bağlı olur. Bu halda emosiya özünü həssaslıq, mütəəssirlik, impulsivlik kimi göstərir. Bu halda baş verən emosional reaksiya əqli inkişaf səviyyəsindən asılıdır.

Əqli inkişaf yüksək olduqca, fərd bir o qədər üzləşdiyi situasiyanın uyğunsuzluq səbəbini yaxşı ayırd edə biləcək, emosional reaksiyalar ona müvafiq nizamlanacaq.

Bununla belə, əqli səviyyədən asılı olan, özünün emosiyalarının təzahürünə təsir göstərmək üçün həyata keçirilən bu nəzarət həmişə mümkün olmur. Yalnız bəzi insanlar hər hansı vəziyyətdə təmkinini qoruyub saxlaya bilirlər. Onların davranı-

şı daha çox həmin situasiyaya yaranan sosial kontekstlə bağlı olur.

Bir situasiyada insan sakitlik, digərində səbirsizlik göstərə bilər. Hər iki halda situasiya eyni, ona emosional münasibət isə fərqlidir.

İnsanın emosiyaları hər şeydən əvvəl onun tələbatları bağlıdır. Emosiyalar tələbatların ödənilməsi prosesini və nəticələrini əks etdirir.

Emosiya tədqiqatçıları hesab edirdilər ki, emosiyalara görə insanı hal-hazırda nəyin həyacanlandırdığı, yəni, onun üçün hansı maraqların və tələbatların aktual olduğu barədə mühakimə yürütmək olar.

İnsanlar şəxsiyyət kimi emosional cəhətdən bir-birindən bir çox parametrlərə görə fərqlənirlər: emosional çılğınlığa, yaranmış emosional halların müddətinə və dayanıqlığına görə, müsbət (stenik) və ya mənfi (astenik) emosiyaların üstünlüyünə görə. Ancaq inkişaf etmiş şəxsiyyətlərin emosional sferası hər şeydən çox hisslərin gücünə və dərinliyinə, həmçinin tərkibinə və predmetinə görə fərqlənir.

Bu şərtlər, psixoloqlar tərəfindən çox vaxt şəxsiyyətin öyrənilməsi üçün testlərin tərtibi zamanı istifadə olunur. Testlərdə təqdim olunan hadisələrin və insanların, vəziyyətlərin və əşyaların insanda yaratdığı emosiyaların xarakterinə görə onun şəxsiyyəti barədə mühakimə yürüdürlər.

Emosiyaların və motivasiyaların (emosional yaşantılar və insanın aktual tələbatlarının sisteminin) əlaqəsi barədə məsələ ilk baxışdan göründüyü qədər sadə deyil.

Bir tərəfdən, emosional yaşantıların sadə növləri çətin ki, insan üçün hiss olunacaq dərəcədə motivləşdirici qüvvə kəsb etsin. Onlar davranışa ya birbaşa təsir göstərmirlər, onu məqsədyönlü etmirlər, ya da davranışı ümumiyyətlə pozurlar (affektlər və streslər).

Digər tərəfdən, əhval-ruhiyyə, ehtiras kimi emosiyalar davranışı yalnız fəallaşdırmaqla yox, həm də yönləndirmək və dəstəkləməklə motivasiya edirlər.

Emosiyaların şəxsiyyət aspektləri ilə bağlı olan ikinci əsas məqam ondan ibarətdir ki, tipik emosiyaların dinamikası və sisteminin özü insanı şəxsiyyət kimi xarakterizə edir. İnsana xas olan hisslərin təsviri bu cür xarakteristika üçün xüsusi əhəmiyyət daşıyır. Hisslər insanın münasibətlərini və maraqlarını eyni zamanda özündə əks etdirir. Ali hisslər bundan başqa, mənəvi başlanğıcı özündə daşıyır.

Emosiyalar və şəxsiyyətin inkişafı arasındakı qarşılıqlı əlaqə məsələsinə baxarkən iki amili nəzərə almaq vacibdir.

Birincisi, şəxsiyyətin emosional quruluşuna irsiyyətin təsiridir. Belə təsəvvür yaranır ki, emosionallığın formalaşmasında, daha dəqiq ifadə etsək bu və ya digər emosiyaların yaşanması həddlərinin müəyyənləşməsində genetik göstəricilər vacib rol oynayır.

Qarşılıqlı əlaqələrin ikinci amili kimi fərdi sfera çıxış edir. Burada emosiyaların ifadə olunma tərzi və bununla bağlı davranışlar nəzərdə tutulur.

Əgər uşaqda hər hansı emosiyanın yaşantısı qısa müddətlidirsə, əgər o tez-tez onları hiss edir və göstərirsə, bu, digər uşaqlar və böyüklər tərəfindən ona mütləq xüsusi növ reaksiya və xüsusi növ münasibət yaradır. Genetik və xarici amillərin bu cür qarşılıqlı əlaqəsi dəqiq şəxsi xüsusiyyətlərin formalaşmasına gətirib çıxarır.

Fərdin emosional əlamətləri demək olar ki, əhəmiyyətli dərəcədə onun sosial təcrübəsi, xüsusilə də körpəlikdə qazandığı təcrübələri ilə şərtlənir. Uşağın ətrafdakı insanlarla qarşılıqlı münasibətlərinin uğuru, deməli həm də sosial inkişafının və sosiallaşmasının uğuru onun daha çox hiss etdiyi və göstərdiyi emosiyalardan asılıdır.

Emosionallıq uşağın yalnız şəxsi xüsusiyyətlərinin formalaşmasına və sosial inkişafına təsir etmir, hətta intellektual

inkişafında da özünü göstərir. Əgər uşaq daima kefsizdir və və ya əzgindirsə o ətraf mühiti öyrənməkdə öz həyatsevər yaşıdı qədər maraqlı və fəal olmayacaq.

Emosionallığın ifadə olunmasından asılı olaraq, fərqli temperament tiplərinə (xarakterinə) aid olan emosional insanlar fərqlənir. İlk belə cəhdlərdən biri, Heimans temperament növlərinin təsnifatında - Le Senna (Robert, Thelman, 1988)[9]. Növlər xüsusiyyətlərin uzlaşmasına görə ayrılır: *emosionallıq (E+ və E-), fəallıq (F+ və F-) və birincilik və ikinciliyə (B və İ)* görə.

*Emosionallıq,* tipologiyanın müəllifləri tərəfindən müəyyən bir vəziyyətdə emosional vəziyyətin intensivliyi kimi başa düşülür.

*Fəallıq* düşünülmüş planın həyata keçirilməsində hərəkətə olan ehtiyacı əks etdirir. Yüksək fəallığa malik insanlar işsizliyə, bekarçılığa dözmürlər. Buna görə də onlar özlərinə həmişə məşğuliyyət tapırlar.

*Birincilik* emosionallığın başqa tərəfini - emosiyaların itməsinin tezliyini xarakterizə edir. Çox insanlar yaşadıqları təəssüratların təsiri altında uzun müddət qalmırlar. Onlar durmadan öz emosiyalarını "boşaldırlar". Belə insanları müəlliflər "birincili" (emosional labil də demək olar) adlandırırlar. "İkincili" insanlar "birincili" insanların əksidirlər: onların əhvalı hər şeydən çox sabit olur, lakin, onların səbir kasası dolduqda bərk qəzəblənirlər, inciyirlər və uzun müddət yaşadıqlarının təsiri altında qalırlar.

Bu xüsusiyyətlərin uzlaşmasına əsaslanaraq 8 xarakter tipi ayırd edilir:

*Əsəbi tip* güclü və düzənsiz, qəddarlığa və şübhəliliyə meylli olur. Emosiogen vəziyyətlərə qarşı həssasdır, lakin onun emosiyaları tez itir.

*Sentimental tip* də yüksək emosional oyanıqlığa malik olur, ancaq əsəbi tipdən fərqli olaraq həm sevinci, həm də kədəri dərindən və uzun müddət yaşayır, xatırlayır və həmişə

bunlara qayıdır. Bu, dərin, xəyalpərəst və dayanıqlı naturadır. Özünə qarşı incə və xeyirxah münasibət göstərilməsini tələb edir.

*Coşqun tip* hisslərini dərhal büruzə verir. Həyatsevərdir, həmişə yaxşə əhvalda olur. Başqalarına həssalıqla yanaşır və öz simpatiyasını gizlətmir. Pisliyi yadda saxlayan deyil, ancaq iradlara qarşı çılğın reaksiya verir.

*Ehtiraslı tip* hər hansı bir işə çox aludəçilklə yanaşır.

*Amorf tip* nə etdiyinə qarşı laqeyiddir. Emosional çılğınlığı yoxdur.

*Apatik tip* də nə etdiyinə qarşı laqeyiddir. Həmişə eyni əhvalda olur, təklikdən zövq alır. Başqa insanlara qarşı laqeyddir.

Qeyd olunan şəxsiyyət tipləri arasında K.Leonqardın ayırd etdiyi affektiv-labil, affektiv-ekzaltiv, narahat və emotiv tiplər var.[10]

*Affektiv-labil tip* polyar emosiyaların bir-birini asanlıqla əvəzləməsi ilə xarakterizə olunur. Gah bir emosional hal, gah da digəri önə çıxır. Sevindirici hadisələr onlarda yalnız şadlıq yaratmır, həm də yüksək fəallıq yaradır. Kədərli hadisələr əhvalını korlayır, reaksiyalarını və düşüncələrini ləngidir. Onlar digərlərinin emosiyalarına tez "yoluxurlar" .

*Affektiv-ekzaltiv tip* - bu tip insanlar başqalarına nisbətən həyata daha coşğun yanaşırlar: onlar sevindirici hadisələrdən cuşa gəlirlər, eyni tərzdə də kədərli hadisələrdən peşman olurlar. Onlarda ekspressiya güclü büruzə verir. Yaxınlarına, dostlara bağlılıq, onlara görə sevinmək çox güclü ola bilər.

*Emotiv tip* affektiv-ekzaltiv tipə yaxındır, lakin ondan fərqli olaraq bu tipə aid insanların emosiyaları elə tez inkişaf etmir. Bu tip də həmçinin həssaslığı ilə incə emosiyalara yaxındır, yəni, qəlbi ilə, humanistliyi ilə və meylliliyi ilə bağlandığı emosiyalara. Adətən bu tipdən olan insanları yumşaq qəlbli adlandırırlar. Onlar başqalarına nisbətən daha rəhmlidirlər, təbiət mənzərələrindən, sənət əsərlərindən zövq alırlar.

Şəxsiyyətin ünsiyyət prosesində müxtəlif emosional davranış formaları təzahür edir. V.V.Boyko ünsiyyət prosesindəki emosional davranışları 3 növə bölür: *rezonanslıq (içinə qapanma), uzaqlaşma və dissonanslıq (fikir ayrılığı, uzlaşmamaq, harmoniyanı pozmaq).* [5]

*Emosional rezonans* – yoldaşlarının müxtəlif emosionl vəziyyətlərinə cavab vermək (köməyinə gəlmək) qabiliyyətidir. Emosional rezonans yoldaşlar arasında onların emosiyalardakı enerjisinin quruluşunu alır və qarşılıqlı fəaliyyətin əlavə psixoloji effektini stimullaşdırır.

*Emosional uzaqlaşma* zamanı insan başqalarının emosional vəziyyətlərinə cavab olaraq mənasız, susqun emosiyalar göstərir. Bu, insanın emosional sərtliyinin nəticəsində ola bilər.

*Emosional dissonanslığı* şəxsiyyətin özünü ünsiyyətin emosional atmosferindən təcrid etməsi və ya vəziyyətə zidd emosiyalar göstərməsi kimi xarakterizə edilir.

İnsanda və digər canlılarda qeyri-iradi yaranan emosional reaksiyalardan fərqli olaraq, iradi emosional reaksiyalar (hərəkətlər) emosiogen vəziyyətə insanın iradi, məqsədli cavabıdır. Bu cavablar nitq ilə və hərəkətlərlə ola bilər.

R.P.Milrud iradi emosional nitq reaksiyaların təsnifatını müəllimlərin emosional davranışları misalında verir [9].

Pedaqoji fəaliyyətin məqsədinə münasibətdə onları müəllif 3 növə bölür: *konstruktiv, psevdokonstruktiv, destruktiv.* Konstruktiv reaksiyalar fəaliyyətin məqsədinə çatmağa həqiqətən kömək etdi, psevdokonstruktiv reaksiyalar, müəllimin problemin həllində iştirakı görünüşünü yaratdır, destruktiv reaksiyalar emosiogen vəziyyətdən çıxmağa maneçilik törədir, hətta vəziyyəti sərtləşdirir.

Semantikasına görə *qiymətləndirici, qoruyucu, tənzimləyici* reaksiyalar (müəllimlər davranışları qiymətləndirirlər, mürəkkəb vəziyyətlərdə özlərini və ya şagirdləri müdafiə edirlər, davranışları tənzimləyirlər) ayırd edilir.

Istiqamətlənməsinə görə emosional reaksiyalar – *xaricə istiqamətlənmiş*, şagirdin tapşırıqlarından ibarət; özünəistiqamətlənmiş, özü haqqında fikir bildirən; *istiqamətlənməmiş*, yəni, problemə yönəlmiş olur.

Fəallıq xarakterinə görə reaksiyalar *hücum edici, güzəşt edici, rasionallaşdırıcı* olur.

Yerinə yetirdikləri funksiyalarına görə *mobilləşdirici (səfərbər edici), sakitləşdirici, təhrikedici* olur.

Emosiyanın məzmunu şəxsiyyətin xassələrindən, mənəvi potensialından asılı olaraq dəyişir. İnsanın emosiyalarının başa düşülməsi çox amillərlə, ən çox da həm qiymətləndirilənin, həm də qiymətləndirənin fərdi xüsusiyyətləri ilə müəyyən olunur.

İnsanın yaşadıqları emosional sahədə təzahür edir. İnkişaf prosesində hisslər və emosional vəziyyət həyat prosesinin optimal sərhəddə saxlanılması üsulu kimi bioloji möhkəmlənmişdir. Orqanizm üçün onların əhəmiyyəti hər hansı amillərin dağıdıcı xarakterinin qarşısının alınmasından ibarətdir. Beləliklə, emosiyalar insanın fəaliyyətinin və orqanizmin funksional tənzimlənməsinin əsas mexanizmlərindən biridir.

**Ədəbiyyat**

1.Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981, 190 s.
2.Bayramov Ə.S.,Əlizadə Ə.Ə. Psixologiya.Ali məktəblər üçün dərslik.Bakı: Maarif, 2003, 534 s.
3.Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134 s.
4.Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 200 s.
5.Бойко В.В. Энергия эмоций в общении: взгляд на себя и на других. - М.: Филинъ,1996. - 472 с.
6.Вилюнас В.К. Психология эмоциональных явлений. М.: Аспект-Пресс, 2002, 329 с.

7.Додонов Б.И. Эмоция как ценность. М.: Политиздат, 1978, 272 с.
8.Изард К.Э. Психология эмоций. М.: Питер, 2008, 460 с
9.Ильин, Е. П. Эмоции и чувства: учебное пособие по направлению 050100 "Педагогическое образование" / Е. П. Ильин. - 2-е изд. - Санкт-Петербург [и др.]: Питер, 2018. - 782
10.Леонгард Карл (1904-1988). Акцентуированные личности / Карл Леонгард; Пер. с нем. В. М. Лещинская; Под ред. В. М.Блейхера.- 2-е изд.,стер.- Киев: Выщ. шк.,1989. – 374
11.Шафиева Э.И. Эмоциональный стресс в условиях нормы и патрологии человека. М.: Медицина, 1976, 268 с.

## MODA SUBYEKTLƏRİNİN SOSİAL - PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİNƏ DAİR

***İbrahimova Diyanə Rəşid qızı***
***BDU, Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi***

Hal hazırki dövrdə moda problemi olduqca aktualdır. Məşhur fransız modelyeri Pier Kardin modanı riyaziyyat, iqtisadiyyat, sosiologiya, psixologiya və hətta fəlsəfə ilə əlaqələndirirdi. Psixoloji tədqiqatlar isə prioritet xarakteri daşıyırdı. Modanın çox saylı təriflərini əsas götürərək bu sosial fenomenin psixoloji məzmununu izah etmək olar. P.Kardenə görə moda, ayrı – ayrı şəxslərin fərdi xüsusiyyətlərinin sosial və mənəvi aspektlərdə təzahürüdür [1, s.34].

Qeyd etdiyimiz kimi dəbin kütlə içərisində geniş yayılması prosesi insan faktoru ilə bağlı baş verir. Yeniliklərin insanlar tərəfindən müxtəlif tezlikdə qəbul edilməsindən asılı olaraq bir sıra hallarda bu proses müqavimətə rast gəlir. "Dəb"i qəbul etmək və mənimsəmək sürətindən asılı olaraq moda

iştirakçılarının kateqoriyalarını və həmin kateqoriyalara aid olan ən əhəmiyyətli əlamətlər və meyarları fərqləndirirlər:

Birinci, moda daxilində iştirakçıların rolunu spesifik sosial fenomen kimi xarakterizə edir, bu görə də moda iştirakçılarının müvafiq tipologiyasını "daxili" adlandırırlar. Bu tipologiyanın bu və ya digər kateqoriyasına mənsub olan şəxsin tam olaraq və yalnız bir moda iştirakçısı kimi nə edəcəyi müəyyənləşdiriləcəkdir. Şübhəsiz ki, insanlar arasındakı fərqləri yalnız moda da iştirakına görə deyil, eləcə də dəbli davranışın digər sosial - qrup xüsusiyyətlərini araşdırmaq vacibdir.

Tipoloji meyarlarının ikinci qrupu moda iştirakçılarının müxtəlif sosial xüsusiyyətlərinə aid edilir. Iştirakçıların xarici tipologiyasının əsasını təşkil edən bu xüsusiyyətlər, modanın funksiyalaşmasında olduqca əhəmiyyətlidir. Onlara cəmiyyətdə və onun alt sistemlərində insanlara məxsus sosial – iqtisadi, peşəkar, demoqrafik, mədəni və s. əlamətlər və rollar aiddir.

Moda iştirakçılarının digər sosial proseslərdə və qruplarda eyni zamanda iştirak etmələri fikrini nəzərə almadan daxili tipologiyasını nəzərdən keçirək.

Modanı qəbul etmək və mənimsəmək sürətindən asılı olaraq moda iştirakçılarının bir neçə qrupunu fərqləndirirlər:

1."Yenilikçilər" (müxtəlif tədqiqatlarda "pionerlər", "təcrübəçilər" və s. kimi adlandırırlar). Bu ən azsaylı istehlakçı qrupudur ki, onlar modanı bərqərar edənlər kimi çıxış edərək, ən yeni modelləri əldə edirlər. Bu qrup, birbaşa və ya bilavasitə təcrübə nümunələri istehsal edən istehsalçılarla birbaşa və ya bilavasitə əlaqədə olaraq, ilk təcrübə keçirmək riskini öz üzərlərinə götürürlər.

2. "Erkən mənimsəyənlər" (başqa sözlə "lider", "yerli liderlər" və s. adlandırılırlar). Bu qrupa daxil olan insanlar, ətrafdakıların məxsusi hörmət bəslədikləri və lider kimi gördükləri insanlardır. Bu qrupa daxil olan insanlar, böyük əksəriyyətin önündə gedirlər, lakin eksperiment etməkdən çəkinirlər.

3. " İlkin əksəriyyət " (başqa sözlə “təqlidçilər”, “erkən davamçılar” və s. adlandırılırlar). Bunlar kütləvi şəkildə modanı izləyib, ondan geniş şəkildə istifadə edən insanlardır. Onlar yeni modellərdən böyük məmnuniyyətlə istifadə edən, material cəhətdən heç bir məhdudiyyət bilməyən insanlardır.

4. "Ləngiyən çoxluq" (başqa sözlə “skeptiklər”, “mühafizəkarlar”, “konservatorlar” adlandırılırlar). Bu qrup üçün konservatizmlə bərabər “hamı kimi olmaq”cəhdi xarakterikdir. Onlar artıq çoxları tərəfindən qəbul edilən modeli, öz radikal konservatizmliklərindən keçərək, istehlakçıların böyük əksəriyyətinə qoşulmaq məcburiyyətində qalaraq, qəbul edirlər.

5. “Ənənəyə sadiq qalanlar” (“Geri qalanlar”, “gec mənimsəyənlər”, “ənənəviçilər” və s.). Bu qrupdan olan istehlakçılar üçün yalnız ənənəyə sadiq qalmaq xarakterikdir. Onlar da “innovatorlar” kimi, fərqlənməkdən qorxmayan, öz əqidələrinə sadiq qalan, heç bir moda dəyişkənliyini qəbul etməyən, cəsarətli insanlardır. [3, s.42].

Əlbəttə ki, yuxarıda qeyd olunan tipologiya həqiqətdən kənar, ideal model deyil. Bu, bütün mesaj mənbələrinin tənzimlənməsi üçün nəzərdə tutulmuşdur, lakin, təbii ki, qəbul etmə prosesində rahatlıq tələb edir.

Eyni situasiya fərdin moda mesajın (moda standartın) psixoloji qəbulunun beş mərhələyə bölünməsinə aiddir [4, s.126].

1.Qiymətləndirmə mərhələsində fərd mesajın təsirinə məruz qalır, lakin hələ də onun haqqında yetərincə informasiyaya sahib deyildir.

2.Maraq mərhələsində mesaj haqqında informasiya axtarışında olur.

3.Fərdin öz şüurunda qiymətləndirmə mərhələsində “dəb”i özünəməxsus şəkildə qiymətləndirərək indi və gələcəkdə hansı situasiyada necə istifadə etməsi haqqında qərar verir.

4. Tədqiqetmə mərhələsində “dəb”i öz tələbləri və sosial mühitin dəyərlərinə uyğunluğunu müəyyən etmək üçün “eksperimental” olaraq yoxlayır.

5. Qəbuletmə mərhələsində fərd moda standartına tabe olur.

Bu təsnifat reklam təcrübəsi sahəsində ekspertlər tərəfindən istifadə edilən klassik AIDA sxemi ilə əks olunur. Bu sxemə əsasən, reklam informasiyasının qəbuledilməsi idealda 4 mərhələdən keçir: diqqə, maraq, istək, hərəkət (məsələn, alış - veriş). Moda mesajlarının əhəmiyyətli bir hissəsi də bu mərhələlərdən keçər.

Yuxarıda qeyd olunanları ümumiləşdirərək, psixoloji baxımından maddi malların seçilməsi və istifadəsi sahəsində fərdi fəaliyyətinin öyrənilməsi digər sahələrdə olduğu kimi vacibdir. İnsanın xarici görünüşü, müxtəlif tələbatları təmin edən, ruhu zənginləşdirən, şəxsiyyətləri formalaşdıran və inkişaf etdirən, həyat və işə can atan, mədəniyyəti yüksəldən güclü vasitədir. Əşyalar dünyası və insanın dünyası ayrılmaz vəhdətdədirlər. Cəmiyyətin həyatı əşyalarsız mümkün deyildir. Ancaq şeylər yalnız insan cəmiyyətində mövcud olaraq gerçək mənasını qazanır. Cəmiyyətin zənginliyi, istehlak imkanlarının daha geniş olması, istehlakda fərdlərin daha mürəkkəb və fərqli yönləndirilməsi ilə bağlıdır.

**Ədəbiyyat:**

*1.*Вайнштейн *О.*Одежда как смысл: идеология современной моды: (О социал. стиле) // Иностр. Лит. - 1993. - № 7. - С. 224-232.

2.Гофман А.Б. Мода и люди: новая теория моды и модного поведения.- М.: Наука, 1994.160с.

3.N. R. Yunusov, Müasir modanın inkişaf tendensiyaları, Bakı: 2006

4.Килошенко М, Психология моды: теоретический и прикладной аспекты, Москва:2009

5.Новикова Е.Ю. Социально-психологический аспект отношения подростков к моде // Вопр. психологии. - 1989. - № 1. - С. 121-127.

## ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ В СРЕДЕ СТУДЕНЧЕСКОЙ МОЛОДЕЖИ

***Сафарова Джамиля Елшад г.***
***Преподаватель Бакинского Государственного Университета, кафедры социальной и педагогической психологии,***

На сегодняшний день в развитии общества роль и значение патриотического воспитания молодого поколения актуализируется.

Это связано с тем, что патриотическое воспитание рассматривается сегодня как социальная потребность общества, где основным институтом патриотического воспитания является система образования.

Сегодня в нашем искусстве, в театре, в кино вновь растет интерес к отечественной истории, к нашим корням, к тому, что дорого нам всем. Это без сомнения начало нового духовного подъема.

Очевидно, что для разработки адекватных стратегий воздействия на патриотическое сознание современной молодежи необходимо изучить по возможности весь спектр социально-психологических детерминант, определяющих формирование патриотических установок.

Процесс обучения в школе выполняет ведущую, развивающую функцию, оказывает равное влияние на становление будущего патриота, поскольку в содержании учебных предметов отражены важнейшие нравственные и культурные традиции нашего народа. Однако не достаточ-

но ограничиться введением в этот процесс отдельных компонентов содержания патриотического воспитания. Важно, чтобы он в целом мог оказать всестороннее, активное, действенное влияние на состояние всех компонентов патриотизма. (1)

Учебный процесс реализует свои функции при моделировании основных видов деятельности человека и создание возможности для вовлечения в них школьников (таковы познавательная, общественно-политическая, трудовая, военная и другие виды деятельности). Чем успешнее происходит моделирование, тем активнее этот процесс обеспечивает формирование всесторонне развитой гармоничной личности.

Благодаря знанию профессорско-педагогическим составом и воспитателями форм, методов и принципов воспитательного процесса, с использованием как традиционных так и инновационных информационно-коммуникационных технологий, можно создать такие условия, при которых эффективность и результативность патриотического воспитания будет наиболее высокой.

Огромную роль играет эмоциональный фактор, поскольку убеждения всегда единство знания и переживания. Сформировать необходимые убеждения, пробудить высшие чувства как любовь к Родине можно в условиях эмоционального общения на уроках. Важно, чтобы знание, помимо глубокого научного содержания и эмоциональной насыщенности, имели общественно полезную направленность, расширяли социальный опыт учащихся.

Культура патриотизма нашей молодежи, в том числе студенческой, должна выражаться в бережном отношении к истории страны, традициям народа, уважении к ветеранам войны и пожилым людям, ко всем достижениям, которые молодые люди получили в наследство от предшествующих поколений.

Сегодняшним педагогам очень важным является помнить, что большую роль в культуре общества играет историческая память, преемственность поколений, передача нравственно-ценностных традиций, убеждений и чувство гордости за страну, в которой живешь.

Для общества очень важно на практике утвердить концепцию естественной потребности человека быть патриотом. В учебных заведениях при этом весьма существенную роль играет наличие программы патриотического воспитания на весь период обучения. Ее значимым элементом является психологическая подготовка личности студента к восприятию и действиям в конкретных жизненных условиях. Действенность патриотического воспитания определяется субъективной сферой человеческого бытия, т.е отношением и поведением в повседневной жизни. Нельзя упускать из виду, что идеалы, нравственные ценности, которые существуют в обществе, всегда носят цивилизационный характер. Для личности очень важно воспитание чувства собственного достоинства, дисциплинированности, которые влияют на позиции человека в обществе, гармонизируют его национальные чувства и находят подтверждение в политико-нравственной ориентации общества. (5)

Воспитание патриотизма рассматривается как педагогический процесс целенаправленного и систематического взаимодействия со студентами в целях формирования у них патриотических чувств, умений, знаний, понимания важности и необходимости работы в учреждениях сферы культуры. Оно предполагает педагогическое взаимодействие между воспитателями и воспитуемыми, направленное на достижение соответствующих воспитательных целей.

В учебно-воспитательном процессе вуза, как показывает опыт, достаточно четко просматриваются следую-

щие черты патриотического воспитания. Первое – это когнитивный подход в воспитательном процессе. Он состоит в том, чтобы заложить определенный уровень знаний по истории страны, народа, конкретного места, где живет студент. Это дает возможность развивать у студентов чувство гордости за историческое прошлое своей страны, за вклад в цивилизационные процессы развития. С этим связан второй подход к патриотическому воспитанию – мотивационный. Он заключается в формировании у молодого поколения морально-ценностной ориентации на активное участие в жизни общества. Неотъемлемой составляющей патриотического воспитания является формирование эмоционального отношения к историческим событиям в стране и мире.

И еще один компонент – творческое проявление активной жизненной позиции по отношению к людям и событиям, которые происходят в окружающем мире. (6)

Таким образом, патриотическое воспитание состоит из многих элементов учебного процесса, призванных сформировать активное патриотическое сознание студента, в соответствии с которым определяются жизненная позиция молодого человека; его повседневное поведение опирается на ценностную ориентацию, которая является основой выполнения общественного долга – приносить пользу, хорошо учиться и работать, позитивно влиять на окружающий мир, сохраняя при этом все положительное, что было создано обществом, старшими поколениями.

**Литература**

1.Стефаненко Т.Г. Этнопсихология: практикум: Учебное пособие для студентов вузов / Т.Г.Стефаненко. - М.: Аспект Пресс, 2006. -208 с.

2.Ушинский, К.Д. Педагогические сочинения // Собр. соч.: в 6 т. М.: Педагогика, 1988. Т. 1. 416 с.

3.Кон И. С. Психология ранней юности / И. С. Кон. - М., 1989. - 285с.
4.Зимняя, И. А. Педагогическая психология / И. А. Зимняя. - М.: Просвещение, 2001. - 138 с.
5.Божович Л.И. Проблемы формирования личности. - М.: Издательство Института практической психологии, 1997. 352 с.

## TƏHSİLDƏ GENDER STEREOTİPLƏRİ

***Həsənova Ülkər Üzeyir qızı***
***Bakı Dövlət Universiteti,Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi***

"Gender" termini "cəmiyyət daxilində müvafiq kişi və qadın rolları, vəzifələri və davranışı, habelə qadınlarla kişilər arasında olan qarşılıqlı münasibətlərlə bağlı geniş şəkildə qəbul olunmuş gözlənti və normaları" ifadə edir. Gender stereotipləri isə öncədən şüurlarda kök salan, qadınlara və kişilərə cinsi mənsubiyyətləri ilə müəyyən edilən və məhdudlaşan xüsusiyyətlər və rollar ayıran sosial və mədəni modellər və ya ideyalardır. Digər sözlərlə cəmiyyətdə kişi və ya qadın olmaqla bağlı ənənəvi gözləntilər gender stereotipləri adlandırılır. Azərbaycanda bu mövzuda keçirilən ən son tədqiqatlar göstərir ki, cəmiyyətdə gender və gender bərabərliyi ilə bağlı stereotiplər hələ də mövcuddur. (İMAGES, 2018).

Qeyd etmək vacibdir ki, adətən gender stereotiplərinin qadınlar üçün yaratdığı mənfi təsirlər müzakirə olunsa da, bu stereotiplərin cinsindən asılı olmayaraq hər kəsə təsiri var. Belə ki, kişiliyə hegemonluğun xas olması barədə təsəvvürlər gender stereotiplərinin qorunub saxlanılmasına və möhkəmləndirilməsinə şərait yaradan amildir ki, bu da öz növbəsində kişilik barədə hökmran olan təsəvvürlərdən kənara çıxan kişilərə və oğlanlara qarşı çıxışlara və qərəzli fikirlərə şərait yaradır. Belə

stereotiplər qızların və oğlanların, qadınların və kişilərin təbii istedadlarının və qabiliyyətlərinin inkişafını, təhsil və peşə seçimlərini və təcrübələrini, eləcə də bütövlükdə həyatdakı imkanlarını məhdudlaşdıra bilir. (Avropa Şurasının Gender Bərabərliyi Strategiyası, 2018-2023).

Gender stereotipləri o cümlədən təhsil sistemində mövcud olmaqda davam edir və bütün cəmiyyətə təsir göstərir. Bu stereotiplər müəllimlərin davranışında, dərsliklərin məzmununda, təhsil müəssisənin mühitində, həmin müəssisələrin idarəçiliyində də öz əksini tapmaqdadır. Tədqiqatlar göstərir ki, dərsliklərin məzmunu rigid gender rollarını təbliğ edir. Belə ki, 2002-ci ildə Azərbaycanda keçirilən dərs vəsaitlərinin keyfiyyət təhlili zamanı məktəb kitablarında bəzi hallarda əmək fəaliyyətinə cəlb olunan qadınların qınağa məruz qaldığı müəyyən olunub. Misal kimi, "İnsan və cəmiyyət" kitabında (1998) qadınların işləməsi cəmiyyətdə uşaq sayı azalmasının səbəbi kimi göstərilib (Magno, Silova, 2007). Müəllimlərin təhsilalanlara qarşı münasibəti gender stereotiplərinin möhkəmləndirilməsinə təsir edən digər vacib amildir. Bir sıra ölkələrdə keçirilən araşdırmalar göstərir ki, müəllimlərin qız və oğlan şagirdlərdən fərqli gözləntiləri var və bu müəllimlərin davranışında öz əksini tapır. Dünya Bankının Albaniyada keçirdiyi tədqiqatın nəticələrinə əsasən, müəllimlər oğlanların qızlardan daha ağıllı olduğunu düşünürlər, qızların akademik göstəricilərinin yaxşı olmasını isə onların daha çalışqan olması ilə əlaqələndirirlər. (Dudwick, Shahariari, 2000). Digər araşdırmalar göstərir ki, məktəbdə müəllimlər oğlanlara aktivliyinə, aqressivliyinə, özünə əminliyə görə müsbət qiymət verdikləri halda, qızları daha çox zərifliyinə, passivliyinə, rəhmli olmalarına görə dəyərləndirirlər. Bununla yanaşı, müəllimlərin peşə seçimlərinə aid gender stereotipləri mövcuddur. Rumıniyada məktəb müəllimləri arasında keçirilən sorğunun nəticələrinə əsasən müəllimlər yüksək məvacibli və cəmiyyətdə daha çox prestijli sayılan peşələrə

oğlanları, daha az ödənişi olan peşələrə isə qızları daha uyğun görürlər. (Miroiu, 2000) Bu hal əmək bazarında mövcud olan horizontal təcridetmədə açıq-aydın görünür: müəyyən peşələrdə və iqtisadi fəaliyyətin müəyyən sahələrində (məsələn, elm və texnologiyalar sahəsində, ağır sənayedə, tikintidə, orduda) təmsil olunmada kişilər böyük üstünlüyə malikdirlər. Eynilə, digər fəaliyyət sahələrində qadın işçi qüvvəsi üstünlük təşkil edir (çox zaman bunlar az ödənişli işlər olur, məsələn, dayəlik xidmətləri, təhsil sahəsi, katiblik və ya ofis işi, tibb bacısı xidmətləri və ya insan resursları (kadrlar) bölmələri). Əmək bazarında vertikal təcridetmə də açıq-aşkardır. Eyni sektorda, hətta qadınlar üstünlük təşkil etsələr belə, adətən əməkhaqqı və iyerarxiya baxımından daha yüksək vəzifələri kişilər tutur, iyerarxiya və əməkhaqqı baxımından daha aşağı işləri isə qadınlar yerinə yetirirlər (məsələn, təhsil və pərakəndə satış sahələrində) (Avropa Şurasının Gender Bərabərliyi Strategiyası, 2018-2023). Hər üç ildən bir Avropa Komissiyası tərəfindən müxtəlif profilli məzunlar və fərqli peşə nümayəndələri arasında qadınların sayı ilə bağlı məlumatları təhlil etmək məqsədilə keçirilən "She Figures" araşdırmasının 2018-ci il üzrə nəticələrinə əsasən, Avropa Birliyində qadınlar elm və mühəndislik kimi sahələrdə kişilərə nisbətən daha az məşğuldurlar (She Figures 2018, 2019). Bu tendensiyanın digər bariz nümunəsi kimi qız və oğlan abituriyentlərinin ixtisas seçimində mövcud olan fərqləri göstərmək olar (Azerbaijan Human Development Report, 2007). 2020/2021-ci tədris ili üçün Azərbaycan respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və ümumtəhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinin elmi-statistik təhlilinə əsasən oğlan abituriyentlər texniki və iqtisad, qız abituriyentlər isə humanitar ixtisaslara üstünlük veriblər. V ixtisas qrupu istisna olmaqla, oğlan və qızların ixtisas qruplarına münasibətləri fərqlidir. Ortastatistik oğlan abituriyentinin istəyi ən çox “Riyaziyyat, fizika və

mühəndislik" (I qrup) və "İqtisadiyyat və idarəetmə" (II qrup), ortastatistik qız abituriyentin isə humanitar ixtisaslardan ibarət III ixtisas qrupuna istəyi daha yüksəkdir. Hesabatda əks olunan rəqəmlər oğlan abituriyentlərin texniki, iqtisad və idarəetmə ixtisaslarına, qızların isə humanitar ixtisaslara olan marağının nə dərəcədə yüksək olduğunu göstərir. (M.M.Abbaszadə, O.Y.Şelaginov, 2020). Qeyd olunan ixtisas seçimi fərqləri gələcəkdə öz əksini əmək bazarında tapır və gender bərabərliyinin təmini məsələsində vacib rol oynayır. Beynəlxalq təcrübə göstərir ki, təhsil sistemində gender stereotiplərinin mənfi təsirlərinin qarşısını almaq məqsədilə sistematik və çoxşaxəli yanaşma tətbiq olunmalıdır. Bura qadınlar və kişilərin rolu haqqında yaranmış stereotip fikirlərin məktəb proqramlarından və dərsliklərdən çıxarmaq məqsədi ilə onların təftiş edilməsi, gender bərabərliyini aşılayan (gender stereotiplərini aradan qaldırmaq üçün müsbət təcrübələri müəyyənləşdirilməsi, toplanması və yayılmasına aid) məzmunun, genderə həssas strukturların və ekosistemlərin yaradılması kimi məsələləri aid etmək olar.

**Ədəbiyyat:**

1.M.M.Abbaszadə, O.Y.Şelaginov (2020). 2020/2021-ci tədris ili üçün Azərbaycan respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və ümumtəhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinin elmi-statistik təhlili.

2.Azerbaijan Human Development Report 2007: Gender Attıtudes in Azerbaıjan: Trends and Challenges. Baku, Azerbaijan: UNDP

3.Magno, C., & Silova, I. (2007). Teaching in transition: Examining school-based gender inequities in central/southeastern Europe and the former Soviet Union. *International Journal of Educational Development*, *27*(6), 647-660. https://doi.org/10.1016/j.ijedudev.2006.08.004

4.Dudwick, N., Shahariari, H., 2000. Education in Albania: Changing Attitudes and Expectations. The World Bank, Washington, DC.
5.Miroiu, M., 2000. Societatea retro. Editura Meridiane, Bucuresti. National Commission for Statistics, Romania, 2000. Women and Men in Romania. National Commission for Statistics, Bucharest.
6.She Figures 2018. (2019). Luxembourg: Publications Office of the European Union. URL: https://op.europa.eu/s/sUwe (accessed: 11.10.2021).

## GENDER ASİMMETRİYASI GENDER SOSİALLAŞMASI KONTEKSTİNDƏ

***Dadaşova Aydan Güləddin qızı***
***Bakı Dövlət Universiteti, Sosial və pedaqoji psixologiya kafedrasının dissertantı***

Gender asimmetriyası gender sosiallaşması çərçivəsində formalaşır. Gender xüsusiyyətlərinin və davranışlarının mənimsənilməsi və inkişafı prosesi, mədəni nümunə və davranış normalarının, sosial bacarıq və dəyərlərin, əvvəlcədən fərdlərin ayrı-ayrı gender qruplarına, gender identikliyi formalarına bölünməsi prosesi gender sosiallaşması kontekstində baş verir.

Gender identikliyi, koqnitiv və emosional amillərin kəsişməsində meydana çıxan fərdi seçim və ya fərdə verilən sosiomədəni rol kimi ortaya çıxır. O, özünü sosial münasibətlərdə və davranışlarda biruzə verir. Gender identikliyi, gender sosiallaşması prosesində formalaşaraq inkişaf edir. Gender identikliyini sərbəst seçən fərdlərin münasibət və davranışları şəxsi koqnitiv və emosional amillərinin təzahürü kimi meydana çıxırsa, onu sosiomədəni rol kimi qəbul edən fərdlərin münasibət və davranışları müəyyən normalara, sosial stereotiplərə

əsaslanan kollektiv şüurun, şüuraltı arxetiplərin fəaliyyəti kimi özünü göstərir. Kollektiv şüur və şüuraltı arxetiplər mədəni gender stereotipləri vasitəsilə gender sosiallaşması prosesində gender asimmetriyasının formalaşmasına şərait yaradır. Bu baxımdan, gender asimmetriyası həm ümumi psixologiyanın, həm də sosial psixologiyanın paralel tədqiqat obyektinə daxil olur.

S.Bern hesab edir ki, cinsi identiklik dörd mərhələdə formalaşır [3, 123]:

- Gender identifikasiyası (yəni, özünü müəyyən bir cinsə aid etmək);
- Gender cinsiyyət sabitliyi (cinsiyyətin müəyyən bir şəkildə dəyişdirilməsi imkanı olmadan qəbul edilməsi);
- Differensial təqlid (öz cinsinin ən yaxşı nümayəndəsi olmaq istəyi);
- Gender özünütənzimləməsi (özünə qarşı sanksiyalar tətbiq etməklə,davranışını idarə etmək qabiliyyəti).

Fərdin gender sosiallaşması prosesi bir neçə ardıcıl gender kateqoriyasından keçir: gender, gender stereotipi, gender rolları, gender displeyi, gender identikliyi, gender müqaviləsi və nəhayət gender sistemi (şəkil 1). İ. Qofman tərəfindən elmə gətirilən gender displeyi anlayışı, cinslərə öncədən təyin edilən sosial rol və münasibətlər sisteminin aspektlərini təşkil edir. Gender displeyi cinsləri ənənəvi gender rollarını ifa etməyə vadar edir.

Şəkil 1. Fərdin gender sosiallaşması sxemi:




Gender sosiallaşması prosesinin ilkin mühiti ailədir. Şüuraltı sosiomədəni elementlər ailə mühitində uşaqların gender davranışlarının istiqamətini müəyyənləşdirir. Ailənin quruluşu, qardaş və bacıların olması, ailədə valideynlərin münasibətləri, ailənin ekologiyası, onun emosional portreti, uşağın hər bir valideynlə münasibətləri, mümkün böhranların öhdəsindən gəlmək forması, üstünlük təşkil edən sosial stereotiplər və digər amillər gender sosiallaşması prosesinin tərkib hissələrini təşkil edirlər. Bu mühitdə böyüyən uşaqların cinsi rolu barədə ilkin məlumatı və əks cinsə münasibəti formalaşır. Burada valideynlərin fərdi nümunəsi əsas istiqamətverici amildir. Ailəsində bir insan bütün sonrakı həyatını təyin edə biləcək davranış reaksiyalarının müəyyən bir stereotipini alır. Uşağın sosiallaşma proseslərinə təsir edən ailənin ən vacib xüsusiyyətləri onun funksiyaları, quruluşu və dinamikasıdır. E.G. Eydemiller və V.V.Yustitski öz əsərlərində ailənin aşağıdakı funksiyalarını ayırd edir və onların pozulması şəraitində ailənin və fərdin psixoloji travmaya məruz qaldıqlarını bildirirlər [4, 15]:

- Tərbiyə (uşaqların ata və ananın ünsiyyətinə, tərbiyəsinə olan fərdi ehtiyaclarını təmin etmək);
- Məişət (ailə üzvlərinin maddi ehtiyaclarını ödəmək);
- Emosiya (ailə üzvlərinin rəğbət, hörmət, diqqət, emosional dəstək, psixoloji qorunma ehtiyaclarını məmnun etmək);

- Mənəvi və mədəni ünsiyyət (birgə istirahət, qarşılıqlı mənəvi zənginləşmə).
- İlkin sosial nəzarət;

Gender stereotipləri sosial ünsiyyət prosesində formalaşan, sosiallaşma prosesində fərd tərəfindən ötürülən və gender təbəqələşməsinin qorunmasında mühüm rol oynayan sosial stereotiplərin bir növüdür.Gender stereotiplərinin funksiyalarını psixoloji və sosial olmaqla iki qrupa bölürlər. Psixoloji gender stereotiplərinə aid olan koqnitiv-adaptasiya funksiyalar, fərdin ətraf mühitdən aldığı bilikləri sadələşdirmək və sistemləşdirməkdən ibarət olan, mürəkkəb obyektlərin qavranılmasında fərdin səylərini qorumağa xidmət edən idrak funksiyasıdır. Fərdin və qrupun dəyərlərinin yaradılması və saxlanması ilə əlaqəli dəyər qoruyucu funksiya yalnız izah etmək üçün deyil, həm də fikirlərini və davranışlarını əsaslandırmaq və müdafiə etmək, həmçinin, qrup dəyərlərini qorumaq, yad qrupa münasibətdə davranışı əsaslandırmaq və rasionallaşdırmaq üçün ortaya çıxarılır. Stereotipləşmə subyekti obyektə sosial rol və status verir, digərinin davranışını şərh etməyə və proqnozlaşdırmağa imkan verir. Çünki qrupun bir nümayəndəsi haqqında əldə edilən biliklər fərd tərəfindən bütün qrupa paylanır.

Gender asimmetriyasının formalaşması və inkişafında sosiomədəni sistemin rolu, biofizioloji amillərin təsirindən dəfələrlə güclüdür. Bu öz təsdiqini müasir gender tədqiqatları çərçivəsində tapır. Fərdin gender sosiallaşması bir neçə ardıcıl gender prosesindən (gender stereotipi, gender rolları, gender displeyi, gender identikliyi, gender müqaviləsi, gender sistemi) keçərək, biofizioloji amillər üzərində dominantlıq edir və onu təsiri altına alır. Cinslərə öncədən təyin edilən sosial rol və münasibətlər sistemi, onların sosial-mədəni şüurunu və emosional şüuraltı aləmini formalaşdırır. Bu baxımdan, gender asimmetriyasının səbəblərinin sosiomədəni xarakterli gender tədqiqatlarında axtarılması təsadüf deyildir.

**Ədəbiyyat:**
1.Spence J. T., Helrnreich R. L. The many faces of androgyny. Journal of Personality and Social Psychology 1979, vol. 37, s. 1032-1046.
*2.Андреева Г.М.* Психология социального познания: учеб. пособие. 3-е изд., испр. М.: Аспект Пресс, 2005. – 303 s.
3.Бем С. Линзы гендера: Трансформация взглядов на проблему неравенства полов /Пер. с англ./. М.: Российская политическая энциклопедия, 2004. - 336 s.
4.Эйдемиллер Э.Г., Юстицкис В. Психология и психотерапия семьи. СПб: Питер 2008. – 672 s
5.Берн Ш. Гендерная психология. – СПб.: прайм-ЕВРОЗНАК, 2001. 320 s.
*6.Брагина Н.Г.* Мифология стереотипа и обыденное знание // Стереотипы в языке, коммуникации и культуре: сб. статей / сост. и отв. ред. Л.Л.Федорова. М.: Рос. гос. гуманитар. ун-т, 2009. s. 348–356.

## Mədəniyyətlərarası qarşılıqlı təsirin bəzi məsələlərinə dair

***Qurbanova Nərminə Şamil qızı***
***BDU-nun Sosial və Pedaqoji psixologiya kafedrasının müəllimi***

Müasir polietnik Azərbaycan öz etnik tərkibinə görə bir çox dövlətlər sırasında öncül yerlerin birini tutur. Multikulturalizm ideologiyasının mühüm yer tutması onun ərazisində yaşayan əhalinin milli dəyərlərinin zənginləşməsinə təsir göstərir və mədəniyyətlərarası dialoq üçün əlverişli şərait yaradır. Azərbaycanda mövcud olan milli-etnik qruplararası münasibətlər daimi tolerant xaraker daşıyıb. Lakin, buna baxmayaraq sürətlə dəyişən zaman insanların həyatında müxtəlif çətinliklər yaradır və yeni sosial və mədəni mühitə dinamik adaptasiyasını tələb edir. İstər şəxsiyyətlərin, istərsə də qrupların adaptasiya

prosesinin uğurlu keçməsi bir sıra amillərdən asılıdır. Psixoloji tədqiqatlar göstərir ki, adaptasiya və akkulturasiya proseslərində, etnik psixoloji xüsusiyyətlər aparıcı rola malikdir və bu sahədəki araşdırmalar diqqəti həmin istiqamətə yönəldir

Mədəniyyətlərarası qarşılıqlı təsirin psixoloji məsələlərinin öyrənilməsinə maraq XX əsrin əvvələrində yaranmışdır. Uzun müddət bu sahədə ciddi tədqiqatlar yalnız etnoqraflar tərəfindən aparılmışdır. Akkulturasiyanın klassik tərifi antr0poloqlar R.Redfild, R.Linton və M.Xerskoviç tərəfindən verilmişdir. Onların qənaətincə, akkulturasiya o zaman baş verir ki, müxtəlif mədəniyyət nümayəndələri vasitəsiz və ardıcıl təmasa daxil olur, nəticədə hər iki mədəniyyətin nümayəndələrinin dünyagörüşündə dəyişikliklər baş verir ki, bu da əvvəlki dəyərlərə, dünyagörüşünə oxşamır (Redfild R.,Linton R & Herskovits M., 1936).

90-cı illərin əvvəllərində C.Berri akkulturasiyanın yeni modelini təklif edir. C.Berri tərəfindən təqdim edilmiş akkulturasiyanın konseptual modeli adaptasiyanın və mədəniyyətlərarası qarşılıqlı təsirin psixoloji mexanizmlərini müəyyən etməyə imkan verən başlıca konsepsiyalardandır.

C.Berrinin akkulturasiya nəzərriyəsinə görə, azlıq təşkil edən etnik qrup dominantlıq təşkil edən etnik qrupla mədəniyyətlərarası əlaqəyə daxil olarkən iki problemi həll etmək məcburiyyəti qarşısında qalır: öz mədəniyyətini qoruyub saxlamaq və mədəniyyətlərarası əlaqələr yaratmaq.

Bu iki dəyişən amillə səciyyələnən konsepsiya dörd strategiyanı özündə əks etdirir. Müəllif həmin strategiyaları aşağıdakı kimi təsnif edir:

- assimilyasiya: bu zaman qrup və ya fərd öz mədəniyyətini itirir, lakin başqaları ilə əlaqəni qoruyub saxlayır;
- separasiya: bu zaman qrup və ya fərd öz mədəniyyətini qoruyub saxlayır, lakin başqaları ilə əlaqəni saxlamır;

- marginalizasiya: bu zaman qrup və ya onun ayrı-ayrı üzvləri öz mədəni dəyərlərini itirir, lakin başqaları ilə də əlaqəni saxlaya bilmir.
- inteqrasiya: bu zaman qrup və ya onun üzvləri öz mədəniyyətini qoruyub saxlayır, öz mədəni dəyərlərini qarşılıqlı şəkildə başqa mədəniyyətlərə uyğunlaşdırır, onlarla sıx əlaqələr yaradır. (Berry J.,1990).




Müasir dövrdə sosial-psixoloji adaptasiyada hansı strategiyanın seçilməsinin çox böyük əhəmiyyəti var. Bu, onunla bağlıdır ki, inteqrasiya prosesində insanlar öz milli mənəvi dəyərlərini inkişaf etdirməklə yanaşı, başqa pozitiv mədəni dəyərləri də özününküləşdirir və mədəni dəyərlər daha da zənginləşir. Əlbəttə, uğurlu və ya effektiv inteqrasiya o zaman baş verir ki, hər iki qrupun müxtəlif mənşədən olan insanlara bərabərhüquqlu münasibət nümayiş etdirilsin. Belə bir strategiya etnik azlıq tərəfindən dominant qrupun dəyərlərini qəbul edilməsi və eyni zamanda, böyük qrupların etnik azlıqlar üçün dövlət proqramlarında münasib şərait yaradılması fonunda həyata keçə bilər. Cəmiyyətdə yaradılmış şərait kiçik qrupların da tələbatlarına cavab verməlidir.

Bu məsələlərin cəmiyyətimizdə hansı şəkildə həll olduğunu müəyyənləşdirmək üçün biz bəzi göstəriciləri əldə etdik. Bunlar respondentlərin etnik və vətəndaşlıq identikliyinə münasibət, təhlükəsizliyin dərəcəsi, akkulturasiya yönəlişləri, psixoloji durum və başqa göstəricilərdir.

Müəyyən olundu ki,  Azərbaycanda yaşayan müxtəlif etnik qrupların nümayəndələri pozitiv etnik və vətəndaş  identikliyinə malikdirlər. Vətəndaş identikliyi etnik identikliyinə nisbətən  daha üstün olmasına baxmayaraq, demək olar ki, rəyi soruşulanlar özlərini həm müvafiq etnik qrupun, həm yaşadıqları ölkənin nümayəndələri  kimi qavrayırlar. (Şək.1)




Təhlükəsizlik hissi qrup və ya fərd üçün millətlərarası münasibətlərdə olduqca vacibdir.Təhlükəsizlik hissinin ölçüləri aşağı olduqda fərd  və ya grup tərəfindən həyəcan hissi yaşanılır. Buda həm millətlərarası münasibətləri həm  adaptasiya prosessini çətinləşdirir. Yaşadığı yeri tərk etmək   qərarını gücləndirir. Müəyyən oldu ki, fiziki  və iqtisadi təhlükəsizlik vətəndaş identikliyi ilə müsbət korelyasiya təşkil edir.

Fiziki və iqtisadi təhlükəsizlik hissi nə qədər yuxarıdırsa fərd bir o qədər vətəndaş identikliyinə üstünlük verir və öz etnik qrupunu müsbət qiymətləndirir.

Tədqiqatçıların fikrinə görə, akkulturasiya strategiyaları içərisində inteqrasiya strategiyasının seçilməsi fərdin və ya qrupun adaptasiya prosesini asanlaşdırır və ağrısız  keçməsinə şərait yaradır.  Belə olduqda,  insanlar öz mədəni dəyərlərini qoruyub saxlayaraq, başqa mədəni dəyərləri də öz mədəniyyətlərinə qəbul edirlər. Keçirdiyimiz tədqiqatlar göstərdi ki, respondentlərin çoxu inteqrasiya strategiyasına üstünlük verir. (Şək.2)

Müəyyən oldu ki, inteqrasiya iqtisadi təhlükəsizliklə müsbət korelyasiya ($r=0,316$, $p=0,026$ ), separasiya iqtisadi təhlükəsizliklə mənfi korelyasiya ($r=-0,323$, $p=0,022$),

assimilyasiya fiziki təhlükəsizliklə mənfi korelyasiya ($r=-0,327$, $p=0,021$) təşkil edir.

Bu o deməkdir ki, insanlar özlərini mədəni və iqtisadi cəhətdən nə qədər təhlükəsiz hiss edirlərsə inteqrasiyaya meyillik daha da artır, bu da multikulturalizm ideologiyasını qəbul etmələrindən, yad mədəniyyətin nümayəndələrinə xoş münasibət göstərmələrindən və onları müsbət qəbul etmələrindən xəbər verir.

Adaptasiayanın uğürlu və ya uğursuz gedişi qrup üzvlərinin psixoloji durumu ilə də şərtlənir. Bizim tədqiqat göstərdi ki, rəyi soruşulanlarda həyatdan məmnunluq göstəriciləri, özünəhörmət və özündən məmnunluq göstəricilərindən nisbətən üstündür; depressiya aşağı səviyyədə, həyəcan və gərginlik göstəriciləri isə yüksər səviyyədə müşahidə olunur.

Akkulturasiya zamanı etnik qrupların milli şüurunda da müəyyən dəyişiklikləri izləmək olar. Məsələn Azərbaycanda yaşayan rus respondentlərinin fikrincə, onlar Rusiyada yaşayan ruslardan fərqli olaraq, daha mədəni, daha əməksevər, daha sadəlövhdirlər,yaşlı nəslə hörmətlə yanaşırlar. Respondentlərin cavablarından məlum oldu ki, bir çox rusların davranışı azərbaycanlıların ətrafına düşərkən "təvazökarlığa", "təmkinliyə" tərəf dəyişir.

Beləliklə, etnik qrupların yeni təbii, iqtisadi və etnomədəni yaşayış mühitinə uyğunlaşması etnik birliklərin həyat fəaliyyətinin bütün sahələrinə nüfuz edən çoxsəviyyəli kompleks prosesdir.

**Ədəbiyyat**

1. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: "QAPP - POLIQRAF" Korporasiyası, 2003

2. Лебедева Н.М. Татарко А.Н. Методы этнической и кросскультурной психологии. М.: НИУ ВШЭ,2011

3. Стефаненко Т.Г. Этнопсихология:Учебник для вузов. М.: Аспект Пресс, 2009

4. Berry J.W. Immigration, Acculturation and Adaptation. Ontario. 1996.
5. Redfild R.,Linton R & Herskovits M., Memorandum on the study of acculturation, in American Antropologist. New York, 1936.

## VƏTƏN MÜHARİBƏSİ AZƏRBAYCAN MEDİASINDA

***Rza Xaqan Fuad oğlu***
***BDU-nun II kurs magistrantı***

44 gün davam edən və qələbə ilə nəticələnən Vətən müharibəsi Azərbaycan mediası üçün də bir sınaq oldu. İnsan sivilizasiyasının inkişafının müasir mərhələsi informasiya cəmiyyətinə fəal keçidlə səciyyələnir. Bu prosesin nəticələri bütün sosial fəaliyyət sferalarının sürətlə informasiyalaşdırılmasında öz əksini tapır. Hazırkı şəraitdə informasiya ilə bağlı nəzəri və praktik biliklərin artırılması, davamlı inkişaf etdirilməsi zərurətə çevrilir. İnformasiya məkanının və potensial auditoriyanın genişlənilməsi sosial-siyasi proseslərinin məzmununu, strukturunu da əhəmiyyətli dərəcədə dəyişir, KİV-in, müasir medianın sosial təşkili prinsiplərinin yenidən qiymətləndirilməsini aktual bir məsələ kimi ortaya çıxarır.

Bildiyimiz kimi müasir dövrün inkişaf xüsusiyyətləri ilə bağlı olaraq istənilən sosial hadisənin əks sədası cəmiyyətdə xüsusi rəy formalaşdırır, münasibəti bildirir. Bu cür hallar sosial inkişafın keçid mərhələlərində daha açıq şəkildə özünü biruzə verir. Azərbaycan cəmiyyəti SSRİ dağılandan sonra belə mərhələni yaşayaraq bir çox məşəqqətlər və ziddiyyətlər yaşadı, əzab və əziyyətlər çəkdi. Nəhəng Sovet imperiyasının dağılması nəticəsində formalaşan müstəqil dövlətlər öz tarixi yükünün ağırlığını çəkməli olmuşlar. Azərbaycan digər respublikalarla müqayisədə daha böyük çətinliklərlə rastlaşdı. Bölgədə yüz illər ərzində formalaşan və böyük dövlətlərin

maraqlarına uyğun olaraq "tənzimlənən" siyasi, etnik, mədəni-mənəvi qarşıdurmalar nəticəsində qanlı Dağlıq Qarabağ münaqişəsi meydana gəldi. Müasir dövrdə istər müharibənin taktika və strategiyasında, istərsə də onun tərkib hissəsi olan informasiya müharibəsi zamanı istifadə olunan yeni texnoloji vasitələr və fəndlər olduqca rəngarəngdir.

Kütləvi informasiya vasitələrinin, o cümlədən sosial şəbəkələrin insanların şuuruna təsiri yolları ilk növbədə kiçik sosial qruplarla bağlıdır. Məlumdur ki şəxsiyyətlərarası münasibətlər burada formalaşan qrupdaxili dəyərlər mübadiləsi üzərində qurulur, bu da qrup üzvləri status strukturunda tutduğu yerlərdən asılı olur. Dəyərlər dedikdə ilk növbədə maddi və ya ideal olan cisimlər və ideyalar nəzərdə tutulur ki, bunlar insan üçün xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, hər bir şəxsiyyətin keyfiyyətləri, onun bilikləri və təcrübəsi qrup üzvləri üçün müəyyən dəyər rolunu oynayır, həmin bilik və təcrübə özünü qazandığı status və nüfuza dəyişir. Demək olar ki, kütləvi informasiya kommunikasiyaları hər bir tarixi mərhələdə mübadilə yolu ilə qrupdaxili proseslərə əsaslı şəkildə təsir göstərir. Nəticədə qrupda lider seçilir, işgüzar münasibətlər qurulur, xüsusi emosional durum meydana gəlir.

Demək olar ki, müharibə dövründə bu cür dəyərlər mübadiləsinin sürəti qat-qat artmışdır, o daha intensiv olmuş və daha çox insanlar bu mübadilədə iştirak etmişdir. Bunun nail olmaq üçün kütləvi informasiya vasitələrində verilən məlumatlar bilavasitə insanların maraq və tələbatlarına uyğunlaşdırılaraq təqdim edilirdi. Illərlə yığılıb qalmış nigarançılıq, narahatlıq, verilən itkilərin ağrısı nəhayət ki aradan qaldirilmağa başlanmışdır.

İnsanlarda xüsusi ruh yüksəkliyi formalaşmış, gündəlik ünsiyyətdə tələbat, məlumatları qəbul edib mənimsəmək arzusu, onlara münasibət bildirmək səyləri artırdı. Baxmayaraq ki, müharibə vəziyyətinə görə müəyyən bir müddət bəzi sosial şəbəkələr aradan qaldırılmışdır, informasiya-kommunikasiya

texnologiyalarının inkişafı insanlara digər imkanlarından istifadə etmək fürsəti verirdi.

Məlumdur ki, "hazırda ölkəmizdə 5 mindən çox media subyekti fəaliyyət göstərir. Artıq Azərbaycan mətbuatı qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirilib, dünyanın aparıcı media orqanları ölkəmizin aparıcı xəbər agentliklərinə istinadlar edirlər, xəbər mübadiləsi həyata keçirilir, xarici ölkələrdə bürolar fəaliyyət göstərir, həmçinin yüzlərlə jurnalist beynəlxalq təşkilatların dəstəyi ilə təşkil olunan ixtisasartırma və təkmilləşmə kurslarında iştirak edirlər" [1].

Unutmayaq ki, kütləvi informasiya vasitələrinin müharibə şəraitində fəaliyyəti həm də qarşı tərəf, yəni düşmənin təbliğat kompaniyasına sinə gəlmək, burada yayımlanan yalançı və təxribat xarakterli məlumatlara qarşı durmaqdan ibarət olmuşdur. Həm də, məlum olduğu kimi, belə fəaliyyət nəinki respublika hüdudlarında, həm də bütün dünyada həyata keçirilirdi. Erməni tərəfi və onların havadarları var qüvvəsi ilə çalışırlar ki, bizim haqq işimizi qaralasın, uzun müddət davam edən münaqişə isə öz həllini yenə də tapmasın. Yalançı məlumatların yayılması isə ondan ibarət idi ki, güya Azərbaycan ərazisində bizin tərəfdə müxtəlif ölkələrdən gətirilən muzdlu silahlılar iştirak edir. Digər yalan isə ondan ibarət idi ki, Qarabağ torpaqları onların əzəli məskunlaşdığı yerdir.

Demək olar ki, mediada istər peşəkar jurnalistlər, istərsə də bütün sosial şəbəkələr nümayəndələri fəal şəkildə öz fikrini bildirməyə çalışırdılar. Ümumi ruh yüksəkliyi, siyasi mədəniyyətin yeni çalarları meydana gəlirdi. Belə bir fövqəl şərait insanları birləşməyə, vahid dəyər əsasında ümumi amal ugrunda irəliyə doğru getməyə sövq edirdi.

Ümumiyyətlə "günümüzdə, xəbərləri əldə etmək üçün qəzet, televiziya və radio kimi ənənəvi formatlardan daha çox onlayn mətbuat mənb ələrinə, peyk televiziyasına, bloqlara və sosial şəbəkələrə güvənirik. Biz məlumatları yalnız ənənəvi

təlim keçmiş jurnalistlərdən deyil, həmçinin vət əndaş jurnalistlərdən və diktorlardan alırıq. Bu, bizim sosial və siyasi mənzərəmizə təsir edir. Bu həm də informasiya inqilabının hökumətlər üçün nə anlama gələ biləcəyindən qorxan repressiv hökümətlərin istifadə etdikləri taktikaların dəyişdirilməsinə gətirib çıxardır".

44 günlük müharibə dövründə beynəlxalq ictimai rəy də formalaşmaqda idi. Burada sosial şəbəkələrin rolu olduqca böyük olmuşdur. Kütləvi etirazlara çağırışlar, təhrif olunmuş faktların dinləyicilərə və tamaşaçılara xüsusi tərzdə çatdırılması, hər hansı bir siyasi gediş və yaxud hadisə ilə bağlı piar-kampaniyaların keçirilməsi göstərir ki, KİV müasir dövrdə siyasi texnologiyaları həyata keçirmək işində qüdrətli bir alətə çevrilmişdir. Bunu xüsusi olaraq erməni diasporanın daha sıx yaşadıqları ölkələrdə müşahidə etmək olur (Fransa, ABŞ, Rusiya və s.).

Ekspertlər ölkəmizdə düşüncə mərkəzləri və jurnalistlərin xarici mediada çıxış etməsinə ehtiyac olduğunu qeyd edirlər, göstərirlər ki, Rusiya düşüncə mərkəzlərində belə tədbirlər olanda ora rus dilini bilən jurnalist və ekspertlər yönləndirməkdə çətinlik çəkirik [3]. Yəni problemin bu tərəfi də var. Həm rus, həm də digər xarici dilləri yaxşı bilən jurnalistlərə tələbatımız olduqca böyükdür. Bunu jurnalistika, tərcümə, beynəlxalq münasibətlər ixtisaslarında oxuyan tələbələr üçün çox vacibdir. Məlumatların mənimsənilməsi və istifadəsi, yayımlanması, ünsiyyətin genişləndirilməsi auditoriya tərəfindən onun ictimai şüur və siyasi mədəniyyət səviyyələrində qavranılması üçün uğurla istifadə oluna bilər.

Müharibədə informasiyadan düzgün istifadə etməklə onu operativ şəkildə dünyaya çatdırılması işində bütün dövlət strukturları Respublika Prezidenti cənab İ.Əliyev başda olmaqla fəal iştirak ediblər. Burada KİV imkanları istər dövlətdaxili, istərsə də beynəlxalq səviyyələrdə istifadə olunurdu, indiyə qədər dövlət srtukturları ilə KİV sıx təmasda olaraq postmü-

haribə dövründə də münaqişənin fəsadlarını aradan qaldırılması ilə bağlı real həqiqətləri dünyaya çatdırmaqdadır.

Həm də "İnternet resurslarla yanaşı, telekanallarımız cəbhə bölgələrindən ən son məlumatları çatdıra bildi, təmas xəttindən mümkün olduğu qədər, dövlətin informasiya siyasətinə zidd olmayaraq kadrlar göstərə bildilər. Mütəxəssislər hesab edirlər ki, televiziyalarımız əvvəlki illərlə müqayisədə çox dəyişiblər. Xüsusən də müharibə dövründə vətəndaşların informasiya təminatını həyata keçirdilər, həm də müharibə zamanı lazım olan formada, informasiya axınını peşəkar şəkildə idarə etdilər. İstər Azərbaycan Televiziyası (AzTV), istərsə də, özəl telekanallar üzərinə düşən işi layiqincə yerinə yetirməyə çalışdılar".

Burada öz həllini gözləyən bir sıra məsələlər var. Ilk növbədə dövlət təhlükəsizliyi baxımından unutmaq olmaz ki, informasiya təhlükəsizliyi onun tərkib hissəsidir. Deməli, istənilən sosial həyatla bağlı məlumatın çatdırılması məhz bu prizmadan edilməlidir. Digər tərəfdən, dünya, o cümlədən bölgə ölkələrinin siyasi maraqları nəzərə alınmalıdır və media-cəmiyyət münasibətləri bu maraqların ölkəmiz üçün nə dərəcədə zəruri olmasını thlil etməklə qərar qəbul edilməlidir. Həm də insanların mənəvi-psixoloji və əxlaqi dəyərlər sisteminin formalaşmasında media nümayəndələri öz rolunu gərək unutmasın.

Bütövlükdə nəticə olaraq göstərmək olar ki, KİV nümayəndələri müharibə dövründə ümumən fədakarcasına, bəzən öz həyatı bahasına öz borclarını yerinə yetirmiş,ictimai rəyin formalaşmasında və qələbənin yaxınlaşdırılmasında xüsusi rol oynamışlar.

**Ədəbiyyat:**

1.Azərbaycan KİV-nin müharibə və hərbi vəziyyət şəraitində işləmək bacarığı bütün dünya mediasına nümunə oldu - Səttar

Möhbalıyev // https://az.trend.az/azerbaijan/politics/3458563.html
2.KİV // https://www.coe.int/az/web/compass/media
3.Vətən Müharibəsi və postmüharibə dövründə KİV və beyin mərkəzlərinin rolu: qarşıdakı hədəflər // https://apa.az/az/xeber/daxili-siyaset/
4.Azərbaycan mediası “müharibə imtahanı”ndan necə çıxdı? - Mütəxəssis rəyləri // http://aztv.az/az/news/10741/

## EKSTRASENSOR QAYRAYIŞIN TƏDQİQ OLUNMASI QAYDALARI

***Cəbrayılova Səbinə Telman qızı***
***BDU-nun Gender kafedrasının dissertantı***

Bildiyimiz kimi, ESQ fenomenini sübut etmək və ya təkzib etmək üçün əsaslı bir təcrübə yoxdur. Buna görə tədqiqatçıların vəzifəsi hər şeydən əvvəl hədəflərin seçilməsinin təsadüfi olmadığı, məlumatların qeyd olunmasında səhvlər, tədqiq olunanların aldatma ehtimalı, yəni aldatlma istəklərin olması, düzgün olmayan statistik emal kimi və s. alternativ amilləri (digər fərziyyələri dəstəkləyən) minimuma endirməkdir. Bu, tədqiqatçı olmaq istəyənlər üçün həqiqətən çətin bir işdir. Eksperimentin qurulması zamanı bütün mümkün variantların hərtərəfli nəzərdən keçirilməsi çox mürəkkəb olduğu üçün nəzərə alınması lazım olan əsas məqamları qeyd edək. Bu əsas məqamlara aid edilir:

Təsadüfi seçim. Aparılan eksperimentin nəticələrinin statistik təhlili hədəflərin təsadüfi seçilməsini tələb edir. Randomizasiyanın (təsadüfə gətirmə) müxtəlif təsadüfi üsulları mövcuddur. Məsələn, kartlarla tətbiq olunan təcrübələrdə randomizasiya üçün kartların əllə qarışdırılmasına imkan verilir ki, bu da tam təsadüf halını əldə etməyə imkan vermir.

Təsadüfi ədəd generatorları daha yaxşı təsadüfiliyə imkan verir, lakin elektron təbiətinə görə temperatura və maqnit sahəsinə həssasdırlar. Randın ədədi cədvəllərinin istifadəsi kimi başqa üsullar da var [1]. Tədqiqatın qeydlərində hansı randomizasiya metodundan istifadə olunduğu və bunun kim tərəfindən tətbiq olunduğu göstərməlidir. İdeal olaraq, hədəfi təsadüfi seçən şəxs və ya eksperimentator fərqli insanlar olmalıdır; bu təcrübənin "kor" xarakterə malik olmasına imkan verir.

İlkin təsvir. Konkret metodlar və verilənlərin statistik işlənilməsi üsulu da daxil olmaqla eksperimenin qurulması sxemi əvvəlcədən təyin edilməlidir. Birincisi, bu sxemin düzgünlüyünü həmkarlarınızla müzakirə etməyə imkan verir; ikincisi, tədqiqatçıya onun hipotezini dəstəkləməyən nəticələri inkar etməsinə mane olacaq. Qarşıda duran eksperimentin bütün detallarını, mövzuların sayı, seansların və təkrarların sayı, statistik meyarlar və s. də daxil olmaqla hər bir detalı qeyd etmək lazımdır.

İştirakçıların seçilməsi. Təcrübə iştirakçılarını seçmək üçün iki seçim var: təsadüfi və məqsədli. Əgər biz insanları tamamilə təsadüfi bir seçim əsasında etsək, aldatma ehtimalını əhəmiyyətli dərəcədə azaldarıq, lakin bu müşahidə olunanın psi effekti ölçüsü hesabına başa gəlir. Əgər təcrübələr üçün ekstrasensor qabiliyyəti olan insanlar cəlb olunarsa (xüsusən də praktik ekstrasenslər), onda qabiliyyətlərinin sabit olduğundan əmin olmaq üçün bir çox təkrarlamalar aparılmalıdır. Nəzərə alınmalıdır ki, bu cür insanlar təcrübənin müsbət nəticəsi ilə maraqlana bilərlər (qabiliyyətlərinin elmi təsdiqlənməsi yeni müştərilərin cəlb edilməsi baxımından faydalıdır), buna görə də aldatmağa cəhd edə bilərlər. Digər tərəfdən, bu cür mövzularda daha böyük bir psi effekti əldə oluna bilər.

Hədəf seçimi. Hədəflərin seçilməsi eksperimentdən bir neçə müddət əvvəl baş verərsə, kiminsə onları əldə edə bilməməsi üçün ehtiyat tədbirləri görülməlidir. Məsələn, ofisdəki və

ya seyfdəki hədəfləri bağlaya bilərsiniz. İdeal olaraq, təcrübəni aparan və hədəfləri hazırlayan şəxs fərqli insanlar olmalıdır. Bu, təcrübə aparan şəxsin təsirini aradan qaldırır.

İstənilən hər hansı bir sensor məlumatın istisna edilməsi. Raynın "hiss sızması" adlanan erkən psixi təcrübələri, təcrübə zamanı tədqiq olunanın mövzu haqqında bir ipucunu almaq qabiliyyətinə malik olmasından əziyyət çəkirdi. Məsələn, eyni kartları bir neçə seansda istifadə edərkən, kartların arxasındakı xüsusiyyətlərə əsasən kartları öyrənmək mümkündür. Əlavə olaraq, telepatiya ilə bağlı ilk təcrübələrdə alıcı və operator eyni otaqda yerləşdirilirdi, buna görə də tədqiq olunan operatorun hərəkətlərini və reaksiyalarını izləmə imkanına malik olur. İdeal olaraq, alıcı və operator ayrı-ayrı, səs keçirməyən otaqlarda yerləşdirilməlidirlər.

Sensor sızmasının bütün mümkün mənbələrini nəzərə almaq vacibdir. Məsələn, təcrübədə operatora bir video klip göstərilirsə, alıcının otağında bu səslər eşidilməməlidir. Statistik hədəflərdən istifadə olunarsa, sınaq başlamazdan əvvəl sıx şəffaf zərflərdə yerləşdirilməlidirlər.

Nəticələrin qiymətləndirilməsi. Yuxarıda qeyd edildiyi kimi, açıq cavab tələb edən təcrübələrdə mövzuların nəticələri qiymətləndirilməyə məruz qalır, çünki hər bir halda hansı hədəfin alınan cavaba uyğun olduğunu müəyyən etmək lazımdır. Qiymətləndirici qismində alıcının özü və ya kənar şəxs çıxış edə bilər. Bu vəziyyətdə qiymətləndiricinin düzgün cavabı bilməməsi, təsadüfi fikirlə qiymətləndirməsi vacibdir. Həmçinin, dəyərləndiriciyə operatorun tutduğu hədəfi göstərməmək vacibdir, çünki onun üzərində izləri (barmaq izləri, girintilər və s.) qala bilər ki, bu da hiss sızmasına səbəb ola bilər. İdeal olaraq, müstəqil müşahidəçilərdən ibarət ekspert qrupu istifadə edilməlidir.

Əlavə tədbirlər. Bütün mümkün aldatma yollarını idarə etməyə imkan verəcək təcrübənin sxemini tərtib etmək üçün peşəkar illüzionistləri və sehrbazları cəlb etmək tövsiyə olunur

[2]. Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən ehtiyat tədbirləri təkcə parapsixologiyaya deyil, digər bəzi fənlərə də aiddir, məsələn, psixologiya, tibb və s. [3]. Ümumiyyətlə, tənqidçilərin davamlı hücumları səbəbindən, parapsixoloji tədqiqatlarda istifadə edilən metodologiyanın səviyyəsi, hazırda bir çox şərti araşdırmaların səviyyəsini aşaraq çox yüksək bir səviyyəyə çatmışdır.

Ekstrasensor qavrayışın proses yönümlü tədqiqatlarından bəhs edərkən xatırladaq ki, proses yönümlü araşdırmalar öz-özlüyündə paranormal hadisənin əslində mövcud olduğunu ifadə etmir. ESQ-ın olmadığı sübuta yetirilsə belə, proses yönümlü təcrübələrin nəticələri "ekstrasensor təcrübələrdə" müşahidə olunan nəticələrin mahiyyətini izah edəcək. Bununla birlikdə, proses yönümlü parapsixoloqlar, ESQ fenomeninin mövcudluğunun sübut edilmiş bir həqiqət olduğuna inanırlar. Təbii ki, bu fərziyyə bir qədər şişirdilmiş fərziyyədir. Əslində, biz əmin ola bilmərik ki, bu təcrübələrdə kartların anomal təxmin olunması deyil, ekstrasensorikanın mexanizmləri tədqiq olunur. Bundan əlavə, əgər şüurlu idarə olunmağa tabe olmayan ESQ fenomeni həqiqətən mövcud-dursa, tədqiqatçılar onun təbiətini öyrənmək imkanına malik ola bilməzlər və buna görə də bütün proses yönümlü təcrübələr boşa çıxa bilər.

ESP -nin təbiətini öyrənmək üçün təcrübələrin nəzərdən keçirilməzdən əvvəl, təcrübəçinin təsiri kimi tanınan sırf metodoloji məqamı qeyd etmək lazımdır. Təsirin mahiyyəti ondan ibarətdir ki, eksperimentator özü ekstrasensor testlərdə subyektlərin nəticələrinə təsir edə bilər [4]. Məsələn, bir alimin motivasiyası və münasibəti imtahanın motivasiyasına və gözləntilərinə təsir edə bilər ki, bu da testin nəticəsinə təsir edə bilər. Bundan başqa, tədqiqatçının davranışları gözlənilən nəticəni verə bilər ki, bu da sınağın məqsədinin mövzusuna səbəb olacaq və öz tərəfindən daha böyük çalışmalara təkan

verəcəkdir. Bütün bunlar nəticələrin qərəzli olmasına gətirib çıxarır.

Bundan əlavə, eksperimentatorun özünün parapsixoloji təsiri effekti də mümkündür, bunun mahiyyəti eksperimental nəticənin təcrübə aparanın özündə psi qabiliyyətlərinin mövcudluğundan təsirlənə bilməsidir [5]. Beləliklə, əgər bu təsir həqiqətən mövcuddursa, elm adamlarının paranormal hadisələri araşdırmasının obyektivliyinin mümkün olub - olmadığı aydın deyil.

Məsələn, bir elm adamı, test mövzusunda böyük bir psi təsiri əldə etməsinə imkan verəcək, test mövzusu üçün ən uyğun hədəfləri seçmək üçün psixi qabiliyyətlərindən istifadə edə bilər. Həqiqətən də, psixi qabiliyyətlərin şüursuz şəkildə istifadə oluna biləcəyinə dair sübutlar var [6]. Əlavə olaraq, əgər psixokinezin mövcud olduğunu zənn etsək, o zaman təcrübəçinin hədəf seçiminə şüuraltında təsir edərək təsadüfi olmayan hala gətirə biləcəyini güman etmək olar. Beləliklə, testlərdə mövzulardakı yüksək nəticələr yalnız təcrübəçinin təsirinin nəticəsi ola bilər. Bəzi müəlliflər təcrübəçinin təcrübənin nəticələrinə təsirinin xüsusiyyətindən asılı olaraq daha da irəli getdilər və hətta iki yeni anlayış təklif etdilər. Məsələn, təcrübələrində statistik olaraq əhəmiyyətli bir psi təsiri daha tez-tez müşahidə edilən elm adamlarına "psi keçirici təcrübəçilər", təcrübələrdə isə əsasən etibarlı nəticələr əldə etməyənlərə "psi bloklayan təcrübəçilər" deyilir. Əlbəttə ki, fərqli elm adamları arasında aparılan təcrübə nəticələrində belə bir fərqlilik tamamilə fərqli, daha təbii səbəblərdən qaynaqlana bilər.

Bu təsir haqqında bəzi araşdırmalar var. Məsələn, sübut olunmuşdur ki, "tələbələr psi keçirici" eksperimentatoru "bədən dili" "psi bloklayan" eksperimentator ilə müqayisədə daha dostcasına və çevikdir [7]. Bundan əlavə, Smith, 50 təcrübəçinin "psi keçiriciliyinin" öz psixokinetik qabiliyyətlərinə inamları və ESP-nin eksperimental sübutunun mümkünlüyü ilə əlaqəli olduğunu müəyyənləşdirdi. [8]. Maraqlıdır ki,

Smithin araşdırmasında parapsixoloqların özləri "psi-keçirici" və ya "psi-bloklama" kimi tərifləri ilə ümumiyyətlə razı deyildilər. Beləliklə, təcrübəçilərin özləri üçün bu və ya digər qrupa aid ola biləcəkləri aydın deyil. Kerolin Uot tərəfindən aparılan başqa bir araşdırmada, eksperimentatorun təsirinin həcmi təqdiqatçının əvvəlki nüfuzundan, həmçinin eksperimentatorun təcrübə zamanı verdiyi psi-keçirici ifadələrdən və subyektlərin rəyindən asılı olmadığı göstərildi. Bütün bunlar eksperimentatorun parapsixoloji təsirinin daha çox araşdırma tələb etdiyini göstərir [9, 10].

Təcrübəçinin təsirindən qaçmaq mümkündürmü? Bütün hesablamalara görə, ən yaxşı yol nəticələri fərqli parapsixoloqlarla yoxlamaqdır. Bir tədqiqatçının əldə etdiyi nəticə bir neçə müstəqil eksperimentator tərəfindən təsdiqlənərsə, təcrübənin ilkin, həqiqi müəllifi tərəfindən onun psixi qabiliyyətlərinin şüuraltı istifadəsi ehtimalı istisna edilə bilər. Təcrübəni təkrarlamaq üçün qərəzsiz insanlar da cəlb edilə bilər [11]. Təəssüf ki, təcrübəçinin təsirinin miqyasını bilməsək də, bunun təcrübənin 100% həqiqi nəticəsini təmin edəcəyinə əmin ola bilmərik.

**Ədəbiyyat:**

1.A million random digits and 100000 normal deviates / Rand Corporation // New York: Free Press, 1955.
2.Hansen G.P. Deception by subjects in psi research // Journal of the American Society for Psychical Research. – 1990. – Vol. 84. – P. 25-80.
3.Watt C.A., Nagtegaal M. Reporting of blind methods: an interdisciplinary survey / Journal of the Society for Psychical Research. – 2004. – Vol. 68. – P. 105-114.
4.White R.A. The influence of experimenter motivation, attitudes, and methods of handling subjects in psi test results / In B.B. Wolman (Ed.), Handbook of parapsychology // New York: Van Nostrand Reinhold, 1977. – P. 273-301.

# KİÇİK MƏKTƏBLİLƏRDƏ "MƏN OBRAZI"NIN FORMALAŞMASININ PSİXOLOJİ TƏHLİLİ

*Quliyeva Gülnar Rasim qızı*
*Bakı Dövlət Universiteti Sosial və pedaqoji psixologiya kafedrasının disssertantı*

Kiçik məktəb yaşı 6-10 yaşı əhatə edir. Bu dövrün başlıca xüsusiyyətləri- uşağın məktəbli olması, əsas fəaliyyətini təlim fəaliyyəti təşkil etməsindən ibarətdir. Bu dövrdə inkişafetdirici oyunlar təlimdən sonra ikinci yeri tutur. Şəxsiyyətin bir çox psixi xüsusiyyətlərinin əsası məhz bu dövrdə qoyulur.

Kiçik məktəblilərin şəxsiyyətinin inkişafında özünüdərketmə, yəni öz psixi, fiziki, mənəvi keyfiyyət və xüsusiyyətlərinə şüurlu münasibət, özünüqiymətləndirmə mühüm rol oynayır. Uşaq şəxsiyyətinin formalaşmasında məktəb kollektivinə daxil olmaq mühüm əhəmiyyət kəsb edir.

Məktəbə daxil olmuş uşaqların tələbat və maraqları olduqca müxtəlif və rəngarəng xarakter daşıyır, eyni zamanda kiçik məktəblilər onları əhatə edən adamların rəftar və davranışlarını qiymətləndirməyə də maraq göstərir və başqasının qeydinə qalmaq, insanlara həssaslıq göstərib hörmət edirlər.

Mənlik anlayışı, fərdin özü haqqında təsəvvürləri, hissləri və kim olduğu haqqında öz fikrini bildirir. Başqa sözlə, mənlik anlayışı insanın öz "mən" ini dərk etməsi, özünü necə qavraması, anlaması bunu necə qiymətləndirməsi yoludur. Mənliyin formalaşması həyat boyu davam edir və fərdin özünü tanıması ilə artır və inkişaf edir.

Mənlik şüurunun psixoloji mexanizmi özündə psixi reaksiyanın ilkin formasını əks etdirməklə insanın bioloji xüsusiyyətləri barədə informasiya verir. Özünün şəxsi fəallığı, psixoloji durumu ona müxtəlif fəaliyyət növlərinin ilkin, minimum səviyyədə icrasına imkan verir. Psixoloji ədəbiyyatda "mənlik şüuru" dedikdə insanın özünün tələbat və

qabiliyyətlərinə, fikir və hisslərinə, davranış və fəaliyyət motivlərinə şüurlu münasibəti nəzərdə tutulur.

Özünə hörmət uşaqlıq dövründə inkişaf edir və daha sonra həyatda öz yerini tutur. İlk öncə uşağın özünə hörməti əsasən valideynləri tərəfindən müəyyən edilir vəformalaşır. Valideynlərin sevgi dolu rəhbərliyiuşağın daxilində potensialı gücləndirir və inkişaf etdirir. Sevgi ilə böyüyən uşaqlar öz gələcəklərini daha yaxşı qura bilir və özlərinə hörmət edə bilirlər.

Erkən uşaqlıq illərində uşağın ətrafında əsasən ona təsir edən onun  valideynləri olur. İllər keçdikcə onların sırasına müəllimlər və həmyaşıdlar da qoşulurlar. “Mən obrazı” nın axtarışlarında insan əhəmiyyətli digərlərinin seçir və yaratdığı öz  “Mən” təsvirini yüksək qiymətləndirir. Əhəmiyyətli digərlərinin tərifi uşaqda müsbət “Mən”obrazı yaratdığı halda ardıcıl danlaqlar uşaqda mənfi özünüqiymətləndirməyə gətirib çıxara bilər.

Uşağın sevgi ilə yanaşmaqla yanaşı onda özünə hörmətin inkişafında aşağıdakı valideyn münasibətləri çox effektivdir: uşağı olduğu kimi qəbul etmək və qabiliyyətlərini üzə çıxarmaq, uşağa dəyər verib, qayğı göstərmək, onun fikrini soruşmaq və  dinləmək, uşağın təhsilinə və intizamına empatiyayla yanaşmaq.

Əsası valideyn münasibəti ilə qoyulan özünə hörmət, 5-6 yaşları əhatə edən məktəbəqədər dövrdə akademik mənlik formalaşmağa başlayır. Məktəb illərinin ilk illərində uşağın akademik mənliyinin inkişafında valideynləri ilə yanaşı müəllimlərinin uşaqlara münasibəti də təsirlidir.

Araşdırmalara görə özgüvəni yüksək olan məktəblilər istər sosial münasibətlərinə istərsə də məktəb təhsilinə  daha yaxşı yiyələnir və daha özgüvənli yanaşır. Özgüvəni aşağı olan şagirdlər  bunun əksinə özlərinə daha az güvənər və onlardan tələb olunanları bacarmayacaqları hissini yaşayarlar. Buna görə də uğursuzluqlarına görə xəcalət hissi keçirməmək üçün bəzi

məsuliyyətlərdən uzaq qaçırlar. Həmçinin müəllimlərin şagirdlərin özgüvənin formalaşmasında və şagirdlərin özgüvəni ilə akademik mənlikləri arasında əlaqə olduğu müəyyənləşdirilmişdir.

**Ədəbiyyat**

1. B.Əliyev, K.Əliyeva, R.Cabbarov. Pedaqoji psixologiya. Bakı:2011.254s
2. Psixologiya. prof.S.İ.Seyidov və prof.M.Ə.Həmzəyev. Bakı-2007. 672s.
3.Psixologiya. Ramiz Əliyev.Bakı-2008.351s.
4.Державина, Ю. Психологический анализ «я-концепции» девиантных подростков [Текст] / Ю. Державина // Студенческая наука и XXI век. - 2011. - № 8. - С. 229-
5.Campbell, J. D. (1990). Self-esteem and clarity of the self-concept. Journal of Personality and Social Psychology, 59, 538-549.

## YENİYETMƏLƏRİN AQRESSİV DAVRANIŞI VƏ ART TERAPİYA

***Kazımova Məhbubə Məcid qızı***
***BDU-nun II kurs magistrantı***

Yeniyetmə yaş dövrü ən çətin yaş dövrü sayılır. Yeniyetməlik dövrü uşaqların şəxsiyyətlərinin formalaşmağa, onların bir fərd kimi cəmiyyətdə özlərinə yer etməyə başladığı bir dövrdür.

Aqressiya ilk öncə daxili diskomfortun əksidir.Baş verən hadisələrə adekvat cavab verə bilməməkdir.

Yeniyetmə qrupları arasında aqressiyanın ən yüksək təzahürü oğlanlarda 12 və14-15 yaş arası, qızlarda isə 11-13 yaş arası olur. Oğlanlar qızlara nisbətən daha çox agressiv olur.

Oğlanlarda fiziki aqressiya dominantlıq edirsə, qızlarda dolayı aqressiya, dedi-qodu, intriqalar üstün olur

Aqressiv yeniyetmələr adətən zəif olurlar və özlərindən daha zəif olanları "qurban" seçirlər. Bununla da onlar özlərini təsdiq etmiş kimi hiss edirlər.

Aqressiyanı korreksiya etmək üçün müxtəlif metodikalar var. Bunlardan biri də art terapiyadir.

Art terapiya psixoterapiya metodudur. Psixologiya ilə sənətin vəhdətidir. Art terapiya klassik psixoanaliz ideyalarına söykənir. Belə ki, şüuraltında əmələ gələn fikirlər və narahatlıqlar verbal deyil, obraz və simvollar formasında biruzə olunur. Art terapevtik obrazlar şüuraltı prosesin bütün formalarını əks etdirir: qorxular, konfliktlər,uşaqlıq xatirələri və s.

Art terapiya ən cavan metodlardan biridir. 1938 –ci ildə A.Hill tərəfindən vərəm dispanserinin pasiyentləri üzərində tətbiq etmişdir. 1945 ci ildə çap etdirdiyi "Təsviri sənət xəstəliklərə qarşı" kitabı uzun müddət psixiatr və psixoloqların masaüstü kitablarından biri olmuşdu.

Art terapiya emosiyalar üzərində bir eksperimentdir. Gizlənmiş emosional problemləri art terapiya asanlıqla üzə çıxarır. Bəzən bir şəkil min sözü əvəz edir Yaşanmışlar kağız üzərində,simvollar şəklində ifadə olunur. Art terapiyanın əsas işi ,təsvir olunan simvolları açmaqdır. Bunun üçünsə qrafoanalizi bilmək vacibdir.

Aqressiv yeniyetmələr ilə aparılan art terapiya işinin bir sıra xüsusiyyətləri var:

1.qeyri direktiv yanaşma olmalıdır

2.vaxt sərhədlərinin dəyişdirilməsinə icazə verilir.

3.qəbula vaxtlı vaxtında gəlmək məcburi deyil

4. tez zamanda nəticə əldə ediləcəyini gözləmək lazım deyil

Art terapiyanın yeniyetmə aqressiyanın korreksiyasında geniş imkanları var. Sadə metod sayılan art terapiya yeniyetmələrdə gərginliklərindən azad olmağa kömək olur. Yeniyetmələr heç nəyi nəzərə almadan fikirlərini çəkdikləri rəsmdə əks

etdirirlər. Art terapiyada qrup və fərdi iş, müxtəlif metodlarla aparılır. Həmçinin müəyyən etmək lazımdır ki,aqressiya hansı faktorlardan asılıdır.

Bundan əlavə xüsusilə aqressiv yeniyetmələrlə iş üçün bəzi materialları əlavə etmək olar, məs. məftil.

Məftil – sərtdir, istədiyiniz kimi əymək olar və s. Aqressiv yeniyetmələrin ən sevimli materiallarəndan biridir Məftil onların hallarını əks etdirir,sərt,təhlükəli və s. Məftildəm müxtəlif fiqurlar düzəldirlər, fiqurlar alınmadıqda məftili açıb, yenidın istədikləri formaya sala bilirlər. Fiqurlar alındıqca işlərindən həzz almağa başlayırlar. Onlar özlərinin də dəyişdiklərini, sanki ilişib qaldıqları” tikanlı məftilin kənarına çıxmağı” bacardıqlarını bildirirlər.

Ən yaxşı material gildir.Yeniyetmələr bildirirlər ki, kirli “palçıq”gözəl bir əşyaya, dolça, fincan, səhəng,maskaya, heykələ çevrilir. Bu da “mən bacardım”, deməkdir”. Mən”in möhkəmlənməsinə kömək edir. Bundan əlavə gili kəsmək, qoparmaq, xırdalamaq, hazırlanmış əşyanı sındırıb, yenidən düzəltməyə başlamaq olar. Gil kin, qəddarlıq, neqativizm hislərini neytrallaşdıra bilir.

Hava şarları –xüsusiyyətləri: yüngül,həcmli,elastik. Şarlar çoxfunksiyalıdır.1-ci daxildəki “uşağı” oyadır, bayram əhval-ruhiyyəsi verir.Sonra isə şişirdilmiş şarlar yaxşı “ inşaat” materialıdır. Yapışqan lent vasitıəsilə qəsrlər,gəmi, gül və s. düzəltmək olur, birgə fəaliyyət, bərabər işləmək imkanı yaradır. Şarlar partlamaq xüsusiyyətinə malikdirlər. Bu aqressiyanın azaldılmasına kömək edir (10 şarı dalbadal şişirib, partlatmaq).

Qəzet, jurnal, plakat-aqressiv yeniyetmələrlə işdə ilk yardımçılardan sayılır.

Rəsm terapiya –burda rənglərdən, qələmin bərk və ya asta basılmağından, çəkilən rəsmin yerindən, ölçüsündən, rəsmdə təsvir olunan obrazların çəkilmə ardıcıllığından aqressiyanın səviyyəsini, obyektini müəyyən etmək olar.

**Ədəbiyyat**
1.Под ред. Н. М. Платоновой. СПб.:Речь, 2006. Агрессия у детей и подростков: Учебное пособие
2.A.Vegner .Psixoloji rəsm testləri-2020
3.https://scienceforum.ru/2020/article/2018023106
4.Практика арт-терапии: подходы, диагностика, система занятий Л. Д. Лебедева 2003

## ƏR-ARVAD ARASINDA MEYDANA GƏLƏN KONFİLİKTLƏRİN SƏBƏBLƏRİ VƏ HƏLLİ YOLLARI

***Paşayeva Ayşən İntiqam qızı***
***Bakı dövlət Universitetinin II kurs magistrantı***

Ailə cəmiyyətin özəyi, fərdin dünyaya gədiyi, tərbiyə aldığı, bir şəxsiyyət kimi formalaşmasına təsir edən ilkin mühitin yarandığı kiçik sosial qrupdur. Ailə- evliliklə başlayan, bir-birilərinə təsir edən, əsasən eyni evdə yaşayan fərdlərdən ibarət, tərəflərin cinsi, psixoloji, sosial, mədəni və iqtisadi ehtiyaclarını təmin edən, yaşadığımız cəmiyyətə uyğun, əsas birlikdir. [3]

Bəşər cəmiyyəti öz mədəniyyətini, inkişafını, əxlaqi normalarını, dəyərlər sisemini və.s ailə vasitəsilə nəsildən nəsilə ötürə bilir. Təbii ki, ailəni münaqişələrdən, böhranlardan, konfiliktlərdən kənar təsəvvür etmək qeyri-mümkündür. Konfilikt- cəmiyyətdəki insan və ya qruplar arasında meydana gələn anlaşılmazlıqlar, uyğunsuzluqlar, münaqişələrdir. Konfliktlər zamanı hər iki tərəf psixoloji gərginlik yaşayır, lakin şəxsi konfliktlərin psixoloji fəsadları adətən rəsmi konfliktlərin fəsadlarına nisbətən daha ağır olur. Şəxsi konfliktlərin əsasını ailə konfliktləri təşkil edir. Ailə konfliktləri içərisində ən populyar olanı ər-arvad arasında olan konfiliktlərdir. Ər-arvad arasında konfilikt-tərəflərdən birinin istək və tələblərinin digəri tərəfindən

əngəllənməsi olaraq göstərilə bilər. Tərəflər arasında bir-birinə zidd  və uyğun olmayan ehtiyac, məqsəd və gözləntilərin olması onlar arasında konfiliktlərin yaranmasına gətirib çıxara bilər. Ər-arvad arasında meydana gələn bu konfiliktlər təbii hal olaraq bütün ailələrdə baş verir və təkraralanır. Əsas məsələ tərəflər arasında bu konfiliktlərin həll ollarının tapılmasıdır. Ailə meydana gələn konfiliktlər həm onun daxilində, həm də ailənin funksiyalarında pozuntularına yaranmasına gətirib çıxarır. Həll olunmayan konfiliktlər bu ailədə sağlamlıq problemlərinə, psixoloji sarsıntılara və davranışda kənaraçıxmalara səbəb olur.

Şəhərləşmə, sənayeləşmə, texnoloji inqilab və qloballaşma kimi sosial-iqtisadi  səbəblər müasir dövrdə ailə münasibətlərini əsaslı şəkildə dəyişdirir. Cəmiyyətdə baş verən müasirləşmə ilə yanaşı ailə, mədəniyyət, ünsiyyət və dəyərlər sistemində, təhsil sistemində baş verən yenilənmə səsbləri ilə bağlı olaraq ailə də bugünkü gün öz transformasiya dövrünə qədəm qoyub. Ailənin formasında, növündə, quruluşunda və funksiyalarında çoxlu mütəşəkkil dəyişikliklər olmuşdur.

Mübahisəsiz, konfliktsiz ailə təsəvvür etmək mümkün deyil. Buna baxmayaraq 30, 40, 50 il davam edən çox ailələr vardır. Kersten evlilik problemləri yaşayan ailələrlə etdiyi genişmiqyaslı görüşlərdən sonra tərəflərin konflikt zamanı 3 mərhələdən keçiyini göstərmişdir:[2]

Birinci mərhələ - tərəflərin bir-birinin gözləntilərini yerinə yetirməməsi və bu səbəbdən bir-birlərini səhv dəyərləndirməsi;

İkinci mərhələ - ər-arvad evliliyin onlara gətirdiyi qazancları və itirdikləri şeyləri qiymətləndirməsi. Bu vaxt tərəflər evliliyi davam etdirmə və ayrılma qərarı arasında qalır;

Üçüncü mərhələ - tərəflərin bir-birindən qaçması və fiziki olaraq bir-birilərindən uzaqlaşması kimi davranışlar göstərirlər;

Ər-arvad arasında yaranan konfiliktlərin səbəbləri psixoloji ədəbiyyatda yekdil olaraq mövcud deyil. Onlardan birinə nəzər salaq:

- Kişi- qadın münasibətlərindən qaynaqlanan psixo-sosial problemlər
- Birlikdə yaşayışa istiqamətlənən sosial-iqtisadi problemlər
- Ana-ata və uşaqlarla, ana-ata qohumları ilə bağlı problemlər
- ər-arvad arasında cinsi həyatla bağlı olan problemlər

Tərəflər arasındakı psixo-sosial problemlərə adət-ənənə, inanc, əxlaqi normalar, ictimai dəyərlər arasında olan fərqlər daxildir. Ər-arvadın yeməyi, yası, şənliyi, geyimləri fərli olduqca konfiliktlər mmeydana çıxır.

Sosial-iqtisadi problemlərə ailənin maddi təmin olunub-olunmaması, emosianal və psixoloji ehtiyacların ödənilməməsində təzahür edir. Ailəəd ərin işləyən tək adam olması, içki, qumar kimi pis vərdişlərinin olması konfiliktin əsas səbəblərindəndir.

Üçüncü qrup problemlərə ailədə ana-ata ilə uşaqlar, qaynana və gəlin (kürəkən) arasında olan ədavət, digər qohumlarla olan problemlər daxildir. Nəsillər arasında fərqli dünyagörüşünün olması, həyatı fərqli dəyərləndirmə meyarlarının olması konfikitin başlıca səbəbidir.

Ər-arvad arasında cinsi mövzuda problemlərin olması münasibətlərin ən məhrəm tərəfidir. Danılmaz faktdır ki, bu mövzuda olan problemlər, cinsi istəyin təmin olunmaması da ailədə konfilikt səbəbidir.

Ər-arvad arasında konfiliktlərin həll yollarına aşağıdakıları göstərə bilərik:[1]

Sürətli sosial və texnoloji inkişafın mənfi təsirləri ailə münsibətlərinə fəsadsız ötüşmür. Birinci olaraq tərəflər arasında bununla bağlı meydana gələn konfiliktlərin quruluşu, səbəb və nəticələrini analiz edəcək yeni strategiyaların yaranmasıdır;

Ailəyə mənfi yöndə təsir edəcək vəziyyətlərə qarşı sosial dövlət tərəfindənprofessional işlər edərək vəziyyətin yaxşılaşaması üçün sisyasətin tətbiq edilməsi;

Evlilikdə konfilikt şəraəitində yaşayan tərəflərin asanlıqla həll yolu tapma ehtimalıın az olmasını nəzər alaraq asan əlaqə qurula biləcək ailə məsləhət mərkəzlərinin genişləndirilməsi və funksiyalarının artırılması;

Konfiliktlərin boşanma həddinə gətirib çıxarmaması üçün ər-arvadın psixoloqlardan problemin həlli üçün məsləhət alması yolunda maarifləndirmənin aparılması;

Ər-arvadın yaşadığı konfilikltlərin əsas səbibi onların evlilik həyatı haqqında az məlumata sahib olmalarıdır. Belə ailələrə evlilikdən əvvə və evlilik dönəmində evlilik təlimləri verilməli və məlumatlandırılmalıdırlar. Bu təlimlərin nəticələri də müəyyən müddət aralıqla yoxlanmalıdır ki, effektivlik təmin olunsun.

Konfiliktsiz ailənin təməli empatiya, qarşılıqlı anlayış və hörmətdir. Xoşbəxt ailə hər mövzuda ortaq qərara gələ bilən fərdlər deyil, fikir ayrılıqlarında ortaq məxrəcə gələ bilən fərdlərin qurduğu ailədir.

**Ədəbiyyat:**

1.Yusuf Genç – Seda Veli Baki. Eşler arasında çatışmaya neden olan faktörler. Turkish Studies. İnternational Periodical for the Languages, Literature and History of Turkish or Turkic Volume 12/21

2.Kersten, K.K. (1990). The process of marital disafection: Interventions at various Stages. Family Relations 39 (3).

3.Özgüven, İ. E. (2001). “Ailede İletişim Ve Yaşam”. Ankara: Pdrem Yayınları

# KİÇİK YAŞLI UŞAQLARIN İNKİŞAFINDA OYUNUN ROLU

*Həsənova Aytəkin İlqar qızı*
***BDU-nun II kurs magistrantı***

Uşaqların həyatının ilk illərində fiziki və psixi, idraki, sosial, kommunikativ, estetik inkişafın düzgün təşkilində, həmçinin uşaqların məktəbə hazırlanmasında oyunların böyük əhəmiyyəti vardır. Oyun uşaq fəaliyyətinin çox vacib və ciddi vasitələrindən biri olmaqla onun hərtərəfli inkişafına və didaktik məqsədlərə xidmət edir. Oyun uşağı bir şəxsiyyət kimi formalaşdırır. Oynamayan uşaq inkişaf edə bilməz. Oyun uşağın həyati tələbatıdır. Oyun uşağı bir şəxsiyyət kimi formalaşdırır.

Oyun zehni fəaliyyəti inkişaf etdirməklə uşaq qabiliyyətinin bütün növlərinin formalaşmasına müsbət təsir göstərir. Oyun zamanı uşaqların ətraf aləm haqqında anlayışları zənginləşir. Oyun vasitəsilə uşaqlarda dostluq, vətənpərvərlik, əməksevərlik kimi müsbət xarakter keyfiyyətləri formalaşır. Bu baxımdan oyunun müsbət tərbiyəvi əhəmiyyəti vardır.

Uşağın gələcək müvəffəqiyyətinin əsasları kiçik yaşlardan qoyulur. Məktəbəqədər yaş dövründə oyun fəaliyyəti aparıcı fəaliyyət növüdür. Uşaqlarda formalaşdırmaq istədiyimiz keyfiyyəti oyun vasitəsilə həyata keçirə bilərik.

K.D.Uşinski uşağın oyun fəaliyyətini belə şərh edirdi: "Uşaq üçün həqiqi həyat çox mürəkkəbdir, o, burada heç bir müstəqilliyə malik deyildir. Oyunda isə o, öz qüvvəsini tətbiq edir, yoxlayır. O, öz yaratdığı üzərində müstəqil olaraq hakimlik edir".

K.D.Uşinski qeyd edirdi ki, oyun izsiz keçmir, o, cəmiyyətdəki adamların xarakterini, davranışını özündə əks etdirir. O, birgə keçirilən oyunu daha yüksək qiymətləndirir, onun ictimai münasibətləri əks etdirdiyini qeyd edirdi. Bununla

yanaşı, Uşinski müstəqil həyata keçirilən oyunlara da diqqətlə yanaşır, belə oyunlara rəhbərlik, ona əxlaqi istiqamət verilməsini zəruri bilirdi. P.F.Lesqaft qeyd edirdi ki, oyun uşaqları həyata hazırlayır. Onun pedaqoji görüşlərində fiziki tərbiyə mühüm yer tuturdu. O, hərəki oyunlara daha çox üstünlük verirdi. Oyun prosesində uşaqlar ictimai həyata hazırlanır. Bu cəhətdən xalq oyunlarının təsir qüvvəsi daha güclü olur .

Məlumdur ki, kiçik məktəbyaşlı məktəblilər fiziki cəhətdən o qədər də möhkəm olmurlar. Onların ürək-damar və sinir sistemi, dayaq hərəkət aparatı, tənəffüs, görmə və eşitmə üzvləri formalaşmış olmur. Ona görə də kiçik yaşdan başlayaraq həmin üzvlərin, sistemlərin inkişaf etdirilməsində, onların funksional fəaliyyətinin artırılmasına xüsusi ehtiyac vardır. Oyun isə uşağın sağlamlığını, fiziki hazırlığını, inkişafını təmin edən, orqanizmin həyat fəaliyyətini artıran mühüm vasitələrdəndir.

Oyun yalnız uşaqların fiziki hazırlığına deyil, o, həm də estetik zövrün yaranmasına, hisslərin inkişafına kömək edir ki, bu da baş beynin ali hisslərinin fəaliyyətini gücləndirir. Oyun uşaqların əhvali-ruhiyyəsini yaxşılaşdırır, emosionallığını artırır. Bütün bunlar isə fiziki hərəkətlərin düzgün icrasına, verilən tapşırıqların yerinə yetirilməsinə musbət təsir göstərir.

Görkəmli pedaqoq A.S.Makarenko "Tərbiyə haqqında mühazirələr" kitabında oyunun uşağın həyatındakı mövqeyini belə qiymətləndirir. O, yazır: "Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq nə kimi əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun o qədər vacib və əhəmiyyətlidir. Uşaq oyunda necədirsə, böyüyəndən sonra işdə də bir çox cəhətdən elə olacaqdır. Ona görə də gələcək xadimin tərbiyəsi hər şeydən əvvəl oyun prosesində keçir".

A.S.Makarenko oyunla işin arasında o qədər də fərq olmadığını göstərir: "Yaxşı oyun yaxşı işə bənzəyir, pis oyun pis işə bənzəyir. Bu bənzəyiş çox böyükdür: cəsarətlə demək olar ki, pis iş yaxşı işdən daha artıq pis oyuna oxşayır". O,

uşaqlıq illəri üçün oynamağı normal hesab edərək, uşaqlarda oyuna olan həvəsi təmin etmək vacib olduğunu həmişə vurğulayırdı. O, qeyd edirdi: uşağa "…nəinki oynamaq üçün vaxt vermək, hətta oyunu onun bütün həyatına nüfuz etdirmək lazımdır". Bundan əlavə, oyun uşaqda kollektivçilik, dostluq, təşəbbüskarlıq, qoçaqlıq, dözümlülük və vətənpərvərlik kimi ən yüksək əxlaqi keyfiyyətləri aşılayır. Görkəmli pedaqoq A.S.Makarenko uşaqların inkişafında oyunun çox böyük rol oynadığını qeyd edərək, oyunu yaşlıların həyatında əməyin oynadığı rola bərabər hesab edir.

Uşaq oynayaraq öyrənir, onun həyata münasibəti, baxışları tədricən dəyişir, inkişaf edir. Oyun uşaqların yaşadıqları və dəyişməli olduqları aləmi dərketmə vasitəsidir. Oyun bir fəaliyyət növü olmaqla uşağın yetişməsində, fiziki, əqli və əxlaqi inkişafında müstəsna əhəmiyyətə malikdir. Oyun vasitəsilə uşaq müəyyən bacarıq və vərdişlərə yiyələnir, həm də müstəqil nəticə çıxarmağa məcbur olur. Onun həyata münasibəti, baxışları dəyişir, inkişaf edir.

Y.A.Komenski oyunun uşaqların şən olması və onların hərtərəfli inkişafına müsbət təsirini nəzərə alaraq, böyüklərin uşaq oyunlarına diqqətlə yanaşmasını, ağıllı rəhbərlik etməsini məsləhət görürdü.

F.Frebelə görə, oyun uşaqların tərbiyəsində mühüm rol oynayır, onların fiziki inkişafına, nitqinin formalaşmasına, təfəkker və təsəvvürlərin qaydaya düşməsinə çox kömək edir. Buna görə oyun uşaq bağçasında əvəzedilməz tərbiyə vasitəsidir.

Oyunlar qaydalı və qaydasız olur. Yaradıcı oyunlar uşaqlar tərəfindən yaradılan qaydasız oyunlardır.

Qaydalı oyunlar uşaqların davranışlarını idarə etmək qabiliyyətini artırır, onların impulsivliyini azaldır və bununla da xarakterin formalaşmasına yardım edir. Qaydalı oyunlara *didaktik, mütəhərrik,* və *rollu oyunlar* aid edilir. Doyunca

qaydalı oyunlar oynamış uşaqların məktəb intizamına uyğunlaşması daha rahat gedir.

Didaktik oyunlar şərti olaraq 3 növə ayrılır: oyuncaqla (müxtəlif əşya) ilə oynanan oyunlar, şifahi və ya sözlü (tapmaca) oyunlar, loto (cüt şəkilli kart) oyunlar. Dərs zamanı didaktik oyunlardan istifadə uşaqlarda yaddaş, diqqət və təfəkkürün inkişafına kömək edir.

Rollu oyun oynayarkən şagird hər hansı bir obrazı canlandırır, öz təəssüratlarını üzə çıxarır. Oyun vəziyyətinin xəyal olduğunu anlayan uşaqlar buna baxmayaraq, olduqca real hisslər və təcrübələr yaşayır və bununla da daxili dünyalarını zənginləşdirirlər. Psixoloqlar hesab edirlər ki, rollu oyun uşaq oyunlarının inkişafının ən yüksək formasıdır. Rollu oyun uşaqların idraki inkişafında böyük əhəmiyyət kəsb edir, onlarda diqqəti və yaddaşı inkişaf etdirir. Tərəfdaşlar ilə birgə oyun zamanı uşaqlar ünsiyyət qurmağı, başqalarının istək və fəaliyyətlərini nəzərə almağı, fikirlərini müdafiə etməyi, təkid etmə qabiliyyətini, həmçinin birgə planlar hazırlamağı və həyata keçirməyi öyrənirlər. Müxtəlif rolları yerinə yetirərkən, uşaq müxtəlif fəaliyyətlərin bütün aspektlərini əhatə etməyə başlayır ki, bu da öz növbəsində insanın düşüncə qabiliyyətini inkişaf etdirməyə, başqasının fikrini qəbul etməyə kömək edir.

Oyunların bu müxtəlifliyi fərqli məqsəd daşıyan fənlərin tədrisini şagirdlər üçün daha maraqlı və cəlbedici etməyə imkan yaradır.

**Ədəbiyyat:**

1.Məmmədova A.T., Kərimova S.A. Məktəbəqədər yaşlı uşaqların oyunları. Bakı: SDU, 2018

2.Sadıqova T.B. Uşaqların məktəb təliminə hazırlanmaları prosesində didaktik oyunlardan istifadənin imkan və yolları // Pedaqogika üzrə fəlsəfə dokroru dissertasyası. Bakı, 2006.

# EMOSİONAL YANMA SİNDROMU PSİXOLOJİ FENOMEN KİMİ

***Cəlilova Aisa Əbülfət qızı***
***BDU-nun II kurs magistrantı***

Emosional yanma və ya tükənmişlik işçi insanların gördükləri işin öz məqsədlərindən yayınması, bununla bağlı olaraq göstərdikləri xidmətin keyfiyyətinin aşağı səviyyəyə düşməsi və motivasiyalarının itkisi ilə özünü göstərən fiziki və psixoloji yönləri olan bir konsepsiyadır.

İş yerində və ya evdə çox işləmək, iş statusunun uzun müddət eyni olması, ailədə və ya iş yerində yaranan konfliktlər, pozulmuş münasibətlər, qarşıya qoyulmuş məqsədə çatmaq üçün həddindən artıq özünü yükləmək, xəstə bir ailə üzvünə qulluq etmək, siyasi və ya sosial təhlükəsizliklə bağlı narahatçılıq doğuran xəbərləri tez-tez eşitmək və s. kimi hallar tükənməyə səbəb ola bilər.

Ədəbiyyatlarda tükənmişlik fenomenini ifadə etmək üçün tükənmişlik sindromu, emosional yanma sindromu və s. terminlərindən istifadə edilmişdir.

Tükənmişlik emosional sferaya yüksək tələblər qoyan situasiyada uzun müddət iştirak nəticəsində yaranan fiziki, emosional və əqli tükənmə vəziyyətidir. İnsanın özünə, işinə və ümumən həyatına mənfi münasibətinin inkişafı kimi qəbul edilir.

Bu sindrom tibbi olaraq qəbul edilən bir diaqnoz deyildir. Emosional yanma sindromundan ilk dəfə 1961-ci ildə Greenin nəşr etdirdiyi "Emosional Yanma Hadisəsi" adlı romanında bəhs edilmişdir. Daha sonra isə 1964-cü ildə alman psixoloq Freudenberger tərəfindən 'iş həyatında yaşanmış tükənmə, müvəffəqiyyətsizlik, enerji və istəyin azalması və ödənə bilməyən tələbatların yaratdığı yükə bağlı olaraq şəxsin daxilində tükənmə yaşaması halı" kimi xarakterizə

olunmuşdur. Tükənmişlik anlayışı sonrakı dövrlərdə də C.Maslach, Jackson, V.Boyko, A.Pines, E.Aronson kimi müxtəlif müəlliflər tərəfindən ifadə olunmuşdur. [1]

Müasir dövrümüzün çox vacib fenomeni olaraq emosional yanma konsepsiyası Amerika Birləşmiş Ştatlarında 1970-ci illərdə insan resurslarında işləyənlər tərəfindən fərdin öz peşəsi ilə qurduğu münasibətdə qarşılaşdığı çətinlikləri izah etmək məqsədi ilə istifadə etməyə başlanılmışdır.

Bir çox müəlliflərin fikrincə, insanlar təkcə müxtəlif peşə qruplarında deyil, işdən kənarda da tükənməyə meyllidirlər.

Boyko bu vəziyyəti travmatik təsirlərə cavab olaraq emosiyaların aşağı salınması ilə şəxsiyyətin inkişaf etdirdiyi psixoloji müdafiə mexanizmi kimi ifadə edirdi. Bu baxımdan tükənmişlik insana enerji ehtiyatlarını qənaətlə xərcləməyə imkan verən emosional davranış streotipidir. O, qeyd edir ki tükənmişlik sindromunun nəticələri peşəkar fəaliyyətin yerinə yetirilməsinə, tərəfdaşlarla münasibətə mənfi təsir göstərir. Həmçinin şəxsiyyətin deformasiyasına da səbəb olur.

Fərqli sahələrdə çalışan mütəxəssislər öz işlərində yaşadıqları stressə müxtəlif reaksiya verə bilərlər. Bu reaksiyaları 3 əsas qrupda birləşdirmək olar: işlə əlaqəli stress, işdən bezmək, tükənmək. İşlə əlaqədar stress hər peşədə müşahidə oluna bilər. Lakin tükənmişlik anlayışının yorğunluq anlayışından fərqlənir.

Tükənmişlik sindromuna daha çox birbaşa insanlara xidmət edən və kömək məqsədi daşıyan həkim, tibb bacısı, müəllimlik, psixoloq, polis və s. peşələrdə daha çox rast gəlinir. [4]

İnsan özünü iş yerində xoşbəxt hiss etməsə də işdən kənarda olarkən rahat hiss edə bilər. Lakin işdə olan uğursuzluq və ya narahatçılıq hissi bir müddət sonra fərdin işdən sonrakı həyatına da təsir edir. Depressiyada olan bir insanın tükənmişlik yaşama ehtimalı daha güclüdür. Eyni

zamanda tükənmişliyin artması və digər neqativ hadisələrlə birləşməsinin özü də insanı depressiyaya sala bilər.

Daha çox kariyera ilə əlaqəli olaraq yaranan tükənmişlik sindromu həmçinin uşaqlara, xəstələrə, qocalara qulluq edən şəxslərdə də tez-tez müşahidə olunan yorğunluq halıdır. Son elmi araşdırmalar ana və ataların da həkimlər və ya digər işçilər kimi tükənmişlikdən təsirlənə biləcəyini müəyyən etmişdir. [5] Bu sindromdan təsirlənən bir fərddə görülən əlamətlərin ilk sırasında yorğunluq dayanır. Bu cür yorğunluq insanın fiziki və emosional olaraq tükənmiş hiss etməsinə səbəb olur və onun fiziki simptomları baş və qarın ağrısı, iştah və yuxu rejiminin pozulmasıdır.

Tükənmişlik sindromu olan insanlar özlərini yetərsiz hiss edirlər və bunun nəticəsi olaraq onların sosiallaşması çətinləşir, dostlarına, ailə üzvlərinə, iş yoldaşlarına güvənməməyə başlayırlar. Həyatın bitməyən tələblərindən narahat olan və tükənmişlik yaşayan fərdlər olduqları yerdən qaçmağı, təkbaşına tətilə getməyi daha çox xəyal edirlər. Ağır tükənmişlik halı psixosomatik pozğunluqlara, ailə və evlilik həyatında problemlərə, yuxusuzluğa, alkoqol və maddə istifadəsinə səbəb ola bilər.

Digər uzunmüddətli stress növləri kimi emosional tükənmişlik sindromu da bir insanın immunitet sistemini zəiflədə və soyuqdəymə, qrip, yuxusuzluq kimi halların artmasına, psixi sağlamlıqla bağlı problemlərin yaranmasına səbəb ola bilər.

Sindromun əlamətləri daha da ağır səviyyəyə çatdıqda fərddə narahatlıq və ya boşluq hissi yaranır. Onların bu narahatlıq hissi ilə mübarizə aparmaq üçün narkotik maddə, alkoqoldan istifadə etməsi, qumar oynamaq və ya həddindən artıq yemək yeməsi müşahidə edilmişdir.

Vaxt keçdikcə fərd depressiyaya düşür, onun üçün həyat mənasını itirir və özünü ümidsiz hiss etməyə başlayır.

Tükənmişlik sindromunun aradan qaldırılması elə də asan deyildir. İnsan həyatında işdən əlavə başqa sahələrin olması lazım olduğunu anlasa da, onlara vaxt tapa bilmir.

Stressli zamanlarda insanların öz yaxınlarından yardım istəməsi vacibdir. Ətrafdan gələn dəstək stress və tükənmişliyə qarşı ən güclü silahlardan biridir.

Tükənmiş bir insanın bu vəziyyətdən qurtulmasına kömək etmək elə də asan olmasa da, ona dəstək təklif etmək emosional yükünü yüngülləşdirməyə kömək olur. Vəziyyəti düzəltməyə cəhd etməzdən əvvəl fərdin çətinliklərini dinləməyi təklif etmək lazımdır. Problemlərini bölüşə biləcəyi bir insanın olması ona daha yaxşı təsir edəcək.

Ümumiyyətlə normal həyatda stressdən qaçmaq qeyri mümkündür. Lakin vaxtında atılan düzgün addımlar sayəsində stressin tükənmişlik sindromuna çevrilməsinin qarşısını almaq olar. Emosional tükənmişlik sindromu ilə onun ilk əlamətləri nəzərə çarpan kimi mübarizə aparmaq lazımdır. Əks təqdirdə vəziyyət ağırlaşır və psixoloqun köməyi olmadan keçinmək çətin olur.

Tükənmiş insan bir qayda olaraq sindromun ilkin əlamətlərindən xəbərsiz olduğundan onun davranışındakı dəyişiklikləri ilk görənlər onun həmkarları, ətrafında olan yaxın insanlardır. Bu cür təzahürləri vaxtında görmək və onlar üçün dəstək sistemini düzgün təşkil etmək çox vacibdir. Sözsüz ki, xəstəliyin qarşısını almaq onu müalicə etməkdən daha asan olacaqdır. Buna görə də bu sindromun inkişafına səbəb olan amillərin müəyyən edilməsinə və profilaktik proqramlar hazırlanarkən nəzərə alınmasına xüsusi diqqət yetirilməlidir.

**Ədəbiyyat:**

1.Водопьянова Н., Старченкова Е., Синдром выгорания, СПб 2008.

2.Грабе М. Синдром выгорания болезнь нашего времени СПб 2008.

3.Akçamete G., Kaner S., Sucuoğlu B. (2001). Ögretmenlerde yükenmişlik iş doyumu ve kişilik. Ankara: Nobel.
4.Işıkhan V. Çalışanlarda tükenmişlik sendromu.
5.https://kayzen.az/blog/psixologiya/20052/emosional-yanma-sindromu.html

## ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Piriyeva Elnarə Abbas qızı***
***BDU, Sosial və pedaqoji psixologiya kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru***
***Hüseynova Nurlana Anar qızı***
***BDU-nun II kurs magistrantı***

Qarşılıqlı münasibətlər insanlar arasında müəyyən bir fəaliyyət nəticəsində yaranan çoxşaxəli bir prosesdir.Bunun nəticəsi olaraq insanların bir birlərinə qarşı müəyyən subyektiv hisslər əsnasında şəxsiyyətlərarası münasibətlər formalaşır. Bu münasibətlərin araşdırılması istiqamətində bir sıra alimlər tədqiqatlar aparmışlar. Bunlar arasında ən uğurlu araşdırmalar R. Brown, G.Levitt, R. Likert kimi bir sıra digər alimlərə məxsusdur ki, onlar bu sferada müəyyən nəticələrə nail olmuşlar. B.G.Ananiyev, G.M.Andreyeva, V.M.Bexteryev kimi bir sıra elm adamları da şəxsiyyətlərarası qarşılıqlı əlaqələrin və problemlərin yaranması tədqiqatlarını aparıblar. G.Moreno tərəfindən hazırlanan sosiometrik texnika şəxsiyyətlərarası və qruplararası münasibətlərin yaranması, dəyişdirilməsi və təkmilləşdirilməsinin diaqnostikasında həyata keçirilir. Psixologiyada insanlar arasındakı əlaqələr şəxsiyyətlərarası və qruplararası olmaqla iki yerə ayrılır. İctimai münasibətlər fərdlər və sosial qruplar arasında iqtisadi, siyasi və digər əlaqələri nəzərdə tutur [2].

Şəxsiyyətlərarası münasibətlər qarşılıqlı təəssürat və insanların bir-birini necə anlamasından ibarətdir.

Bu qavrayış fərdlərin bir-birində yaratdığı təəssüratlar və qiymətləndirdiyi müxtəlif stereotiplər sistemindən ibarətdir. Ilk təəsürat isə fərdin anatomik, funksional və digər sosial xüsusiyyətlərinin məcmusunu əks etdirir. Bu xüsusiyyətlər hər nə qədər vəhdətdə olsalar da idrak prosesində ilk olaraq sosial xüsusiyyətlər önə keçir. Bunun ən bariz nümunəsi olaraq misal göstərə bilərik ki, qarşımıza kimsə çıxanda ilk olaraq o kimdir? sualını veririk və beləcə insanın sosial dərəcəsini müəyyənləşdiririk.

Şəxsiyyətlərarası əlaqələrdə psixoloji amillərlə yanaşı həm də subyektiv amillər münasibətlər sistemində özünəxas şəkildə təzahür edir. Elə bu səbəbdən qarşımızdakı fərdin subyektiv fikri hər zaman maraq dairəmizdə olur və onun müəyyən məsələlərdə mövqeyini öyənməyə çalışırıq. Bu proses isə müxtəlif vasitələrin köməkliyi ilə həyata keçirilir. Beləliklə, münasibət qurulan şəxsin kimliyi, hansı hisslərlə ətrafdakılara yanaşması, ictimaiyyətdəki rolu kimi bir sıra məsəslələrə aydınlıq gətirilir.

Təsnifata diqqət yetirəsi olsaq görərik ki, şəxsiyyətlərarası münasibətlərin sosial psixologiyada bir neçə növü müəyyənləşir. Şəxsi, rəsmi, işgüzar , qeyri-rəsmi və s. kimi növlər məhz şəxsiyyətlərarası münasibətlərin sosial psixoloji təsnifatını təşkil edir. Bu münasibətlərdən bir neçəsinin açıqlamasına diqqət yetirsək görərik ki, rəsmi münasibətlər dedikdə elə adından da göründüyü kimi fərdlər arasında münasibətlər uyğun sənəd və normalar əsnasında aparılır. Bu cür əlaqələr adətən rəhbər və işçilər arasında olur. Fərdlər arasındakı münasibətlər rəsmiyyətə dayanır və qarşılıqlı münasibətlərdən kənara çıxılmır. Bu qruplarda hər kəs öz fəaliyyətində səlahiyyətləri daxilində hərəkət edir [2].

Qeyri-rəsmi münasibətlər insanların bir – birinə daha səmimi bağlarla əlaqələndiyi münasibətlərdir və daha çox şəxsi

münasibətlərə dayanır desək yanılmarıq. Bu cür münasibətlər əsasən, subyektiv xarakter daşıyır və insanların bir-birinə qarşı hissləri əsnasında inkişaf edir.

Sosial psixologiyada şəxsiyyətlərarası münasibətlərin daha bir forması şəxsi münasibətlərdir. Şəxsi münasibətlərin özü bir neçə aspektdə inkişaf edərək müxtəlif tipləri yaradır. Bu sahəni araşdıran elm adamlarının gəldiyi qənaət budur ki, şəxsi münasibətlərin fonunda insanların bir-birlərinə qarşı hissləri dayanır və bu bağlılıqlar emosionallıq zəmnində yaranır. Şəxsi münasibətlər zəmnində yaranan və ən geniş yayılan fərdlərarası münasibətlərdən biri məhz tanışlıqlardır. Tanışlıq mövzusuna diqqət yetirərkən bu zaman daha bir neçə psixoloji aspekt vardır ki, bunlar da insanlar arasındakı münasibətlərə təsir edən birbaşa amillərdəndir. Insanlar tanışlıq münasibətlərini belə bir sıra tiplərlə səciyyələndirirlər ki, bunun da üç tipini qeyd edə bilərik. Bunlardan birincisi qarşımızdakı insanı sadəcə üzdən tanımaqla kifayətlənməkdir, ikincisi, yalnız qarşılıqlı münasibətdə olduqlarımızla salamlaşma dərəcəsində tanışlıqıdr. Sonuncu səciyyələndirdiyimiz münasibət növü isə tanışlarımız dediyimiz insanlarla salamlaşır və ortaq mövzularımız haqda müzakirələr edə bilirik. Tanışlıq mövzuları zamanı xüsusən vurğulaya bilərik ki, bu zaman fərdlər arasında hansısa hisslərin olması elə də əhəmiyyət kəsb etmir.

Şəxsi münasibətlər zəmnində səciyyələndirdiyimiz digər psixoloji amillərdən biri insanlarla yoldaşlıq münasibətlərinin qurulmasıdır. Bu münasibətlər demək olar ki, işgüzar təmasa əsaslanır. Burada insanların birgə çalışması zamanı fəalyyətlərinin müəyyən məqsədi, onlar arasında təyin edilən vəzifə bölgüsü kimi bir sıra amillərə əhəmiyyət kəsb edir. Burada məqsədə doğu gedərkən vasitə və nəticələrin ortaq mövqe təşkil etməsi mühüm amillərdəndir.

Dostluq münasibətləri yuxarıda sadaladıqlarımdan psixoloji olaraq bir – birinə qarşı daha çox bağlılıq hiss edən

insanların bir arada olmasıdır. Dostluq münasibətləri ilə bir-birinə bağlı olan insanlar arasında qarşılıqlı mənəvi yaxınlıq , ortaq maraqlar üstünlük təşkil edir. Öz tədqiqatlarında Ə.S.Bayramov və Ə.Ə.Əlizadə qeyd edir ki, qarşılıqlı münasibətlərin hər birində psixoloji məsafələr böyük əhəmiyyət kəsb edir. Məsələn, ailə daxilində tərəflər arasındakı psixoloji məsafələr intim və dostluq çərçivəsində münasibətlərlə formalaşır. Şəxsi zəmində olan münasibətləri isə dostluq, tanışlıq yoldaşlıq və sair kimi psixoloji məsafələrlə hüdudlandıra bilərik və bu münasibətlər daha çox sosial münasibətlər zəmnində inkişaf edir [1].

Yuxarıdakı təsnifatımda şəxsiyyətlərarası münasibətlərdən birinin də məhz işgüzar münasibətlər olduğunu bildirdim. Adından da göründüyü kimi işgüzar münasibətlər müəyyən fəaliyyət fonunda yaranır və işlə bağlı əlaqələrin həyata keçirilməsi zamanı reallaşır. Belə münasibətlərin psixologiyası haqda xüsusən onu vurğulamaq lazımdır ki, buradakı ümümi ab-hava bütünlükdə iş prosesinə və işin səmərəliliyinə təsir edir.

Şəxsiyyətlər arası münasibətlərdə bir sıra şərtlər xüsusi əhəmiyyət kəsb edir ki, bunlardan ən əsas insanları birləşdirən fəaliyyət növləri, təhsil, iş, əlaqələrin yaşandığı vəziyyət, məsələn, adi gündəlik və ya hədindən artıq olması, eyni zamanda qrupun cins tərkibi və etnik mühitini göstərmək olar.

Digər tərəfdən yuxarıda qeyd etdiklərimə əlavə olaraq bildirmək istədim ki, psixoloji faktor olaraq insanlarda yaratdığımız təəssürat şəxsiyyətlərarası münasibətlərdə bilavasitə rol oynayır. Yaxşı xüsusiyyətlərlə yanaşı, həm də onlara qarşı göstərilən aqressiya, insanların gözündə günahkar fiquru olmaq da bu münasibətlərin bir hissəsidir və belə hallarda ətrafda pis insan, günahkar insan obrazı yaranır. Beləliklə, şəxsiyyətlərarası münasibətlərdə psixoloji amil olaraq emosionallıq komponentini xüsusi vurğulamaq lazımdır. Məhz bu emosionallıq amili həm kiçik qrupa, həm də öz növbəsində böyük qrupların

formalaşmasında bilavasitə rol oynayır, həmin emosionallıq çərçivəsində hər bir qrup üzvü arasında fərdlərarası münasibətlər inkişaf edir.

**Ədəbiyyat:**

1.Ə.S. Bayramov, Ə.Ə.Əlizadə, Sosial psixologiya, Dərslik, 2003, -356səh.
2.S.İ.Seyidov, M.Ə.Həmzəyev,Ümumi psixologiya,Bakı,2014,-653s.
3.Андреева Г.М., Социальная психология,М: Наука, 1994, 384с.
4.Heider Fritz, Şəxsiyyətlərarası münasibətlər psixologiyası, 1958

## MÜƏLLİM-YENİYETMƏ MÜNASİBƏTİNİN FORMALAŞMASINDA PSİXO-PEDOQOJİ AMİLLƏRİN ROLU

***Abasova Səbinə Baldadaş***
***Bakı Dövlət Universitetinin II kurs magistrantı***

Müəllimin əsas məqsədi məktəbdə həm mənəvi, həm də fiziki cəhətdən sağlam, dinamik sosial şəraitə uğurla uyğunlaşa bilən və fəaliyyət sahəsində özünü reallaşdıra bilən yaradıcı şəxsiyyətin formalaşması üçün real şərait yaratmaqdır. Çox şey dəyişir, amma bir şey dəyişməz olaraq qalır - bunlar təhsil verdiyimiz və öyrətdiyimiz şagirdlərdir. Müəllimin əsas hüququ səmərəli və xoşbəxt şəkildə dərs verməkdir. Şagirdə gedən yol müəllimin ustalığından keçir. Müəllim, əlbəttə ki, psixoloji biliklərə malik olmalı, yeniyetmələri başa düşməlidir, amma bu bilik onun zehni inkişafının göstəricisi olaraq deyil, praktiki fəaliyyətlərdə kömək etmək üçün lazımdır. Zamanımızda, yeniyetmənin psixikasına düşən müxtəlif növ məlumat axını artır [1, s.70]. Yeniyetmə bunu düzgün fərqləndirə bilmir

və buna görə də məsələnin mahiyyətini dərindən araşdırmamağı üstün tutur. Müəllim şagirdlə ünsiyyətin avtoritar yolunu seçərsə avtomatik olaraq inkar obyektinə çevrilir. Sonra avtoritar təzyiqlərə, əmrlərə, icazəsiz göstərişlərə və sübuta yetirilməmiş ifadələrə əsaslanan dərslər çox vaxt yalnız qıcıqlanma və cansıxıcılıq yaradır, hətta problemləri müzakirə etmək marağını da söndürür. Müasir yeniyetmə hər şeydən əvvəl təəccüblənməli, maraqlanmalıdır - sonra onun diqqətini çəkmək mümkündür. Bu keyfiyyətlər hər hansı bir dərsdə olmalıdır, amma ən yaxşısı, bəlkə də bir dərsdə - oyunda qoyulur. Bu sinifdəki tədris və pedaqoji ünsiyyət formalarından biridir.

Uğurlu təhsil fəaliyyətinin şərtlərindən biri də mövzunu öyrənmək marağıdır. Koqnitiv marağın inkişafı, bildiyiniz kimi, dərsdə müxtəlif iş formaları və üsulları, texniki vasitələr və əyani vasitələr sistemindən rasional istifadə ilə asanlaşdırılır. Qeyd etmək lazımdır ki, dərsdənkənar iş şagirdlərin elmi dünyagörüşünün formalaşması, özünütəhsil bacarıqlarının inkişafı, ümumi üfüqlərinin genişləndirilməsi, müəllim və şagirdin dərsdənkənar işin müxtəlif formaları üçün böyük imkanlar yaradır. Dərs müəllimə daha çox yeni nailiyyət yolları və təhsil məqsədləri tapmağa imkan verir [3, s.159]. Şagird yaxşı oxumasa belə, qabiliyyətlərinə inamını itirməməlidir. Əgər özünə, qabiliyyətlərinə inamını itirmişsə, o zaman məktəbin təsirindən çıxacaqdır. Burada müəllimin əsas humanist missiyası, ən bacarıqsız şagirdin işində uğur sevincini yaşamasını təmin etməkdir. Müəllimin müasir şagirdə gedən yolu çox sadə olmasa da, onları öyrətmək və tərbiyə etmək, onları sevindirmək, aşılmaz çətinliklərlə qorxutmamaq lazımdır. Bu çətin yola qədəm qoyanda müəllim öz işində şəxsi zəngin pedaqoji və təhsil iş təcrübəsini, yeniyetmələri yaxşı şagirdlərə çevirmək texnologiyalarını nəzərə almalıdır. Təlim prosesində hər bir müəllim mövzunun xüsusiyyətlərini, mücərrədliyini unutmamalı, şagirdlərdə sinifdə və dərsdənkənar işlərdə dərsə maraq oyatmaq üçün daim çalışmalıdır. Şagirdlə

hər cür iş yaradıcı yanaşma, ciddi və hərtərəfli müəllim hazırlığı tələb edir. Şagirdlərin sistemli sinif və dərsdənkənar işlərini təşkil edən hər bir müəllim, məzmununun sosial baxımdan faydalı istiqamətini, müxtəlif iş formalarını və çoxlu sayda şagirdin yaradıcılıq fəaliyyətinə cəlb olunmasını təmin edə bilər. Müəllim-şagird əlaqəsi qurmaq və işi şagirdlərin müstəqil şəkildə, heç bir məcburiyyət olmadan, tapşırıqları yerinə yetirəcək şəkildə təşkil etmələri məsləhətdir. Şagirdlərin çoxu yaradıcılıq müstəqilliyinə hazır deyillər və müəllimin rolu daha da çətinləşir - o, eyni zamanda müxtəlif qrup şagirdlərinin işinə nəzarət edərək, onlara sakitcə kömək etməlidir.

Müəllim peşəsi gözəl, nəcib və mükafatlandırıcı olmalıdır. Müəllimin əsas haqqı səmərəli və xoşbəxt şəkildə dərs verməkdir. Hər bir müəllimin müəyyən yolu onun şəxsi, fərdidir. Müəllimlər çox vaxt şagirdlərlə və valideynlərlə münasibətlərini təhlil etməli və pedaqoji səmərəliliyini əslində nümayiş etdirmək üçün onları əhəmiyyətli dərəcədə optimallaşdırmalıdırlar. Müəllim maraq oyatmaq, şagirdin güclü və qabiliyyətli olduğuna inam yaratmaq üçün öz mövzusunun xüsusiyyətlərindən istifadə etməyi öyrənməlidir [2, s.61]. Artıq bu gün işdə istifadə edilməli olan ikinci nəsil standartları ilə təhsilə hansı tələblərin qoyulduğunu bilmək mütləqdir. Hər birimiz başa düşürük ki, bəlkə də ən vacib insan hüquqlarından biri ağıllı olmaq haqqıdır. Yeni psixoloji yönümlü öyrənmə modeli - zənginləşdirici öyrənmə modeli - bunu qurmağa kömək edir. Bu öyrənmə modelində metakognitiv təcrübənin formalaşmasında mühüm rol verilir. Yeniyetmələrin şəxsi təcrübələrini cəlb etməyə və formalaşdırmağa çox diqqət yetirilir. Şagirdin öyrənmə fəaliyyətində əsas şey öyrəndiyi şeyi, bu iş prosesində başına gələnləri başa düşməsidir. Bu prosesdə müəllimin rolu əvəzolunmazdır.

**Ədəbiyyat:**

1.Məmmədova A. Müəllim-şagird əməkdaşlığının şagird şəxsiyyətinin formalaşmasında təsiri. Məktəbəqədər və ibtidai təhsil . 2019. №3/228. S. 69-72.
2.Агеева И.А. Успешный учитель: тренинговые и коррекционные программы. Санкт - Петербург: Речь, 2017. 208 с.
3.Гальперин П.Я. Лекции по психологии: учебное пособие для студентов вузов. М.: Высшая школа, 2012. 400 с.

## VAGİNİZMİN TƏRİFİ, TƏSNİFATI, ETİOLOGİYASI VƏ MÜALİCƏSİ

***Melek Anday Rifat qızı Tolunay***
***Psixologiya kafedrasının doktorantı***

Vaginismus vagina: (qılıf) və ismus: (hərəkət) sözlərinin birləşməsindən formalaşmış, ağrı və/və ya qorxu ilə birləşdikdə cinsi əlaqənin mümkün olmadığı və ya çox ağrılı olduğu pozğunluğu təsvir edir. Təkcə cinsi əlaqə zamanı değil barmaq, tampon və ya ginekoloji müayinə zamanı istifadə olunan spekulum üçün oxşar maneəlar vardır. Bundan əlavə, vajinismus vajinaya daxil olan bir cismin və ya cinsiyyət orqanının təsəvvürü (təxəyyülü) zamanı da baş verə bilər. Cinsi fəaliyyətlə əlaqəli ağrı və qorxu nəticəsində şərti cavab kimi də ifadə etmək olar. Bu vəziyyətdən əziyyət çəkən qadınlar üçün cinsi əlaqə cəhdləri zamanı baş verən şiddətli fiziki ağrı ilə yanaşı, şiddətli ruhi ağrılara səbəb olan ciddi problemdir. Vaginizm, vaginaya daxil olmaqla əlaqəli fobiya səviyyəsində bir qorxu və müşayiət edən vaginanın aşağı 1/3 hissəsində pubo-koksigeal və yaxın əzələlərin (sfinkter vajina və levator ani) qeyri-ixtiyari sıxılmağı ilə müşayiət olunan qorxudan ibarətdir. Çox vaxt bu simptomlar qaçınma ilə müşayiət olunur (Butcher 1999).

Spazm, fobiya və qaçınma bir-birini dəstəkləyən dövrəyə gətirib çıxarır. Salerno Trotula 1547-ci ildə yazdığı "Ginekologiya" dissertasiyasında indi vaginizm adı verdiyimiz statusu "bir qadının cinsi olaraq qıcıqlandırılmasına baxmayaraq bakirə kimi qalmasına səbəb olacaq şekilde vulvasının daralmağı" kimi ifadə etmişdi(Elke 1999). Sonradan Amerikalı ginekoloq Sims 19.yy da "fizioloji oyanmanın artması ilə vaginal sfinkterin spazmodik sıxılması" tərifini istifadə etmişdir. Sims tərəfindən ilk dəfə 1861-ci ildə "vaginizm" anlayışı müəyyən edilmişdir. Sims, vaginizm mövzusunda demişdir ki "Araşdırmalarıma əsasən, evlilik münasibətində hər iki teref üçün bu qədər bədbəxtlik yaradan başqa bir xəstəlik tanımıram. Ancaq deyə bilərəm ki, asan, etibarlı və qəti şəkildə müalicə oluna bilən xəstəlikdir''. Waltard, Sims'in cinsi orqanlara xas olaraq xarakterizə etdiyi həssaslıq anlayışını şübhə altına aldı və vaginal əzələ spazmının ağrı duyğusuna qarşı "fobik cavab" olduğu fikrini müdafiə etdi. Bu səbəbdən vaginizmin müalicəsində cərrahiyyə və ya genişləndirici tətbiqlərdən daha çox "cinsi tərbiyə" və "psixoterapiya" yanaşmalarının əhəmiyyətli olduğunu vurğuladı. DSM-IV-də vaginizm spesifik qadın cinsi disfunksiyası kimi təsnif edilmiş və cinsi ağrı pozuqluqları alt kateqoriyasına daxil edilmişdir.

Müvafiq olaraq, vaginizmin əsas diaqnostik meyarları aşağıdakılardır: (APA 2000):

A.Vaginanın xarici üçdə birinin əzələlərində cinsi əlaqənin (koitus) qarşısını alacaq şəkildə, təkrarlanan və ya davamlı qeyri-iradi sıxılmağın olmağıdır.

B.Bu pozuqluq nəzərə çarpacaq narahatlıq və ya şəxsiyyətlərarası münasibətlərdə çətinliklər yaradır

C.Bu pozuqluq başqa bir eksen1pozuqluqla daha yaxşı izah olunmur (məs. somatizasiya pozğunluğu) və sadəcə ümumi tibbi vəziyyətin birbaşa fizioloji təsirlərinə bağlı deyildir.

Bu tərifə əlavə olaraq, DSM-IV-də həmçinin; bütün ilkin cinsi disfunksiyaların alt növləri müəyyən edilir: əgər problem,

fərdin ilk cinsi təcrübəsindən etibarən baş verirsə ilkin (ömür boyu), vaginizm söz edilir.

İkinci dərəcəli (qazanılmış) vaginizmdə fərdin cinsi həyatında heç bir əlamətin olmadığı qənaətbəxş bir dövr vardır və problem sonradan yaranır.

Situativ (qismən) vaginizmdə problem müəyyən mühitlərdə meydana gəldiyi halda, digər mühitlərdə baş vermir. Əgər cinsi problem, mühitindən asılı olmayaraq və hər hansı cinsi fəaliyyət zamanı baş verirsə, buna diffuz (total) vaginizm deyilir. DSM-IV vaginizmin diaqnostik meyarları B, C ve vaginizmin alt tipləri bütün digər cinsi disfunksiyalara da aiddir. Bu baxımdan vaginizmin yeganə diferensial diaqnozu cinsi əlaqənin qarşısını alan vaginal sıxılma meyarıdır. (Amerika Psixiatriya Assosiasiyası (APA) 2000).

Sübut edilmiş tək bir etioloji faktör olmasa da müxtəlif səbəblər araşdırılmışdır. Bu səbəblər fiziki və ya psixoloji səbəblər kimi təsnif edilə bilər.

Vaginizmin mümkün somatik səbəbləri ilə bağlı; vaginal atrofiya ve bununla əlaqədar adezyonlar, vaginal əməliyyat və ya intravaginal şüalanma, uterus prolapsiyası, vulvar vestibülit sindromu (VVS), endometriyozis, infeksiyalar, vaginal lezyon və şişlər, cinsi yolla keçən xəstəliklər və pelvik qan təzyiqi anormallikləri daxildir (Reissing ve Khalifé 1999). Lakin bu sadalanan səbəblərin klinikada müşahidə olunan hallar nəzərə alındıqda onların etiologiyaya töhfəsi məhdud görünür.

Psixoanalitik yanaşma vaginizmin etiologiyasını izah etmek üçün digər fərziyyələrdən fərqli olaraq şuuraltı münaqişələrin mərkəzində tez-tez, cinsi münasibətdən zərər görmə qorxusu ilə qarşı cinsə, yəni kişiyə qarşı qısqanclıq və düşmənçilik düşüncələrinin olduğu qeydə alınır.

Vaginizm bəzən qadının statusuna, şəxsiyyətinə, kişiyə və cütlüyə aid olan amillərlə əlaqəli ola bilər. Qadının yoldaşı ilə bir yerdə olmaq isdəməməsi, münasibət qurmağa çalışdıqla-rı mühitdə rahat hiss etməməyi, ailə daxili problemlərin olmağı

və ya partnyoruna qarşı gizli qəzəb hissi yaranması bu vəziyyətin ən çox görülən səbəblərindən biridir. Vaginizmdə cütlüklər üçün ən vacib məsələ də müalicə üsullarıdır. Vaginizmdə hansı müalicə üsulunun faydalı olduğuna dair çox az nəzarətli araşdırmalar mövcuddur. Müalicə nəticələri ilə əlaqədar araşdırmaların əksəriyyətində; nümunələrin sayını bilməmək, qiymətləndirmə və müalicə nəticə ölçmələrinin qeyri-adekvat olmağı, monitorinq işinin ümumiyyətlə edilməməyi və ya qeyri-kafi nəticələndirilməyi və s.

Vaginizmin psixoloji səbəblərdən qaynaqlandığını cütlüklərə izah etmək, özünde vaginismik reaksiya inkişaf etdirən qadının genital strukturları haqqında müsbət düşüncələrə sahib olmağı, hamilə qalmaq üçün güclü istək, daha möhkəm cinsi biliyə sahib olmaq, ən azı üçüncü cinsi terapiya seansına qədər psixiatrik müsahibələrə və ev tapşırıqlarına yaxşı riayət etmək, evlilikdən əvvəl yaxşı münasibətlər və evlilik stressinin aşağı olması proqnoza müsbət təsir göstərir. Müalicədən əvvəl cinsi oyanma və istək problemlərinin olmağı, ailə münasibətlərində problemlər, histrionik və ya narsisistik şəxsiyyət xüsusiyyətlərinə malik olmaq, cinsi yolla keçən xəstəliklərə yoluxmaq qorxusu, vaginizmin müalicəsi üçün əvvəllər cərrahi əməliyyat keçirmiş olmaq, valideynlərin cinsəlliyə mənfi münasibəti proqnoza mənfi təsir göstərir.

Nəticə etibarı ilə vaginizm təkcə cinsi disfunksiya deyil, həm də psixi pozğunluqdur. Sağlamlığın bir çox komponenti ilə əlaqələndirilir. Diaqnozda çətinliklər nəzərə alınaraq, xəstənin vəziyyəti qiymətləndirilməli və müxtəlif etioloji faktorların ola biləcəyi nəzərdə tutulmalıdır. Müalicəyə uyğun gələn xəstələrdə müvəffəqiyyət nisbətləri çox yüksək olduğundan, bu problemi tanımaq və bu sahədə təhsil almış mütəxəssislərə müraciət etmək vacibdir.

**Ədəbiyyat:**

1.Ahmed K, Bhugra D (2007) The role of culture insexual dysfunction. Psychiatry, 3(2), 23-25.2008;
2.Bachmann G. (2006) Female sexuality and sexual dysfunction: Are we stuck on the learning curve. The Journal of Sexual Medicine, 3, 639-645.
3.Doğan S, Özkorumak E. (2008) "Ağrılı genital cinsel aktivite ve vajinismus tanısında yaşanan güçlükler", Klinik Psikiyatri, 11:135-142.4. Mahler, M. S., Çam, F. Bergman, A. (2012). İnsan yavrusunun psikolojik doğumu (2.Basım.) (AN Babaoğlu, Çev.). İstanbul: Metis Yayınları.
4.Kısa C. (2010) "Kadın Bedeninin Cinselliği Reddedişi: VAJİNİSMUS" cinsel terapi uygulama elkitabı. CK Yayınevi, Ankara, ISBN 978-605-4379-01-9

## İDMANÇILARIN UĞUR QAZANMASINDA PSİXOLOJİ HAZIRLIĞIN ƏSAS İSTİQAMƏTLƏRİ

***Yusifova Nigar Eyvaz qızı***
***BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının doktorantı***

Müasir dövrün tələblərini nəzərə alaraq digər sahələr kimi idmanda və idman məşqlərində yeni inkişafa və tərəqqiyə böyük ehtiyac duyulur. Xüsusilə də olimpiya idman növlərinə marağın yüksək olduğunu nəzərə aldıqda bu daha da vacib bir məsələ kimi ön plana çıxır. Belə idman növlərindən biridə gimnastika hesab olunur. Bu gün ölkəmizdə gimnastika idman növünün yüksək inkişafını və gənclərin marağını nəzərə alsaq, bu növdə məşqlərə daha da ciddi formada yanaşmaq tələb edilir. Lakin məşqlərdə və yarışlarda idmançılarımızın yüksək nəticələr əldə etməsinə təkçə fiziki, texniki və taktiki baxımdan hazırlıqlı olmaları kifayət etmir. Yüksək zirvələri fəth etmək üçün bunlarla yanaşı idmançıların psixoloji hazırlıqlarının yüksəldilməsi və inkişafina böyük ehtiyac duyulur və bu istiqamətdə psixoloji işin aparılması mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, bir sıra tədqiqatçılar idmançıların psixoloji hazırlığının formalaşmasında iki mərhələ fərqləndirir.

- Ümumi psixoloji hazırlıq
- Xüsusi psixoloji hazırlıq

Ümumi psixoloji hazırlığın məzmunu idmançıların məşqdə uğur qazanmasına imkan verəcək keyfiyyətləri inkişaf etdirməyə yönəlmişdir. Ümumi psixoloji hazırlıq məşq prosesində həyata keçirilir. O, taktiki, texniki hazırlıqla bir yerdə aparılır. Lakin eyni zamanda idmandan kənar fəaliyyət prosesində də həyata keçirilə bilər. Bu o zaman özünü göstərir ki, gənc idmançı müstəqil şəkildə və ya kiminsə köməyi ilə öz psixi proseslərini, şəxsiyyət keyfiyyətlərini yaxşılaşdırmaq üçün müəyyən tapşırıqlardan istifadə edir.

Ümumi psixoloji hazırlığın tərkibinə aşağıdakıları aid etmək mümkündür.

- Mühüm psixoloji funksiyaların və keyfiyyətlərin inkişafı: diqqət, təsəvvür, duyğu, təfəkkür, diqqət, təxəyyül;
- Vacib peşəkar qabiliyyətlərin inkişafı: Hərəkətlərin koordinasiyası, emosionalıq, özünütəhlil qabliyyəti;
- Mühüm mənəvi-əxlaqi və iradi keyfiyyətlərin inkişafı: gimnastikaya məhəbbət, məqsədəyönəlişlık, nizam-intizam, müstəqillik, inadkarlıq;
- Psixi vəziyyətini tənzim etmək, çıxışdan əvvəl diqqətini toplamaq, çıxış zamanı öz gücünü səfərbər etmək, xoşagəlməz situasiyalara qarşı dayana bilmək bacarığını inkişaf etdirmək;
- Gimnastik hərəkətlərin effektiv yerinə yetirilməsi, intellektual, iradi və motivasion hazırlıq və təlim-tərbiyə üçün lazım olan psixoloji funksiyaların və keyfiyyətlərin inkişafı bütün pedoqoji prosesin ayrılmaz hisəsidir və gimnastların bütün hazırlığı dövründə həyata keçirilir [2, 35].

Xüsusi psixoloji hazırlıq isə başlıca olaraq idmançılarda konkret yarışda iştirakına imkan verən psixoloji hazırlığın formalaşdırılmasına istiqamətlənmişdir.

Bu zaman hazırlıq prosesində xüsusi tapşırıqlar həll edilir. Xüsusi psixi hazırlıq konkret yarışlara hazırlaşmaq və ya ayrıca bir tapşırığın yerinə yetirilməsi ilə bağlı olmaqla özü də iki hissəyə bölünür.

Konkret yarışlara psixoloji hazırlıq özündə aşağıdakıları ehtiva edir.

- Hər bir gimnast üçün qarşıdakı həll edilməsi vacib olan xüsusi tapşırıqların qoyulması;
- Gələcək rəqiblərinin rəqabətinin miqyası, yarışların keçirilməsinin yeri və şərtləri, o, cümlədən iştirakçılar haqqında ətraflı məlumatın əldə eilməsi;
- Gimnastlar arasında yarışda iştirak etmək üçün motivin yaradılması;
- Gimnastlarda öz imkanlarına və güçünə inam formalaşdırmaq və qarşıdakı yarışlarda qoyulan hədəflərə çatmaq.
- Gimnastlarda özünəinam hissi idmançı tərəfindən "lehinə" və "əleyhinə" olan bütün amillərin əsaslı təhlili əsasında formalaşır.

Gimnastların mənfi düşüncə və hisslərdən qurtarmaları üçün rəqabət öncəsi emosional vəziyyətlərinə nəzarət edilməsi. Konkret tapşırığın yerinə yetirilməsinə yönəlmiş psixoloji hazırlıq gimnastların psixoloji hazırlığını tamamlayır. Mürəkkəb bir tapşırığı yerinə yetirmək üçün gimnast bütün imkanlarını səfərbər etməli, öz psixikasının resuslarında səmərəli şəkildə istifadə etməyi bacarmadır.

Qeyd edək ki, psixoloji hazırlığın bütün növləri bir-biri ilə sıx şəkildə bağlıdır və ümumi psixoloji hazırlığının əsasında yaranır.

**Ədəbiyyat:**

1.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 2003, 534 s.1.
2.Смирнов Б.Н. Исследование умения преодолевать действие фактора опасности у юных гимнасток // Вопросы психологии спорта. - Л.: ГДОИФК им. П.Ф.Лесгафта, 1975, с.55-62.

## BƏYƏNİLMƏ ARZUSUNUN İNSANIN DAVRANIŞINA TƏSİRİ

***Hacıyeva İlahə Dilxoş qızı***
***Bakı Dövlət Universiteti***

İnsan yaradılışı baxımdan təbiət qarşısında zəifliyi vardır. İnsanlar fiziki olaraq həyatlarını davam etdirmək üçün qruplar halında yaşamağa ehtiyac duyurlar. Insanın tələbatları olduğu müddətcə onların sosial həyatı davam edir, sosial həyat davam etdikcə isə onun yeni tələbatları meydana çıxır.

Bəyənilmə duyğusu bizim ən güclü arzularımızdan biridir. Bizim ən güclü emosional tələbatımız birbaşa bizim hisslərimizin ödənməsi və ya ödənməməsi ilə bağlıdır. İnsanlar ilk olaraq sevgiyə ehtiyac duyurlar. Sevgi bəyənilmə ilə eyni emosional tələbatları təmin edir. Bəyənilmə insanları özlərini təhlükəsiz hiss etməyə vadar edir. Bütün insanlarda özünü təhlükəsiz hiss etmə arzusu vardır. Bizim etdiklərimizin əksəriyyəti bu əsas arzunun ətrafında dönür. Bu arzunun həyata keçirilməsi səyləri insanların hərəkətlərini və dünya hadisələrini formalaşdırır. Bu iki əsas emosiyalar arasında bir-biri ilə olan sıx əlaqəni dərk edəndə, niyə hərkəsin bəyənilməyə can atdığı aydın olur. Qeyd etmək lazımdır ki, bəyənilməmək əks effekt verə bilər. Ələ salınmaq və xoşagəlməzliklərlə qarşılaşmaq bizim özgüvənimizi zədələyə bilər. Əgər biz belə neqativ geridönüşlər alarıqsa, bizim şəxsi dəyərlərimiz tükənə bilər. Bu da bizim təhlükəsizlik hissimizi hədələyir və daxili harmoniyamızı pozur [1, səh52].

Uşaqlıqda biz bəyənilməni xarici mənbələrdə axtarırıq. Əgər uşaq valideynləri tərəfindən bəyənilirsə onda onun özünüqiymətləndirməsi sağlam şəkildə formalaşır. Bəzən insanların məqsədi öz şəxsi arzularını həyata keçirmək yox, cəmiyyət tərəfindən qəbul olunan olmaqdı, hətta bu öz maraqlarının əksi olsa belə. Bunun səbəbləri uşaqlıqda yata bilər, ola bilər insan uşaqlıqda valideynlərinin sevgisi, dostlarının hörmətini, müəllimlərin qiymətlərini itirməkdən qorxub.

Böyümə illərində də insan bəyənilməyin mənbələrini xaricdə axtarırlar. Lakin yaşlandıqca əsas bəyənilmə mənbəyində fundamental dəyişmə baş verir. Əgər insanın özünü bəyənilmiş hiss etməsi xarici faktorlardan asılı qalsa, onda o həmişə emosional həssas qalacaqdır. Özünüqiymətləndirməsi isə əşyaların hesabına olacaqdır. Belə situasiya təfəkkürün ehtiyacda, köməksiz, asılı obrazını yaradır. Insanların bəyənilmə mənbələri daxili mənbələr olmalıdır, xarici yox. Insan gərək birinci özünü bəyənsin, onda o həqiqi daxili aləmi və təhlükəsizliyini hiss edəcək. Bəyənilmənin daxili hissi xarici faktorların təsirindən dəyişəcək qədər həsssas olmayana kimi inkişaf etməlidir [2].

Deyə bilərik ki, bəyənilmə arzusunun Ən çox nəzərə çarpan yaş dövrü yeniyetməlikdir. Xüsusilə yeniyetmələr yaşıdları tərəfindən bəyənilməyə ehtiyacı duyurlar. Bəzən bu ehtiyac özlərinin kimliklərini göstərmək ehtiyacından daha üstün olur. Yeniyetmələrin həyatlarının ən vacib məsələsi yaşıdları tərəfindən qəbul edilib, bəyənilib-bəyənilmədikləri və yaşıdları tərəfindən mənimsənilmələridir.

Bəyənilmə arzusu - insanların sevilməvə qəbul edilmə tələbatlarının əsasında həyatlarınnı bir çox sahəsində başqalarından müsbət geridönüş olmağa istiqamətlənmiş istəklər şəklində özünü göstərir. Maslouya görə insanların sevilmə və qəbul edilmə kimi sosial ehtiyaclarının ödənməməsi, insanların özlərini yalnız və tərk edilmiş hiss etmələrinə səbəb ola bilər. buna görə də insanlar özlərinin sevilmə və qəbul olunma ehtiyaclarının ödənməsinə yönəlmiş bəyənilmə arzusu hiss etməkdədir. Bütün bu

dediklərimizi nəzərə alsaq deyə bilərik ki, bəyənilmə arzusu insanların özləri haqqında fikirlərinin müsbət istiqamətə yönəltmək, özlərini yaxşı hiss etmək, sevgi və hörmət ehtiyaclarını ödəmək üçün həyatlarının bir çox sahəsində başqalarından müsbət geri dönüşlər almaq istəyidir [1, səh. 55].

Elə insanlar vardır ki, onlar kiminsə onları sevməməsini, bəyənməməsinə dözə bilmirlər. onlar sevilməmək fikrindən belə pis olurlar, onlar bütün gücləri ilə onlara qarşı laqeyd olan insanların diqqətlərini cəlb etmək, özlərini onlara bəyəndirmək istəyirlər. təəssüflər olsun ki, bunun nəticəsi heç də həmişə yaxşı olmur və əks nəticəyə gətirib çıxarır.

Başqalarının simpatiyasını qazanmağa çalışan insanların davranışlarında aşağıdakı xüsusisiyyətlər özünü göstərir:

- Həmişə hamını razı salmağa çalışırlar;
- Başqalarının bəyənilməsini, sevgisi qazanacaqlarını təxmin belə etsələr xarakterlərinə zidd olan davranışları, düzgün olmayan və hətta təhlükəli olan davranışları belə etməyə hazır olurlar;
- Təklikdə qalmaqdan və kütlənin əksinə getməkdən qorxur, başqasının bəyənməsini qazanmaq üçün hətta düzgün olmayan hərəkətlərin olmasına icaze verirlər;
- Dostluq qurmaq və ya dostluqlarını saxlamaq üçün istəmədiklərini etməyə razı olurlar;
- Kiminsə onları sevməməsini biləndə həyacan və stress keçirirlər;
- Onları sevməyən və ya bəyənməyən insanlarda ilişib qalırlar [3].

Sevimli olmağa çalışan insanlar uşaqlıqda emosional laqeydlikdən əziyyət çəkiblər. ehtimal ki, uşaq emosional, verbal və ya fiziki zorakılığın qurbanı olublar. Belə travmalar sadəcə özün olmağın kifayət olmadığı hissini uzunmüddətli saxlayır. Onlar düşünürlər ki, təkcə özləri heç bir dəyərə  malik deyillər və daima dəstək və bəyənilmə axtarırlar.

Sağlam olmayan bəyənilmə arzusu daxilən aşağı özünəhörmət və özgüvən çatışmazlığının mübarizəsinə işarə edir. Bunu təşviq edən amillər müxtəlif ola bilərlər. məsələn, sosial şəbəkələrin yayğınlığı bu hissləri gücləndirir. "layk" (bəyənmə) üzərində olan yarış sağlam olmayan bəyənilmə arzusu olan insanları daxilən narahatçılığa itələyir [1, səh.59]. Arzu olunan bəyənilməni əldə edə bilməmək psixoloji problemlərin dərinləşməsinə səbəb olur, məsələn, depressiya vəziyyəti daha da dərinləşir. Bu problemin bir dəfəlik həlli yoxdur, sağlam olmayan bəyənilmə arzusuna malik şəxslər bu hisslə qarşılaşdıqları hər an yaxınlarından dəstək və ya professional yardım almalıdırlar. Lakin ilk növbədə isə insan özünü sevməyi öyrənməlidir.

**Ədəbiyyat:**

1.Gülizar Kaşıkara, Yrd.Doç.Dr. Uğur Doğa //beğenilme arzusu: ölçek Gelişdirme, Güvenirlik və Geçerlik Çalışması//MSKU Eğitim Fakültesi Dergisi №2, 2017 s.51-60

*2.Курт Смит* Нездоровое желание нравиться всем: о чем оно говорит

3.Парфенова Т. В. "Потребность в одобрении. Желание быть принятым!"

## İNKLÜZİV MƏKTƏBDƏ PEDAQOJİ KOLLEKTİVİN KƏKƏLƏYƏN UŞAQLARA İNTEQRATİV YANAŞMA MODELİ

***Sümeyra Avcı Hüseyin***
***BDU-nun II kurs doktorantı***

Müasir dövrdə aparılan təhsil islahatları kəkələyən uşaqlar üçün də yeni təhsil strategiyasının işlənməsinə ehtiyac yaradır.Təhsil sisteminin yenidənqurma prosesi kəkələyən uşaqlara inklüziv yanaşmanın tətbiqi ilə bağlı bir sıra problemlərin yaranmasını da şərtləndirir.

Kəkələmə kompleks simptomlara malik, mürəkkəb psixofiziki təzahürləri olan nitq pozulmasıdır. Kəkələmə fizioloji çatışmazlıq (zəif sinir sistemi, tənəffüs pozulması), nitq pozulması (nitqdə ilişmə, embolofraziya və s.) və psixoloji əlamətlərlə (diqqətin qüsura cəmlənməsi, loqofobiya və s.) xarakterizə olunur.

İnklüziv təhsil şəraitində uşaqlarda kəkələmənin aradan qaldırılması, onların ümumi təhsil mühi tinə uğurlu daxil edilməsi, yalnız mütəxəssislərin qarşılıqlıfəaliyəti və vahid inteqrativ yanaşmanın tətbiqi ilə mümkündür.

İnklüziv təhsildə mütəxəssislərin qarşılıqlıfəaliyəti və vahid inteqrativ yanaşmanın tətbiqi əlaqəsi nin təşkili konsepsiyanın əsas məzmunu kəkələyən uşaq üçün vahid inkişaf strategiyasının hazır lanmasına və həyata keçirilməsinə və ailəsinə dəstəyin təşkil edilməsinə yönəlmiş peşələrarası əmək daşlıq, məqsədini isə inklüziv təhsil prosesində kəkələyən uşağa effektiv korresiya texnologiyala rının işlənməsi təşkil edir.

Məktəbdə müəllim-loqoped, loqoped -həkim, loqoped - fiziki tərbiyə müəlliminin qarşılıqlı fəaliy yəti inteqrativ yanaşmanın əsasını təşkil edir. Belə ki, həkimlə loqoped uşağın loqopedik müayinə sini aparıb diaqnozunu dəqiqləşdirir, müəllimlərlə loqoped in birgə işi sayəsində müxtəlif fənlərin tədrisi prosesində səlis nitq vərdişləri möhkəmləndirilir,məktəb psixoloqu ilə iş zamanı uşağın di namik müşahidəsi, emosional -iradi sahəsinin normallaşdırılması, kəkələyən uşağın psixoloji xəri təsinin tərtibi təşkil edilir, sinif yoldaşlarının kəkələyən uşağa qarşı adekvat münasibəti formalaş dırılır.

İnklüziv məktəbdə musiqi və fiziki tərbiyə müəllimləri ilə loqopedin birgə fəaliyyəti zamanı kəkə ləyən uşaqlarda nitq nəfəsinin və vokal vərdişlərin formalaşması, nitq motorikası və hərəkət koor dinasiyasının inkişafı, psixi əzələ funksiyaların normal laşması həyata keçirilir.

Uşaqda kəkələməni şiddətləndirən böhranlı məqamlardan biri onun ilk dəfə məktəbə getməsidir. Bu zaman loqopedin

müəllim və psixoloqla inteqrativ qarşılıqlı fəaliy yətinin ən aktual məsələsi kəkələyən uşağı məktəbə hazırlaşdırmaqdır. Bunun üçün loqoped kəkələyən uşağın təlim alacağı sinfin müəllimi ilə mütləq söhbət aparıb ona uşaqla davranmaq üçün aşağıdakı təlimatları verə bilər:

- tədris fəaliyyəti prosesində kəkələyən uşağı digər uşaqlardan təcrid etmək olmaz. onun üçün aşkar müstəsna şərait yaradılmamalı, dərs sorğusu bütün şagirdlərlə eyni şəraitdə aparılmalıdır.

- kəkələyən uşağı məktəbin ictimai işlərinə, bədii fəaliyyətlərə (rəsm, mahnı oxuma) cəlb edilmə lidir.

Kəkələyən uşağın məktəbə hazırlığı zamanı sinif müəllimi və məktəb psixoloqu onda məktəbə qarşı müsbət münasibət və öyrənməyə marağı formalaşdırmaq üçün üç əsas vəzifəni həyata ke çirtməlidir:

1. Uşaqlarda məktəb və təlim haqqında düzgün fikirləri formalaşdırmaq;

2. Məktəbə qarşı müsbət emosional münasibət formalaşdırmaq;

3. Təlim fəaliyyəti təcrübəsini formalaşdırmaq.

Bu sadalanan vəzifələri yerinə yetirmək üçün tədris-tərbiyə prosesində müxtəlif iş forma və metodlarından: məktəb haqqında söhbətlər aparmaq, hekayələr oxumaq və məktəb mövzularında şeirlər öyrənmək, məktəb həyatını əks etdirən şəkillərə baxmaq, məktəbə ekskursiya təşkil etmək və s. istifadə etmək olar.

İnklüziv məktəbin bütün mütəxəssisləri (məktəb həkimi, pedaqoq, loqoped və psixoloq) kəkələ yən uşaq ailəsinə mütləq məsləhət və metodiki kömək göstərməlidirlər. Bunun üçün sorğu anketləri, söhbətlər, valideyn görüşləri, dəyirmi masa və s. kimi iş formalarından istifadə edib aşağıda qeyd edilənləri həyata keçirtmək olar:

- ailənin və ailə tərbiyəsinin xüsusiyyətlərini öyrənmək;

-valideynlərin nitq funksiyalarının inkişafında psixoloji və pedaqoji səriştəsini artırmaq;

-ailələrə psixoloji yardım və informasiya dəstəyi göstərmək;

- inklüziv məktəb mütəxəssisləri ilə valideynlərin işbirliyini təşkil etmək;

Beləliklə də, mütəxəssislərin , həmçinin kəkələyən uşaq ailələrinin qarşılıqlıfəaliyyəti kəkələmənin diaqnostikasının keyfiyyətini yaxşılaşdırmağa korreksiya strategiyasını müəyyənləşdirməyə; digər mütəxəssislər tərəfindən verilən tövsiyələrin yerinə yetirilməsinə nəzarət etməyə, kəkələyən uşaq larla işləmək üçün ən səmərəli pedaqoji texnologiyaları seçməyə və həyata keçirtməyə imkan ve rir. İnteqrativ yanaşmanın əsas nəticəsi kəkələyən uşaqların təhsilin bütün mərhələlərində inklüziv təhsil şəraitinə (ümumi təhsil müəssisəsi) uğurla daxil olmasıdır.

**Ədəbiyyat:**

1.2018-2024-cü illərdə Azərbaycanda sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" Bakı.2017.

2.S.Qasımov, E.Kərimova, İ.Sultanova, T.Ağayeva İnklüziv təhsil Bakı., 2006

3.Алехина С.В. Готовность педагогов как основной фактор успешности инклюзивного процесса в образовании / С.В. Алехина, М.Н. Алексеева, Е.Л. Агафонова // Психологическая наука и образование. – 2011. - №1. – С. 83-91.

4.Архипова Е.Ф. Если ребенок заикается // Современное дошкольное образование. Теория и практика. – 2016. – №6. – С.62–67

5.Егорова Т.В. Социальная интеграция детей с ограниченными возможностями: учебное пособие / Т.В. Егорова. – Балашов: Николаев, 2002 – 80 с.

6.Инклюзивное образование. Настольная книга педагога работающего с детьми с ОВЗ ВЛАДОС 2011.

## SOYQIRIMLA BAĞLI PSİXOLOJİ ARAŞDIRMALARDA ƏSAS KONSEPTUAL MƏSƏLƏLƏR

***Mənsumova İlkanə İmran qızı***
***BDU-nun II kurs magistrantı***

Müasir dövrümüzdə qloballaşma proseslərinin sürətlə inkişaf etməsinə baxmayaraq soyqırım probleminin geniş şəkildə öyrənilməsi hələ də öz aktuallığını qoruyub saxlayır. Soyqırım anlayışının mahiyyətini bilmək üçün hər şeydən öncə tarixdə soyqırım kimi qəbul edilən bütün hadisələri ümumiləşdirib hamısı üçün oxşar və ya fərqli cəhətləri müqayisəli analiz etmək lazımdır.

Ruanda, Kamboca, Bosniya və Herseqovina və Sudandakı soyqırımlar, Uqandada və Konqoda kütləvi qətllər, Çində mədəni inqilab və Sovet Ukraynasında böyük aclıq, Argentinada və Çilidə siyasi cinayətlər - bunlar XX əsrdə müxtəlif dövrlərdə mütəşəkkil cinayətlərin yalnız bir neçə nümunəsidir. Müxtəlif filosoflar və sosioloqlar soyqırımın normal modelləşmə proseslərinin nəticəsi olaraq qəbul edilə biləcəyini irəli sürürdülər [3]. Bu sosial problemin universallığını qəbul edərək, bəzi sosial psixoloqlar soyqırım və kütləvi qətllərə səbəb olan prosesləri izah etmək üçün müəyyən səylər göstərmişlər. Bir sira sosial elm adamları və tarixçilər soyqırım anlayışının köklərinin, dinamikasının və nəticələrinin müzakirə edilməsində əhəmiyyətli dərəcədə töhfə vermişdilər[8]. Bununla yanaşı, ümumilikdə bu mövzuda sosial-psixoloji araşdırmalar olduqca azdır.

Soyqırım anlayışının mahiyyətini aydınlaşdırmaq üçün onun tarixi kökünü və mahiyyətini araşdırmaq lazımdır.

Soyqırım ("genocide") sözü yunanca "irq" və ya "qəbilə" kimi tərcümə edilən "geno"və latınca "qətl" mənasını verən "cide" sözünün birləşməsindən yaranmışdır. Soyqırım ifadəsi ilk dəfə 1944-cü ildə Polşa-Yəhudi hüquqşünası Raphael Lemkin tərəfindən irəli sürülmüşdür. Bu, "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın 2-ci maddəsində "milli, etnik, irqi və ya dini qrupu tamamilə və ya qismən məhv etmək niyyəti ilə törədilmiş aşağıdakı hərəkətlərdən biri kimi nəzərdə tutulmuşdur[7]:

- qrup üzvlərini öldürmək;
- qrup üzvlərinə ciddi fiziki və ya mənəvi ziyan vurmaq,
- qrupun tam və ya qismən fiziki məhvi məqsədilə qrupda həyat şərtlərini düşünülmüş şəkildə aşağı salmaq;
- qrupda olacaq doğumların qarşısını almaq üçün tədbirlər görmək;
- uşaqları bir qrupdan zorla digər qrupa köçürmək.

Müəyyən hadisələrin soyqırım olaraq təyin edilməsi ilə bağlı bir çox siyasi mübahisələr də mövcud olmuşdur. Soyqırım və kütləvi qətllər mövzusunda psixoloji və tarixi araşdırmaların nəticəsi olaraq, soyqırım aktlarının kök səbəbləri psixoloji xüsusiyyətlər, patoloji şəxsiyyət xüsusiyyətləri və ya erkən uşaqlıq problemlərinə yönəlmiş cinayətkarlar haqqında patoloji baxışdan uzaqlaşmışdır. Bunun əvəzinə əsas diqqət insani – psixoloji və sosial proseslərin təhlilinə yönəlmişdir[1].

Bu baxımdan, Raul Hilberqin Holokost haqqında kitabı soyqırım ədəbiyyatında sosial rolların stereotipik üçbucağını formalaşdırdı[6]: cinayətkarlar, qurbanlar və izləyicilər. Eyni zamanda, bir çox tədqiqatçı üçün bu tipologiya bəsit xarakter daşıyırdı. Məsələn, bəzi soyqırım alimləri, cinayət törədən qrupların daxilində olan lakin cinayət xarakterli hərəkətlər etməyən şahidlərlə, cinayətkar millətin hərəkətlərini əngəlləmək üçün müdaxilə etməyən digər millətlərin üzvləri olan şahidlər arasındakı fərqlilikləri vurğulayırdılar[9]. Oxşar şəkildə soyqırım təşəbbüskarları ilə qrup üzvlərini öldürmək əmrlərinə ta-

be olan ardıcıllar da bir-birindən fərqləndirilə bilər. Bundan başqa, hətta soyqırım qurbanları arasında da belə fərqlər qoyulurdu. Məsələn, bəzi qurban qrupları silahlı müqavimət göstərərkən, digərləri müəyyən gizli xidmətlərə üzv olmaqla cinayətkarlarla birləşərək sağ qalmağa çalışırdılar. Tarixi faktlar göstərir ki, bir sıra nümunələrdə bəzi qrupların ərzaq və ya təhlükəsizlik ehtiyaclarının yaranması səbəbilə həmin qruplar eyni anda cinayətkar-qurban-izləyici üçbucağının bütün mümkün rollarında iştirak edə bilər[10]. Lakin bu ziddiyyətləri və mürəkkəbliyi qəbul edərək soyqırım və sonrasındakı sosial rolları cinayətkar-qurban-şahid üçbucağı modeli şəklində ayırmaq daha məqsədəuyğun hesab edilir.

Bununla birlikdə, bu fərqləri yalnız sosial göstərici kimi görmək vacibdir. Bu rolların kimə məxsus olması insanların fərdi davranışlarının izahı olaraq deyil, soyqırımdakı mövqelərinin izahı olaraq qəbul edilməlidir.

Psixoloqların və digər sosial elmi işçilərin bu sahədə apardığı işlər, soyqırımın son illərdə necə inkişaf etdiyini izah etmişdir. Bütün bunlar isə soyqırım və kütləvi zorakılığın nəticələrinə marağın artamsına gətirib çıxarmışdır. Soyqırım sonrası psixoloji araşdırmalar cinayətkar-qurban-şahid qruplarının sosial rollarının öyrənilməsinə yönəlmişdir. Bu tədqiqatlar psixologiyanın bir neçə sahəsini (sosial, klinik, kütlə psixologiyası) əhatə edir [1].

Cinayətkar qruplar arasında soyqırımın psixoloji nəticələri ilə bağlı son tədqiqatlar tarixi qurbanın müsbət və mənfi qiymətləndirilməsinə yönəlib[4]. Cinayəti törədənlərin övladları ata-babalarının törətmiş olduğu cinayətlərə bəraət qazandırmağa meyillidirlər. Tarixi cinayətləri izah edərkən, cinayətkar qrupların nəsilləri tez -tez qərəzli atributlardan istifadə edirlər. Onlar tarixi cinayətləri qeyri-sabit və situasiyadan asılı kimi, cinayətkar qrupları isə çox dəyişkən olaraq qəbul edirlər. Tarixi soyqırımı izah edərkən bu qərəz qruplararsı davranışın etnosentik izahına uyğun gəlir. Nəsillər arasında başqa bir bəraət stra-

tegiyası gunahkar qrupların öz talelərində tarixi qurbanları günahlandırmasıdır. Cinayətkar qrupların nümayəndələri isə soyqırım zamanı öz qruplarının törətdikləri cinayətlərə görə onlara hər zaman bəraət qazandırmırlar.

Cinayətkar qrupların keçmişə emosional reaksiyası ilə bağlı uzun illər davam edən araşdırmalardan sonra tarixi vəhşiliklərə nə qədər ümumi əxlaqi reaksiyalar verildiyi hələ də aydın deyil və sosial reaksiyaları proqnozlaşdırmaq hələ də çətindir.

Soyqırımdan sonra qurban qrupları arasında aparılan araşdırmalara dərhal sağ qalanlarla, sağ qalanların nəsilləri ilə və ən azı hadisələrdən sonrakı bir nəsil olan qurban qrupunun üzvləri ilə aparılan araşdırmalar daxildir. Dərhal sağ qalanlar ilk növbədə klinik psixologiyada tədqiq edilmişdir. Bu tədqiqatlar ən çox travmanın tədqiqinə yönəlmişdir[5]. Bura posttravmatik stress pozuntusunun və intiqam hissi kimi mənfi nəticələr, eyni zamanda nadir hallarda rast gəlinən müsbət nəticələr kimi dayanıqlılıq, məna vermək, öhdəsindən gəlmək və altruizmi də əhatə edən posttravmatik böyümə daxildir. Bu sahədə mövcud tədqiqatların çoxu psixiatriya jurnallarında dərc olunur və bunları araşdırmaq üçün sosial-konstruktivistdən daha çox tibbi yanaşma tələb edir.

Soyqırımın nəticələrinə dair klinik araşdırmalara həmçinin sağ qalanların nəsillərində nəsillərarası travma və travma simptomlarının ötürülüb-ötürülməməsi ilə bağlı işlər daxildir. Soyqırımdan sonrakı klinik tədqiqatlara nəsillərarası travmanın araşdırılması və travma əlamətlərinin sağ qalanların nəsillərinə keçib-keçməməsi də daxildir.

Soyqırım və kütləvi qətllər sonrasında aparılmış araşdırmalara nəzər yetirsək belə nəticəyə gələrik ki, hadisələrə izləyici mövqedə duran insanlar, onların şahid olduğu hadisələrə emosional münasibətləri kifayət qədər geniş şəkildə tədqiq olunmamışdır.

Ümumilikdə qeyd etmək lazımdır ki, soyqırım və kütləvi zorakılıqla bağlı araşdırmaların təhlili göstərir ki, bu kimi hadisələr fərdlərin və ictimai şəraitin tədricən transformasiyası nəticəsində baş verir. Ona görə də profilaktik məqsədlə soyqırımla nəticələnə biləcək erkən mərhələləri araşdırmaq və bu proseslərə təsirli şəkildə qarşı çıxmaq ilə bağlı biliklərimizi artırmaq olduqca əhəmiyyətlidir.

**Ədəbiyyat:**

1.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial Psixologiya. Bakı: Qapp- Poliqraf, 2003, 356 səh.
2.Adorno T., Frenkel-Brunswick E., Levenson D. & Sanford R. The Authoritarian Personality. New York: Harper & Row, 1950.
3.Bauman Z. Modernity and the Holocaust. Cambridge, UK: Polity, 1989, 238 pages.
4.Doosje B., & Branscombe N. R. Attributions for the negative historical actions of a group. European journal of Social Psychology, 33, 235-248 2003.
5.Field N. P., & Chhim S. Desire for revenge and attitudes toward the Khmer Rouge tribunal among Cambodian. Journal of Loss and Trauma. 13, 352-372. 2008.

# ОТНОШЕНИЕ ОНКОЛОГОВ К СУИЦИДАЛЬНОЙ АКТИВНОСТИ БОЛЬНЫХ ЗЛОКАЧЕСТВЕННЫМИ НОВООБРАЗОВАНИЯМИ

***Махмудова Эльнора Бегалиевна,***
***Бакинский Государственный Университет***

Онкологические больные составляют одну из наиболее суицидально-опасных категорий пациентов с соматической патологией. Снижение суицидальной готовности и

предотвращение самоубийств этих пациентов являются важными задачами лечебно-реабилитационных мероприятий, проводимых врачом в амбулаторных и стационарных условиях.

Цель исследования - проанализировать отношение онкологов к суицидальной активности пациентов и оценить тактику их поведения.

Материал и методы. Данные были получены в ходе опроса по специально разработанной анкете 107 врачей-онкологов со стажем работы от 1 года до 32 лет [в среднем - (12,59±4,1) года]. Среди опрошенных мужчин - 55,1 %, женщин - 44,9 %. Опрос проводился один раз.

Результаты и их обсуждение. Данные опроса показали, что 44,9 % специалистов ранее сталкивались с суицидальными действиями пациентов в своей медицинской практике (они непосредственно наблюдали за этими пациентами или были свидетелями подобных случаев с коллегами по работе). В то же время врачи отметили, что только 6,2 % открыто сообщили о своих суицидальных намерениях, а косвенно - 27,1 % пациентов. В то же время ретроспективно онкологи указали на наличие явных признаков депрессии у 77,1 % самоубийц [3].

В целом эти данные соответствуют литературе, но низкий процент пациентов, сообщающих о своих суицидальных намерениях, расходится с нашими результатами, полученными при анализе суицидальных действий, где эти показатели составили 26,5 % и 32,7 % соответственно. Разница в 20 % в частоте открытых сообщений пациентов, наряду с объективными причинами, также может быть обусловлена нежеланием врачей брать на себя какую-либо ответственность за совершенное самоубийство.

Более близкие цифры к полученным нами цифрам дают данные опроса о частоте сообщений пациентов с суицидальными идеями. Так, 29,9 % онкологов указали, что

пациенты самостоятельно высказывают суицидальные идеи, 22,4 % – только при их активном выявлении. По словам врачей, большинство пациентов (47,7 %) не высказывают мыслей о таком плане. Интересно, что 47,7 % онкологов активно не выявляют аутоагрессивные идеи. Половина респондентов (51,4 %) сообщили, что они идентифицируют суицидальное поведение только в том случае, если у пациента есть признаки депрессии. В то же время среди лиц, заполнивших анкеты, только один специалист указал, что он всегда активно расспрашивает пациентов на эту тему. Основой такой тактики, по его словам, стал случай самостоятельного повешения пациента в отделении онкологического диспансера в день дежурства этого врача.

По данным опроса, 61,7 % онкологов связали низкий процент активного выявления суицидальных идей с возможностью провоцирования самоубийств пациентов. Между тем большинство экспертов довольно точно определяют наиболее суицидальные периоды. Так, 32,0% врачей считают, что самоубийство с наибольшей вероятностью произойдет при некупируемом болевом синдроме, 18,0% - при значительном ухудшении состояния, 15,8% - при выявлении рецидива заболевания и метастазов, 15,0 % - на этапе диагностики онкопатологии. Эти данные согласуются с выявленными нами периодами повышенной суицидальной готовности пациентов [1].

Исследования показали, что простое сообщение о наличии суицидальных мыслей редко является самоцелью для пациентов. Как правило, в то же время они пытаются получить какую-то помощь. Анализ анкет показал, что в 41,1 % случаев пациенты обращаются за консультацией по лечению, 19,6 % обращаются за психологической помощью, а в 12,2 % случаев внешнее проявление повышенной суицидальной готовности направлено на получение какого–либо дополнительного лечения, реже (в 5,6 % случаев) -

назначение наркотических средств для контроля болевых проявлений. Эти данные подтверждают преимущественно соматогенную обусловленность суицидального поведения у пациентов с запущенным раком и являются дополнительным доказательством необходимости повышения качества паллиативной помощи [2].

Ответы, характеризующие тактику онкологов, когда пациенты высказывают им суицидальные идеи, показали, что в большинстве случаев (58,8 %) врачи активно убеждают пациентов в нерациональности такого выхода. В то же время каждый четвертый (23,4 %) пациент указал, что в такой ситуации они не сосредотачиваются на этой теме и стараются уйти от разговора, а 15,0 % ограничиваются лишь минимальными нейтральными замечаниями по поводу этих высказываний. Эти цифры показывают, что 4 из 10 пациентов могут не получить необходимого внимания и помощи от врача в ответ на свои заявления, что в целом подтверждает данные, полученные нами в группе самоубийц [4].

Вопрос о возможности врача совершать самоубийства пациентов остается малоизученным. Среди опрошенных 29,0 % указали на такие просьбы пациентов. В то же время большинство врачей (74,8%) выразили категорическое неприятие ассистированного самоубийства, а 24,3% отметили, что это возможно только в исключительных случаях: на запущенных стадиях онкологического процесса с явлениями недостаточности органов (59,0%), при сильном болевом синдроме (28,2%) или неспособности пациента к самообслуживанию (12,8%).

Аутоагрессивные идеи также могут быть реализованы извне в виде просьб об эвтаназии. На наличие таких проявлений со стороны пациентов указали 41,1 % врачей. И хотя 74,8 % категорически отрицали возможность пропаганды самоубийства, только 55,1 % респондентов выра-

зили негативное отношение к эвтаназии, а 44,0 % согласились с возможностью эвтаназии в исключительных случаях. Участие в эвтаназии было отвергнуто всеми врачами.

Полученные данные свидетельствуют о неоднозначном отношении онкологов к суицидальному поведению пациентов, а также о неспособности их оказать психологическую помощь. Это обосновывает необходимость включения некоторых вопросов суицидологии в учебные программы онкологов.

**Литература:**

1.Любов Е.Б. и группа исследователей. Опыт, осведомленность и отношение больничного психиатрического персонала к суицидальному поведению // Суицидология. 2015. Том 6, № 2 (19). с. 18-29.

2.Терентьева З.М. Клинико-эпидемиологическое обследование профилактики и коррекции суицидального поведения онкологических больных, отказавшихся от специального лечения: Дисс. канд. мед. наук. Уфа, 2007, 154 с.

3.Johnson F., Glare P. Pain in hospitalized patients with cancer. Prevalence, clinical characteristics, impact on quality of life and patient-related barriers // Psycho-oncol. 2000, Volume 9, № 5. p. 30.

4.Krant M., Roy Ph. Срочная медицинская помощь в онкологии. Москва: Медицина, 1985, с. 383-394.

# DİLALTI QƏDƏH ANOMALİYALARININ NİTQ İNKİŞAFINA TƏSİRİNİN PSİXO-PEDAQOJİ TƏHLİLİ

***Aysel İsmayılova***
***BDU, Sosial elmlər və psixologiya fakültəsinin***
***IV kurs tələbəsi***
***Diyanə İbrahimova***
***BDU, Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi***

Ankiloqlossiya (qısa dil qədəhi) , digər adı ilə Hipertrofik linqual frenulum dilaltı pərdənin qısalığı ilə xarakterizə edilən, özlüyündə dil qədəhinin normadan qısa və ya qalın olması ilə özünü göstərən, çox geniş yayılmış və müxtəlif sferalarda bir sıra problemlər doğuran oral anomaliyadır. Normal anatomik quruluşa əsasən dilaltı qədəh dilin alt qismində və orta xətdə yerləşən, quruluş etibarilə ağız döşəməsinə bağlı olan elastik toxumadır.Bu anomaliya, əsasən, körpə dünyaya gəldikdən sonra həkim müayinəsi zamanı ortaya çıxır. Ankiloqlossiya ilə doğulan körpələrin 25-80%-i əmmə, çeynəmə aktı, disfagiya ilə bağlı problemlərlə üzləşirlər. Buna səbəb dilin hərəkət qabiliyyətində maneənin olmasıdır ki, bu da öz növbəsində körpədə dil diş əti xətti üzərinə uzana bilmir, ana südü ilə qidalanmaq üçün çənələrindən istifadə edə bilmirlər. Nəticə etibarilə isə körpədə döşdən imtina, inkişafla bağlı bir sıra pozuntular meydana gəlir. Ankiloqlossiya eyni zamanda qidalanma, çeynəmə aktı, oral-motor koordinasiyası, disfagiya (udma aktı pozğunluğu), ağız suyunun axması halları ilə də özünü göstərir. Bu, növbəti etaplarda özgüvənin aşağı enməsi, eyni zamanda bir sıra psixoloji problemlərə yol aça bilər. Diaqnozun qoyulması üçün uşaq cərrahı, defektoloq-loqoped tərəfindən müayinə prosesi həyata keçirilməlidir.

Dilaltı qədəh müayinəsi necə aparılmalıdır? Körpələrdə dil qədəhi müayinəsi aparılarkən, körpə ananın  qucağında və ya müayinə stolunda arxasıüstə uzadılmalı, həkim körpənin baş

qismi tərəfə keçməli və hər iki əlinin işarə barmağı ilə körpənin dili altdan yuxarıya doğru qaldırılaraq dil qədəhinin
-gərginliyi
-yerləşmə yeri (ön dil qədəhi, arxa dil qədəhi)
-dil formasında deformasiya
-sərbəst dil əhatəsi (dilin ucu ilə dil qədəhinin başlama nöqtəsi arasındakı məsafə) müayinə edilir.

Yeni dil qədəhi qruplaşdırma sisteminə görə ön dil qədəhi *(I, II, III tip)* müayinə zamanı aydın şəkildə diaqnoz edilir. Arxa dil qədəhi isə (*IV tip* submukozal (selik ifraz edən qişa) ) yalnız əl ilə müayinə zamanı aşkar edilir. Submukozal dil qədəhi bəzən "dil qısalığı" ilə səhv salınır. Dilaltı qədəh anomaliyasının korreksiyası bəzi hallarda cərrahi əməliyyata göstəriş prosesi ilə başlayır.

Dilaltı pərdə əməliyyatına göstərişlər:
• Dildə deformasiyalar ( "v" şəklində və ya ürək formasında dil)
• Dil ağız döşəməsindən əhəmiyyətli dərəcədə az yuxarı qalxırsa və dil ağızdan çıxarıldıqda, çox az qismi xaricə çıxırsa
• Dil ağız döşəməsinə və diş ətinə doğru çox bitişikdirsə - bu hallarda cərrahi əməliyyata göstəriş verilir.

Əməliyyat adətən qansız, lokal anesteziya ilə aparılır. Tikişsiz cərrahi əməliyyatlarda dil pərdəsinin çərtilməsindən iki gün sonra loqoped tərəfindən qədəhin yenidən bitişməməsi üçün xüsusi texnikalarla masaj edilməlidir.

Dr.Kotlov tərəfindən dilaltı pərdə qruplaşdırılması təsnif edilmişdir. Klinik olaraq qəbul edilmiş normal dilaltı pərdə məsafəsi 16 mm-dən böyükdür. Bu qruplaşdırmaya əsasən qədəh anomaliyalarının 4 sinifi vardır:
I sinif - yüngül ankiloqlossiya (12-16 mm)
II sinif - orta ankiloqlossiya (8-11 mm)
III sinif - ağır ankiloqlossiya (3-7 mm)
IV sinif - tam ankiloqlossiya (3 mm-dən kiçik)

Dil qədəhində baş verən bu anomaliyalar körpələrdə ana südü ilə qidalanmadan imtina, zəif çəki artımı, disfagiya (udma aktı pozğunluğu) , 1-3 yaş arası uşaqlarda dil hərəkətlərindəki məhdudiyyətlə əlaqədar çeynəmə aktında problemlər, isterika, aqressiv davranışlar, yuxu problemləri, məktəbəqədər və məktəb yaşı dövrlərində isə nitqdə baş verən problemlər ( səslərin qüsurlu tələffüzü) özünü göstərir.

Bu hallarda dil qədəhi anomaliyasından şübhələnmək olar:

•Nitq qüsurlarının olması

•Sürətli və ya uca səslə danışdıqda nitqin qismən anlaşıqsız və fısıltılı olması

•Dili ağız kənarlarına çıxara bilməmək

•Dilin uc qismində bölünmə (haçalanma)

•Çənə ağrıları (xüsusilə alt çənə)

•Boyun ağrısı (dil ucunu önə çıxararkən köməkçi boyun və çənə əzələlərinin istifadəsi ilə əlaqədar)

Qısa və gərgin dil qədəhi olan şəxslərdə bu əlamətlər görülür: Ağızın tam açılması və dilin yuxarı doğru qaldırılmasında məhdudiyyət.Sürətli nitq və bəzi səalərin tələffüzü zamanı pozuntunun qeydə alınması.Uca səslə danışdıqda nitq aydınlığının pozulması. Ağız açılıb bağlanarkən çənədən "klik" (clicky jaws) səsinin gəlməsi. Çənə ağrıları. Miqren. Proqnatiya (alt çənənin önə doğru çıxması- dişləm anomaliyası). Stomatoloji problemlər (əksər hallarda diş əti iltihabı xəstəlikləri). Sosial- kommunikativ sferalarda problemlər (loqofobiya, naqislik hissi və.s.).Yaşlılarda dil qədəhi anomaliyası bir çox hallarda protez dişləri saxlaya bilməmə kimi problemlərə yol açır.

Korreksiya prosesi adətən cərrahi əməliyyatdan sonra xüsusi loqopedik masajla başlayır və disfagiya, çeynəmə aktı kimi problemlər xüsusi defektoloji loqopedik metodikalarla aradan qaldırılır. Sonrakı mərhələdə qüsurlu səs tələffüzü səslərin qoyulması, avtomatlaşdırılması və diferensiasiyası ilə

korreksiya edilir. Bəzən korreksiya mərhələsində yüngül və orta dərəcəli dilaltı pərdə anomaliyası xüsusi loqopedik masaj vasitəsilə tam korreksiya olunaraq normal ölçüyə çatdırlır. Korreksiya mərhələsi zamanı şəxsə paralel olaraq psixoloji, emosional dəstəyin göstərilməsi də vacib nüanslardan biridir.

**Ədəbiyyat**:

1.C.Məmmədov, Ş.İsmayılova, İ.Əlizadə, L.Orucova, S.Qaziyeva, X.Eyvazova, F.Abdullazadə, Əlil və sağlamlıq imkanları məhdud uşaqların aşkarlanması üzrə metodik vəsait, Bakı, 2013

2.N.Hüseynova, L. Rüstəmova Xüsusi Pedaqogika, Bakı, 2007

Малофеев Н.Н., Шматко Н.Д. Отечественные модели интегрированного обучения детей с отклонениями в развитии и опасность механического перенозападных моделей интеграции// Актуальные проблемы интегрированного обучения. М., 2001. С. 8-13

## ПРАВОСОЗНАНИЕ: ПОНЯТИЕ И СТРУКТУРА

***Тейба Халилова***
***Диссертант кафедры психологии БГУ***

Правосознание — сфера общественного, группового и индивидуального сознания, отражающая правовую действительность в форме юридических знаний, оценочных отношений к праву и практике его применения, правовых установок и ценностных ориентации, координирующие человеческое поведение в юридически значимых обстоятельствах. Это совокупность представлений и чувств, взглядов и эмоций, оценок и тенденций, выражающих отношение людей к функционирующему праву [4]. Правосознание является категорией которое, изучается и рассматривается многими науками.

Правосознание является как процессом, так и результатом отражения права в сознании людей. На каждом периоде развития человечества правовые взгляды общества противоречили. В этапе динамического политического, экономического, социального, культурного развития и модернизации общества актуализируется значение правосознания. Правосознание определяет пути дальнейшего развития общества, а также влияет на отдельную личность. Правосознание является такой категорией, которое имеет свой познавательный аппарат, свою систему ценностей и способов оценки, сложную структуру.

В структуре правового сознания по глубине отражения правового явления выделяют: обыденное и теоретическое и профессиональное правосознание. Первый уровень правосознания – обыденное, возникает под влиянием жизненных условий и характерна широкой массе общества. Это первичная стадия правовой социализации личности. Оно формируется в процессе семейного воспитания и выражает отношение личности к праву на бытовом уровне. Профессиональное правосознание формируется в результате специальной подготовки, личность на этом уровне обладает знаниями о законе и умениями навыками его использования [1]. Следует отметить тот факт, что это не только знание законов, но в то же время умение правильно толковать и применять правовые акты. В правоприменительной практике и при обеспечении защиты прав и закона граждан участвует две группы факторов: 1) правосознание граждан, которые вступают в процессе защиты своих прав; 2) правосознание представителей государственных правоохранительных органов. А.Г. Самусевич в структуре профессионального правосознания правоприменителя выделяет три основных элемента: психологический, социологический и юридический (правовая позиция), каждый из этих элементов находятся во взаимосвязи и дополняют друг

друга в то же время имеют определенные специфические черты [3]. Таким образом профессиональное правосознание является условием эффективного осуществления механизма защиты прав и свобод граждан, правовой и политической системы. Теоретическое правосознание это третий уровень правосознания, в отличие от обыденного который носит эмпирический характер, формируется на основе знания и исследования правовой действительности.

В теории права в структуре правосознания выделяют следующие элементы: информационный, оценочный и волевой элемент. Личность может обладать поверхностной или полной информацией о законе и праве весь спектр информации о праве, о законе справедливости включает информационный элемент. Оценочный элемент – после ознакомления с объектом права, личность оценивает его на основе своих убеждений. Результатом этого процесса может быть позитивная, отрицательная либо нейтральная оценка. Волевой элемент – личность получив и оценив информацию об объекте права решает действовать по закону или стремится действовать протии закона.

По Е.В.Змановской структура правосознания личности содержит: знание и понимание законов; принятие правил и уверенность в их полезности и справедливости; готовность (желание, согласие) и способность действовать в согласии с законами [2].

В структуре правосознания выделяют следующие типы оценочных отношений: 1) отношение к праву в целом (нормам, принципам); 2) отношение к правовому поведению окружающих и к объектам деятельности (преступлениям, преступникам и преступности); 3) отношение к правоохранительным органам; 4) отношение к своему правовому поведению.

Таким образом правосознание является динамической категорией которое изменяется в течении всей жизни

в результате приобретения опыта. Правосознание формируется под воздействием социальной реальности  отражает ее и оказывает на нее воздействие. Источником правовой активности личности является правосознание. Структура правосознания представляет сложную систему, и дифференцированы его компоненты могут быть в научных целях, выступая как единое целое.

**Литература:**


1.Ахмедшин Р.Л. Лекции по правовой психологии. Учебное пособиеТомск, 2019.
2.Борисова С.Е. Юридическая психология (психология в деятельности следователя).Орел, 2011.
3.Самусевич А.Г. Правосознание правоприменителя: структурно-функциональный анализ // Вестник ИрГТУ. 2014. №5 (88). с. 272.)
4.Столяренко А.М. Прикладная юридическая психология М.: Юнити-Дана, 2001.


## SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ


***Quliyeva Pərvin Vaqif qızı***
***BDU-nun qiyabi doktorantı***


Sağlamlıq imkanları məhdud olan uşaqlar – öz həmyaşıdları ilə müqayisədə inkişaflarında geriqalma və ya hərəki, qavrama (koqnitiv), kommunikativ, sensor və başqa funksiyaların pozulması aşkar olunan uşaqlardır [1, səh. 4].
Sağlamlıq imkanları məhdud olan uşaqların yaranmasının bir sıra səbəbləri vardır. Onları aşağıdakı kimi qruplaşdıra bilərik:

Endogen (və ya daxili) səbəblər. Bu səbəblər 3 qrupa ayrılır:

- Prenatal (anadan olana qədər): bura ananın xəstəlikləri, sinir pozulmaları, travmalar, genetiklik aid edilir.
- Natal (doğum zamanı): bura ağır keçən doğuş, vaxtından tez doğum, həkimlərin müdaxiləsini aid etmək olar.
- Postnatal (doğumdan sonra): bura məsələn, uşağın harasa dəyməsi, yıxılması və s. aid etmək olar.

Ekzogen (və ya xarici) səbəblər: sosial bioloji səbəblər – bunlar ekologiya, tütünçəkmə, narkomaniya, alkoqolizm, spid kimi səbəblər aid edilir [3, səh. 8].

Sağlamlıq imkanları məhdud uşaqlar dedikdə onları bir neçə qrupa ayırmaq olar:

- Eşitmə imkanları məhdud uşaqlar
- Görmə imkanları məhdud uşaqlar
- Ağır nitq pozulmaları olan uşaqlar
- Somatik xəstəlikli uşaqlar
- Əqli gerilikli uşaqlar
- Psixi inkişafı ləngimiş uşaqlar
- Dayaq-hərəkət sistemi ppozulmaları olan uşaqlar (USİ)
- Erkən uşaqlıq autizmi olan uşaqlar

Təbiidir ki, hər bir qrup uşaqların problemlərindən irəli gələrək onlar özünəməxsus xüsusiyyətlərə malik olurlar. Bu xüsusiyyətlərlə bərabər bəzi xüsusiyyətlər vardır ki, onları ümumi xüsusiyyətlər olaraq adlandıra bilərik. Bu məqaləmizdə biz sağlamlıq imkanları məhdud olan uşaqların bəzi ümumi psixoloji xüsusiyyətlərini nəzərdən keçirəcəyik.

Sağlamlıq imkanları məhdud uşaqların psixoloji xüsusiyyətlərindən danışarkən bəzi məqamlara xüsusi diqqət yetirməliyik. Belə uşaqlarda qavramanın aşağı səviyyəsi müşahidə edilir ki, bu da sensor informasiyanın uzunmüddətli qəbulu və işlənməsini tələb edir. Məkan qavrayışının yaxşı inkişaf etməməsi səbəbindən sağlamlıq imkanları məhdud uşaqlar formanın tam təhlilini apara bilmir, simmetriklik yarada bilmir, fiqurun hissələrini birləşdirib və ya ayıra bilmirlər [3, səh. 5].

Diqqətləri davamsız, dağınıq olur. Uşaqlar bir fəaliyyətdən digərinə keçidi çətinliklə bacarırlar. Diqqətin mərkəzləşməsinin kifayət qədər inkişaf etməməsi uşaqların aşağı intellektual aktivliyi ilə şərtlənir. Belə uşaqlar qüsurlu özünütənzim vərdiş və bacarıqları, təlimdə məsuliyyətsizlik və marağın olmaması ilə seçilirlər. Hafizə sahəsi isə həcm baxımdan məhdud, qısamüddətli yaddaşın uzunmüddətlidən, mexaniki yaddaşın məntiqi yaddaşdan, əyani hafiəzinin sözlü hafizədən daha üstün olur. Idrak fəaliyyəti zəifləmiş olur. Belə uşaqlarda informasiyanın işlənməsi sürəti olduqca zəif olur. Əyani-əməli təfəkkür əyani-obrazlı və sözlü-məntiqi təfəkkürə nisbətən daha inkişaf etmiş olur.

Onların həm yaşıdları, həm də böyüklərlə ünsiyyətə olan tələbatı aşağı səviyyədə olur. Bu səbəbdən də onların oyun fəaliyyəti passiv şəkildə keçir və demək olar ki, inkişaf etməmişdir. Sujetli oyunları çox sadə, ünsiyyətləri və rollu oyunları isə kasad olur.

Sağlamlıq imkanları məhdud uşaqların nitqində nitqi funksiyaların pozulması və ya dil sistemi komponentlərinin tam formalaşmaması müşahidə olunur. Belə uşaqlara psixomotor bacarıqların ləngiməsi nəticəsində həddən artıq yorğunluq, əzginlik, iş qabiliyyətinin aşağı olması xarakterikdir. Bütün bunların nəticəsində uşaqların təlim fəaliyyətinə psixoloji hazırlığı, təlim vərdiş və bacarıqlarının tam formalaşmaması baş verir və bu uşaqların məktəbə getdikləri zaman qarşılarına bir çox çətinliklər çıxarır [3, səh. 9].

Sağlamlıq imkanları məhdud uşaqların qarşılaşdıqları bəzi ümumi çətinliklərə də diqqət yetirək. Bu çətinliklərə - idrak fəaliyyətinə motivasiyanın aşağı olması,ətraf aləm haqqında təsəvvürlərin məhdud olması, tapşırıqları yerinə yetirmə sürətinin aşağı olması, daimi yardıma ehtiyacı olması, diqqətin xüsusiyyətlərinin zəifliyi, nitq, təfəkkürün aşağı inkişaf səviyyəsində olması, təlimatları anlamaqda çətinliklər, infantilizm, hərəki koordinasiyalrın pozulması, aşağı özünüqiymətləndirmə,

yüksək həyəcanlılıq,əzələlərin gərginliyi, kiçik və böyük motorikanın yaxşı inkişaf etməməsi, həddən artıq tez yorulma və ya əksinə yüksək oyanıqlığı aid edə bilərik [2, səh.50].

Sağlamlıq imkanları məhdud uşaqlar çətinliklərlə daha çox məktəb yaşına çatdıqda qarşılaşırlar. Onların malik olduqları xüsusiyyətlər və qarşılaşdıqları digər çətinliklər belə uşaqların təlimə adaptasiyasını da çətinləşdirir. Bütün bu çətinlikləri aradan qaldırmaq, uşaqları sağlam cəmiyyətə inteqrasiya etmək üçün hələ 1970-ci illərdən dünyanın bir çox ölkələrində müxtəlif proqramlar işlənib hazırlanmış, uşaqları təlim fəaliyyətinə adaptasiya etmək üçün müxtəlif formalar həyata keçirilmişdir. Xarici ölkələrin sağlamlıq imkanları məhdud uşaqların təlim prosesinə inteqrasiya olunması üçün apardıqları belə çoxillik tədqiqatlarının müsbət nəticələri hazırda ölkəmizdə uğurla istifadə edilməkdədir.

Belə təhsil formalarından biri də inkluziv təhsildir. Inkluziv təhsil sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə qazandılması, onların sosiallaşması üçün yaradılmışdır. Belə ki, ümumdünya dəhsil sistemində sağılamlıq imkanalrı məhdud uşaqların xüsusi, ayrıca təhsil almaqları düzgün hesab edilmir. Inkluziv təhsil haqqında qanun Azərbaycanda 2004-cü ildən etibarən qüvvəyə minmişdir. 2005-ci ildən isə bir çox məktəblərdə tədbiq edilməyə başlanılmışdır. Inkluziv təhsil dedikdə sağılamlıq imkanları məhdud uşaqların öz sağlam həmyaşıdları ilə eyni sinifdə təhsil almaqları nəzərəd tutulur. Bu zmana həmin uşaqlara köməkçi müəllimlər təyin olur. Inkluziv təhsil istər sağlam, istərsə də xüsusi qayğıya ehtiyacı olan uşaqların birgə təhsil almaq hüququnu təmin edir.

**Ədəbiyyat:**

1.C.Məmmədov, Ş.İsmayılova, İ.Əlizadə, L.Orucova, S.Qaziyeva, X.Eyvazova, F.Abdullazadə, Əlil və sağlamlıq

imkanları məhdud uşaqların aşkarlanması üzrə metodik vəsait, Bakı, 2013
2.N.Hüseynova, L. Rüstəmova Xüsusi Pedaqogika, Bakı, 2007
Малофеев Н.Н., Шматко Н.Д. Отечественные модели интегрированного обучения детей с отклонениями в развитии и опасность механического переносзападных моделей интеграции// Актуальные проблемы интегрированного обучения. М., 2001. С. 8-13

## MUTİZM PROBLEMİNİN PSİXOLOJİ ƏDƏBİYYATLARDA TƏHLİLİ

***Solmaz Hüseynova***
***BDU, Sosial elmlər və psixologiya fakültəsinin***
***IV kurs tələbəsi***
***Diyanə İbrahimova***
***BDU, Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi***

Mutizm Latınca "mutus" sözündən götürülmüşdür və mənası "səssiz" , "susmaq" deməkdir. Uşağın danışa bildiyi halda danışmaqdan imtina etməsi psixoloji bir problemdir və bu narahatlıq Mutizm adlanır. Mutizm psixohərəki pozulmanın simptomudur.

Mutizmli uşaların ilk tədqiqatçısı Q.İtardır. "İntellektual funksiyaların zədələnməsindn irəli gələn mutizm" adlı əsərində (1828) o intellektual mutizmi olan uşaqlara assosial davranışın xas olduğunu göstərir. Bu uşaqlar həmyaşıdları ünsiyyət qurmağa maraq göstərmir, əksinə bu ünsiyyətdən qaçırlar. Əgər belə situasiya yaranarsa, yaşıdları ilə münasibət yaratmaqda çətinlik yaşayırlar. Mutizmli uşaqlar üçün böyüklər yalnız öz tələbatlarının ödənilməsi üçün vasitədir. Onlara empatik yanaşmır, varlıqlarından sevinc hissi duymur, onlara emosional bağlılıq hissi yaşamırlar.

Mutizmli uşaqlarda başqalarının müraciətlərinə cavab reaksiyaları, ya olmur, ya da sönük olur. Onlar ətrafdakılarla

ünsiyyətə tələbatın aşağı səviyyəsini nümayiş etdiməklə yanaşı, hərəkətlərində müvafiq davranış pozuntuları da müşahidə olunur, lakin danışmaq, başqasının nitqini başa düşmək qabiliyyəti qorunub saxlanılır.

Mutizm bir neçə əsas qrupa bölünür:

- Selektiv mutizm
- Elektiv mutizm
- Total mutizm.

Selektiv mutizmi bir sıra araşdırmalara əsasən irsi amillərlə əlaqələndirirlər. Selektiv mutizmli uşaqlarda emosiyaların inteqrasiyası zamanı disfunksiya vardır. Selektiv mutizm zamanı uşaq danışma qabiliyyəti olduğu halda özünü rahat hissetmədiyi yerdə danışmır ya da danışa bilmir. Eyni zamanda selektiv mutizmli uşaqlar bir və ya bir neçə şəxsi seçir və yalnız onlarla ünsiyyət qururlar. Ailələr uşaqlarının normal vəziyyətdə evdə danışdıqlarını və problem yaşamadıqlarını ancaq sosial mühitdə ya da məktəbdə danışmadıqlarını ifadə edirlər. Selektiv mutizm - əlamətləri aşağıdakılardır:

- Psixi inkişafın yaşa görələngiməsi
- Davranışın çətin sosiallaşması
- Emosional sahənin disharmoniyası: sosial mühitdə həyəcanlanma, başqalarının ona diqqətindən ehtiyatlanma, utancaqlıq və qorxu
- Sosial fobiyaların situativ əlamətləri
- Ünsiyyət zamanı nitqdə reqressivlik
- Insanlarla münasibətdə seçicilik, çətinliklər
- Təlim çətinlikləri, öyrənmə marağının zəifliyi

Elektiv mutizmli uşaqlarda rast gəlinən əlamətlər: Məkana və ya şəxslərə qarşı neqativ münasibət, yeni şəraitə və ya mühitə yüksək dərəcədə həssaslığın olması , adaptasiya və uyğunlaşma prosesinin pozulması, psixoloji cəhətdən yüklənmələrə qarşı isterik reaksiyaların olması ,özünün nitq ,ünsiyyət, kommunikativ , intellektual çatışmazlıqlarına qarşı sosiofobiyalı münasibət.

Torey Haydenə görə Elektiv mutizmin 4 növü müəyyən edilmişdir:

- Simbiotik mutizm- Yetişkinlərin davranışlarına nəzarət etmək üçün istifadə olunan mutizm
- Danışıq fobiyası və ya qorxusu – öz səsinin eşidilməsinə qarşı qorxu, ailə sirrinin saxlanılması məqsədilə istifadə olunan mutizm
- Reaktiv mutizm-istismar və travmadan qaynaqlanan
- Passiv aqressiv və ya Hayden səssizliyi -Antisosial davranışla əlaqəli olan mutizm

Total mutizm zamanı isə insan heç bir halda heç kimlə ünsiyyət qurmur və danışmır. Total mutizmə yaşlı insanlarda rast gəlinir. Yaranması psixoloji və psixiatrik səbəblərlə bağlıdır.Total mutizmli insanlar həyatın hər sahəsində ,ünsiyyətdə olduqları heç kimlə danışmırlar.Ünsiyyəti əgər varsa sadəcə yazılı şəkildə qururlar.

Mutizmin uşaqlarda yaranmasına səbəb olan bəzi faktorlara nəzər salsaq aşağıdakıları fərqləndirə bilərik: psixi travma, şiddət, valideynlərin mükəməliyyətçi və nəzarətçi olmaları; anksiyete problemi; baş beynin zədələnməsi (qan dövranının pozulması,beyindaxili təzyiq).

XBT 10 -a görə Mutizmin Diaqnozu qoyularkən aşağıdakı simptomlar nəzərə alınır;

- Başqa vəziyyətlərdə danışa bildiyi halda,müəyyən yerlərdə danışa bilməməsi
- Pozuntunun ən az bir ay müddətində davam etməsi
- Pozuntunun məktəbə , sosial ünsiyyətə və ya peşə bacarıqlarına mane olması

Mutizmin müalicəsi və korreksiyası zamanı Davranış terapiyasından, Koqnitiv davranış terapiyasından, ailə terapiyasından və oyun terapiyasından istifadə olunur.

Mutizm zamanı valideynlərə aşağıdakı kimi məsləhətlər vermək olar. İlk öncə ailəni bu problem haqqında məlumatlandırmaq lazımdır. Uşağın ailəsi ilə ünsiyyət saxlanılaraq

uşağı danışmağa cəsarətləndirmək üçün onunla tez-tez güvənli ünsiyyət qurmaq lazımdır. Susmaq şüurlu şəkildə edilmir. Bu məsələyə diqqətlə yanaşılmalıdır. Uşağı danışmağa məcbur etmək onun daha da qapalı olmasına səbəb ola bilər. Bu səbəbdən məcburiyyətə yol verilməməlidir. Nəzərə almaq lazımdır ki, mutizm vaxtında müalicə olunmadıqda uşaqlar içinəqapanıq və özgüvəni aşağı şəxslər ola bilərlər. Buna görə də diaqnoz qoyulduğu gündən müalicə başlanmalı və korreksiya olunmalıdır. Terapiya qrup işi şəklində(uşaq psixoloqları, müəllimlər, loqopedlər) aparılmalıdır.

**Ədəbiyyat**:

1.C.Məmmədov, Ş.İsmayılova, İ.Əlizadə, L.Orucova, S.Qaziyeva, X.Eyvazova, F.Abdullazadə, Əlil və sağlamlıq imkanları məhdud uşaqların aşkarlanması üzrə metodik vəsait, Bakı, 2013

2.N.Hüseynova, L. Rüstəmova Xüsusi Pedaqogika, Bakı, 2007

Малофеев Н.Н., Шматко Н.Д. Отечественные модели интегрированного обучения детей с отклонениями в развитии и опасность механического перенозападных моделей интеграции// Актуальные проблемы интегрированного обучения. М., 2001. С. 8-13

## MÜNDƏRİCAT

***Əliyeva Kamilə, Cabbarov Rəşid.*** Müasir şəraitdə şəxsiyyətin inkişafında dəyərlərin rolu.......................................................4

***Мухтарова Нубар.*** Личность шахида бессмертна!..............9

***Гусейнова Гульнара.***Роль семьи в формировании культурно - нравственных ценностей подрастающего поколения.......................................................................17

***Məmmədov Tohid, Dadaşzadə Əhliman.*** Davamlı insan inkişafı və Müstəqil Azərbaycan...........................................23

***Велиев Дахил, Маммедли Ирана.*** Психологические механизмы толерантного поведения……………………….30

***Cabbarova Lalə.*** C.Gerbnerin nəzəriyyəsində medianın sosial-psixoloji təsir effektləri...........................................................35

***Sultanova İlhamə.*** Əbdül Əlizadənin üçtərkibli taksonomiyasında şəxsiyyətin polimədəni inkişaf məsələləri ....................39

***Эюбова Мехрибан.*** Психологический аспект исследования проблемы адаптации и адаптивного поведения в системе научного знания..................................................................43

***Nuriyeva Məlahət.*** Ekstremal şəraitdə təhsilin təşkili məsələləri.. .................................................................................55

***Məmmədli İranə, Elnarə Piriyeva, Mustafayev Müşviq.*** Psixologiyada dəyərlərin tədqiqinə müxtəlif yanaşmalar.........60

***Nəsirova Nigar.*** Əqlin tənqidiliyi və onun xüsusiyyətləri........65

***Aslanova Şahnaz.*** Şəxsiyyətin dəyərlər sisteminin formalaşmasına təsir göstərən etnik psixoloji amillərin təhlili....................69

***Hacıyeva Ayna.*** Şəxsiyyətin inkişafına emosiyaların təsirinin təhlili.........................................................................................73

***İbrahimova Diyanə.*** Moda subyektlərinin sosial – psixoloji xüsusiyyətlərinə dair..........................................................................80

***Сафарова Джамиля.*** Психолого-педагогические проблемы патриотического воспитания в среде студенческой молодежи ...................................................................................84

***Həsənova Ülkər.*** Təhsildə gender stereotipləri........................88

***Dadaşova Aydan.*** Gender assimmetriyası gender sosiallaşması kontekstində..........................................................................92

***Qurbanova Nərminə.*** Mədəniyyətlərarası qarşılıqlı təsirin bəzi məsələlərinə dair..................................................................96

***Rza Xaqan.*** Vətən müharibəsi Azərbaycan mediasında.........101

***Cəbrayılova Səbinə.*** Ekstrasensor qayrayışın tədqiq olunması qaydaları..........................................................................106

***Quliyeva Gülnar***. Kiçik məktəblilərdə "mən obrazı"nın formalaşmasının psixoloji təhlili..................................................112

***Kazımova Məhbubə***. Yeniyetmələrin aqressiv davranışı və art terapiya.............................................................................114

***Paşayeva Ayşən.*** Ər-arvad arasında meydana gələn konfliktlərin səbəbləri və həlli yolları....................................................117

***Həsənova Aytəkin.*** Kiçikyaşlı uşaqların inkişafında oyunun rolu..................................................................................121

***Cəlilova Aisa.*** Emosional yanma sindromu psixoloji fenomen kimi.................................................................................125

***Piriyeva Elnarə, Hüseynova Nurlana.*** Şəxsiyyətlərarası münasibətlərin psixoloji xüsusiyyətləri...................................129

***Abasova Səbinə.*** Müəllim - yeniyetmə münasibətinin formalaşmasında psixo-pedaqoji amillərin rolu..................................133

***Melek Tolunay.*** Vaginizmin tərifi, təsnifatı, etiologiyası və müalicəsi ...........................................................................136

***Yusifova Nigar.*** İdmançıların uğur qazanmasında psixoloji hazırlığın əsas istiqamətləri..................................................140

***Hacıyeva İlahə.*** Bəyənilmə arzusunun insan davranışına təsiri ...............................................................................................143

***Sümeyra Avcı.*** İnklüziv məktəbdə pedaqoji kollektivin kəkələyən uşaqlara inteqrativ yanaşma modeli.....................146

***Mənsumova İlkanə.***Soyqırımla bağlı psixoloji araşdırmalarda əsas konseptual məsələlər ..................................................150

***Махмудова Эльнора.*** Отношение онкологов к суицидальной активности больных злокачественными новообразованиями......................................................................................154

***İsmayılova Aysel, İbrahimova Diyanə.*** Dilaltı qədəh anomaliyalarının nitq inkişafına təsirinin psixopedaqoji təhlili..........................................................................................159

***Халилова Тейба.*** Правосознание: понятие и структура....162

***Quliyeva Pərvin.*** Sağlamlıq imkanları məhdud uşaqların psixoloji xüsusiyyətləri..........................................................165

***Hüseynova Solmaz, İbrahimova Diyanə.*** Mutizm probleminin psixoloji ədəbiyyatlarda təhlili............................................169

Texniki redaktor: **D.R.İbrahimova**

Ümumrespublika
elmi-praktik konfransın materialları
(3 noyabr 2021-ci il)

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov

Çapa imzalanmışdır:
Kağız formatı: 60x84 1/16 Həcmi: 16.75 ç.v.
Sayı: 100

“Füyüzat: nəşriyyatının mətbəəsində çap olunmuşdur